XİROSİMA

Gecə
Gizlicə, gizlicə
Oğurlanıb soxulur
İnsan həyatıma yuxum.
Yuxuda görürəm ki, dünyada yoxam.
Hələ bu Yer kürəsi də maviliklərin
Dərin sükutu içində balaca bir qayıqmış
Od alıb elə yanır ki, yanır elə bil
bir çəngə qalmış.
yanır:
yer,
göy,
su,
hava.
– Sus,
dava
başlayıb –
deyir
bir səs:
"Partlayış!
Deyirlər
XX əsrin
Səbri partlamış"
Yanır kirpiklərdə yaş,
Yanır arzu, murad, təlaş,
Ömrün yoludur yanan qarşımızda.
Zəhər yağır kirpiyimizə, qaşımıza.
Əsir çəhrayı rəngli əcaib bir külək
Yuxudan gözlərimi açıram həvlnak.
Bir tərəfdə günəş – xeyirxah bir işıq
Yadıma düşür,
Axşam yuxudan qabaq Xirosimadan danışmışıq.

AZƏRİYƏM

Od oğluyam, alovlardan doğuldum,
Alovlana-alovlana.
İlk bahardan doğuldum,
Lalə kimi yana-yana.
Onunçün də baxışımın
Odlara var bənzəri.
Azəriyəm, azəri.

Dağ başında şimşək olub
Mənim misri qılıncım.
Atlarımın nallarından
Qopan topa qığılcım –
Ulduz olub səmalara
Sancıldılar gecələr
Od oğluyam, sübhə kimi
Günəş məndə gecələr.

Vüqarilə başı qarlı
Dağlarını andıran,
Dostlar üçün özü yanan,
Düşmənləri yandıran
Od oğluyam, torpağım od, suyum od.
Mən alova bənzədirəm
Dəliqanlı Xəzəri.
Azəriyəm, azəri.

1966

ÜÇÜNCÜ ADAM

Bir şəkil var önümdə
İkimiz dayanmışıq.
Bu sənin qaşın, gözün,
Bu mənim qaşım, gözüm.

Ötən günlərimizdən
Bu günə boylanmışıq.
Bu sənin cavan üzün,
Bu mənim cavan üzüm.
Dondurmuşuq şəkildə
Ömrün ötən anını.
Əziz bir xatirətək
İlişib saçımızda
Qalıb bir parça külək.
Bu şəkilə baxanlar
Ancaq görürlər bizi.
Başdan-başa süzürlər
Bizim hər ikimizi.
Bu şəkilin içində
Kağıza həkk olmamış,
Üzü bura düşməmiş,
Özü bura düşməmiş
Üçüncü bir adam var.
(Gözə görünməyəndə
Unudulur adamlar).
Üçüncü bir adam var,
Mənə gülümsə dedi.
Sənə gülümsə dedi.
Bizdən gülüş istədi.
Bizi göstərmək üçün

Bu şəkildə gizlənib
Əllərinin əməyi.
Bəlkə unutmuşam da
Bu şəkili alanda
Ona "sağ ol" deməyi.
Baxırıq özümüzə,
Onu salmırıq yada.
Amma çətin olardı
Fədai üçüncülər
Olmasaydı dünyada.

1960

MƏN KİMƏM

I

Mən ayaq açıb anamın yanından
məzarıma kimi gedən bir yolçuyam.
Atamın məsləkinə, anamın laylalarına
qarovulçuyam.

II

Məni yandırıb-yaxan
ən böyük hicranımın səbəbi
görüşlərimdir.
Böyük, kiçik, yaxşı, pis
bütün əməllərim
yolüstü gördüyüm
işlərimdir.

1965

ŞAİR ÖLÜMÜNƏ MƏN İNANMIRAM

Bir durna təkləndi, bir şam qaraldı,
Bir dalğa qıy çəkib itdi dənizdə.
Şeir rübabından bir tel qırıldı,
Bir səs çatışmayır xoş nəğmələrimizdə.

Keçib fırtınadan, tufan içindən,
İşıqlı sahili haqlamışdı o.
Keçib tarixinin keşməkeşindən,
Bir şair ürəyi saxlamışdı o.

Əyilib güllərə salam deyirdi,
Deyirdi sabahın hüsnü özgədir.
"Heç yana, heç yerə tələsməyirdi".
Nə bilsin karvanı yığışıb gedir.

Hər misra yazanda o, bir yaş artdı,
Düşündü hamını – tanışı, yadı.
Neçə qəhrəmanı yazdı, yaşatdı,
Özü yaşamağa vaxtı qalmadı.

Bilirdi həyatın üzü soyuqdur,
Dünyaya "namərdsən" deməmişdi o.
Qanundur, oyanı, buyanı yoxdur,
Gələn getməlidir; gəldi-getdi o.

Ölüm də qanundur yaşamaq kimi,
Odur ki, artıqdır göz yaşları, qəm.
Deyib qurtarmamış hələ fikrini
Şair necə ölər, başa düşmürəm!

Qəlbində deməli min nəğmə, min sirr,
Ruhunda yaratmaq, yazmaq həvəsi, –
Torpağın qoynuna qoyulsa şair
Alışıb yanmazmı bu yer küresi?

Ölüm doğulmaqtək ötərgi andır,
Hər beşik axırda bir məzar olub.
Ölüm bu dünyada doğulanındır,
Şairsə dünyadan əvvəl doğulub.

Hələ yaranmamış bu yer küresi,
Küləklər min nəğmə bəstələmişdi.
Çoxdan yaranmışdı şerin nəfəsi,
Hər ulduz şirin bir layla demişdi.

Ölüm də, olum da, bunlar bir yana,
Bu adi qanunu mən də danmıram.
Şair nəğmə kimi gəlir cahana,
Nəğmə ölümünə mən inanmıram.

1965

SƏHƏR

Hər gün səhər ayaqlarım yola düşür.
Yolda dünənki izlərimlə də görüşür.
Oyandığım çağ,
Düşdüyüm dayanacaq,
Qalxdığım pillələr,
Gördüyüm üzlər,
Verdiyim salamlar,
Dediyim sözlər,
əzbər, əzbər.
Gördüyüm iş
vərdiş.
Otaqda nəzakət,
dəhlizdə gülüş,
vərdiş.
Az sonra yenə Zəhra xanımın tanış səsi,
şüşə kimi sınır
zərif hövsələsi.
Ay aman, tüstüdə boğdunuz məni,
Açın qapını, pəncərəni!
Sən demə papiros çəkirikmiş.
Eh vərdiş, vərdiş...
Deyirəm heç olmasa
hər səhər işə gələndə
mənə yalan deyəydin –
İnanmağı məndə.
İnanım, ya kədərlənim,
ya da sevinim.
Sonra yalan olduğunu
bilim.

Yenə də ya kədərlənim,
ya da sevinim...

Təhqirdir vərdişlə görülən iş,
verilən salam!
Vərdişlə işləyənləri
idarəyə buraxmayaq,
vəssalam!

1966

AĞRI

Qatarı yola salmaq,
Səkidə təkcə qalmaq,
Ötən ömür, gün kimi
Gedənlərin dalınca
Gözlərin qaralınca
Baxmaq, yaman ağırdır.
Gözüm yaşarmasa da,
Ürəyimi ağrıdır.

Kiçik dayanacaqlar
Görəsən, nə vaxtacan
Belə dayanacaqlar
Şəhərlər arasında?
Nə ordadır, nə burda –
Yolların yarısında.
Qurbağa qurultusu,
Çəyirtkə səsi altda,
Bir də ki, ulduzların
Səssiz nəğməsi altda
Sübhə kimi boğulur.

Gəlib keçən qatarlar
Sinəsinə dağ olur.
Kiçik dayanacaqlar

Qatarına gecikmiş
Sərnişinə bənzəyir.
Bir az sənə bənzəyir,
Bir az mənə bənzəyir.
Qatarı yola salmaq,
Səkidə təkcə qalmaq

Ağırdır, çox ağırdır,
Ürəyimi ağrıdır.

Gedənlərin dalınca
Baxıb göz qaralınca
Şüşə kimi sınıram.
Qatar pəncərəsindən
Atılmış kağız kimi
Arxada çırpınıram.

Qatarı yola salmaq,
Səkidə təkcə qalmaq
Ağırdır, çox ağırdır.
Gözüm yaşarmasa da
Ürəyimi ağrıdır.

1966

* * *

Axşam bütün yollar
bizim evə sarı gedir,
səhər bizim idarəyə.
Düşmüşəm belə bir dairəyə,
yaşayıram.
Ömrümü maşınlara yükləyib,
səhər idarəyə,
axşam evə daşıyıram.
Bir gün gələr
göz yumub torpağa, yollara, insana

burularam yana.
Sinəmin üstündə bir topa çiçək,
yuxarıda mavi səma,
arxamda yetim qalan
xatirələr.
Xatırlayarlar, deyərlər...

1966

GÖZÜNÜZƏ SU VERİN

Dünya xəritəsinə,
Dünyanın altı qitəsinə,
yəni
bir vərəq kağıza
Büküb bir fəhlə öz nahar yeməyini.
Dürməkdə bir əlcə çörək,
Yanında ona münasib yavanlığı.
Bir də bu çörəyi qoyan qadının
Səhər öz ərinə göstərdiyi mehribanlığı.
Dünyaya bax ortaya qoyulub,
bir fəhlə süfrəsi olub.
Şərimi də qoyub yarıda
Bura tamaşaya çağırıram
dünyanı da, insanları da...

1962

İNSANAM

Ömrümün sonuna doğrudur atdığım hər
addım.
Hələ üstəlik,
Atom bombası, böhtan, nüvə silahı, tənə
Bunları da özümü öldürmək üçün yaratdım.

1966

MƏNİMDİR

Öldü varlı ata,
qaldı varisi.
Dedi ki: mənimdir
torpaq, xaniman.
Bu vaxt eşidildi
torpağın səsi.
– Görək kim kimindir,
ey cavan oğlan!

1959

* * *

Dünən biri mənə yalan deyirdi,
Onu utandırmamaq üçün aldandım.
Ürəyində o məni avam saydı.
Dedim nə olar, bu da belə bir
adamdı.

1963

ARVAD SÖZÜNƏ BAXAN

Qınamayın məni,
Uşaqlıqda qadın laylasına yatmışam.
Çox sevirəm ənənəni.

1963

XƏSTƏ VƏ HƏKİM

– Bir az ömür istəyirəm,
bir az da, bir az da...
Bir əsr də azdır, beş əsr də,
On əsr də azdır.

Həkim heyrətlə
xəstənin nəbzindən
çəkdi əlini.
Bəs nə qədər?
– Beş gün də olsa,
bilməyim qədərini.

1966

* * *

Evim – avtobuslar, vaqonlar, təyyarələr.
Kəndlər, şəhərlər, səyyarələr –
dayanacağım.
Milyon kilometrlərlə ömür
yaşamışam.
Kim bilir,
harada dayanacağam.

1962

ÖZÜNÜZƏ KÖMƏK EDİN

Vicdan – həya deməkdir.
Vicdan – ürəkdə təkdi
Həmin ürəkdəki əclaflıqlara qarşı.
Arabir öz işinizə də qarışın.
Öz vicdanınıza da
Öz köməyiniz gərəkdi.

1963

KAMÇATKA VULKANLARI

Yandım, susuzam, istəyirəm vulkan içim mən.
Şimşək kimi hərdən alışır göz bəbəyimdə
Ruhumdakı üsyan eləyən vulkan içimdən.
Hər anda yanan gözləri gördükcə deyirsən
İnsan doğulub lap elə bil vulkan içindən.

Kamçatka, 1964

QORXMURAM VƏ QORXURAM

Qorxmuram ölməkdən,
Qorxuram ki, mən,
Ölmək lazım gəlsə
Ölə bilməyəm.

1963

* * *

Hcç açmayaq bu sirri
Kasıbların cibi çoxdur,
Dövlətlinin qazanc yeri.

1963

YER KÜRƏSİ FIRLANIR

Sərhədlər çalın-çarpaz, silahlar yığın-yığın,
Güya budur pənahı dünyada yaşamağın.
Elə silahlar gəzir hava ilə, su ilə

Silər qalaktikadan yer kürəsi sözünü.
Heç bir şeydən xəbərsiz yaşamaq arzusuyla
Yer kürəsi fırlanıb günə verir özünü.

1964

SƏKİLƏR

Çalın-çarpaz küçələr,
düyün-düyün səkilər.
Sinənizdə quş kimi
döyündüyüm səkilər.
Çox da öyünməyin siz,
dağılardı səkiniz,
Küçələrdən keçsəydi
qəlbimizdən keçənlər.

1964

İNFARKT

Ürək doğuldu,
böyüdü, yaşa doldu,
İnfarkt oldu.
Yüz yana yozdular səbəbini,
Axtardılar çarəsini də.
Əsl səbəbi
ani intizar idi
"hə" ilə "yox" arasında.

1966

* * *

Baxıb uzaqdakı xatirələrə,
Dağ boyda dərdimi, qəmimi hərdən
Gizlətdim kədərli gülüşümdə mən.
Eh... nahaq yerə...

1963

* * *

Xəncər kəsmir qınını
Kəsərdi,
Onu qoymur
Mərdliyin sərt qanunu.

1963

QANUNDAN KƏNAR

Qanundan kənar iki addım atırıq dünyada
Biri dünyaya gələndə, o biri də,
hə də...

1963

ULDUZLARA DOĞRU YÜRÜŞ

Hər ulduz bir evin pəncərəsinə bənzəyir.
Sevincli, qəmli, işıqlı, insan həyatlı.
Onunçün göylərin qapısını döyürük
zaman piyada olub, biz atlı.

1963

GECƏ YAMAN UZUNDUR

Gözümün işığına
hər kirpik bir yük olur.
Gecə yaman uzundur.
Bəzən bir ömürdən də
bir gecə böyük olur.
Gecə yaman uzundur.
Xəyallar şirin-şirin,
Xəyallar acı-acı,
Gecə yaman uzundur.
Qəlb vüsalın möhtacı,
Göz yuxunun möhtacı,
Gecə yaman uzundur.
İndi yəqin yuxuda
Xumar-xumar gülürsən,
Eh... sən hardan bilirsən
Gecə yaman uzundur.

1963

BU GÜN XOŞBƏXTƏM

Bu gün xoşbəxtliyimə
qoy qibtə etsin hamı.
Dartıb cırıb yaxamı,
Sərilmişəm göydəki
ulduzların üstünə.
Kədər dolu gözümdə
şam yandırır arzular.
Ürək arzusuz olsa
Ürək olmaz, buz olar.
Bahardan da xoşbəxtəm.
Ruhum musiqi dolu,
Könlüm laləli dərə.
Bu gecədən vuruldum
Mən bütün gecələrə,

Hələ gündüzlərə də.
Qəlbim dənizə bənzər,
Sevincim – fırtınası.
Bu boyda sevinc olmaz
yanasıyam, yanası.
Heç yata da bilmirəm,
Sevincimə bax mənim,
mat qalmışam özümə.
Səbəbi də heç nədir, –
Bir qız gülüb üzümə.
Qəribə insanlarıq.

1962

GECƏNİN NƏĞMƏSİ

Mənim də öz səsim var,
sözüm var.
Səsimdir bu laylalar,
laylalar.
Qaranlıq saçlarımı
Bu dünyaya sərmişəm.
Mən yuxu gətirmişəm,
gəlmişəm.
Dəyişsə də fəsillər,
Dəyişsələr də illər
Mən hər axşam gəlirəm,
gəlirəm.
"Xoş gəlmisən" demirlər,
deyirlər.
Mən onsuz da gəlirəm,
gəlirəm.
Mən bir anayam, ana.
Gəlirəm ki, cahana
Yatın, bir az dincəlin.
Adlayıram çayları,

Adlayıram selləri,
Tikanlı məftilləri,
çölləri.
Elə bir şey yoxdur ki,
O mənim səddim olsun.
Azəri deyiləm ki,
Araz sərhədim olsun.
Mənim də öz səsim var,

sözüm var.
Səsimdir bu laylalar,
laylalar.

1963

QUZU

Bax gözlərimə mənim,
Ulduzdur, dan ulduzu.
Ulduzlar da vurğundur
O mavi səmalara.
Mən hara, səma hara?
Mən bir quzuyam, quzu –
Bacarıqsız, qanadsız.
Yeməyim yerə bağlı,
Heç bir əlim də yoxdu
Amma ki, dörd ayaqlı.

Ürəyimin yerində
Bir pələng ürəyi var,
Məni odlara salar.

Çöllər aşmaq istəyir
Düzlər keçmək istəvir.
Aslanlarla görüşmək
Pəncələşmək istəyir.

Nərə çəkmək istəyir
Başqa pələnglər kimi.

Rahat olmur sinəmdə
Dəli küləklər kimi.
Neyləyim? Bəs neyləyim?
Dərdimi kimə deyim?
Elə düşsəm kəsərlər,
Çölə düşsəm qurd yeyər.

Dünyada ən bədbəxti
Xəbər alsalar əgər
Siz nişan verin barı.
Pələng ürəyi ilə
Quzu doğulanları.

1963

HARDASA, NƏ VAXT

Hardaydı, bilmirəm, gəldik üz-üzə,
Gözlər yana baxdı, ürək alışdı.
Buludlar dayanıb baxdılar bizə,
Lalələr titrəşib nəsə danışdı.

Ayrıldıq gərəksiz saxta vüqarla,
Biz dönüb baxmadıq geriyə ancaq.
O vaxtdan gedirəm mən bu yollarla
Ürəyim deyir ki, dön bir, geri bax.

"Geri bax" söyləyir saçımda külək,
Arxada qalıbdı könlümün gözü.
Nəyə lazım imiş üz-üzə gəlmək,
Yollar başqa səmtə çəkirsə bizi.

O vaxtdan gedirəm bu yollarla mən.
Deyirəm dayansın üz-üzə gələn

Göydə təyyarələr, yerdə qatarlar
Orda görüşməmiş ayrılanlar var.

Tələsmə üz-üzə gəlib ötməyə,
Bircə an dayanın, dinin, danışın.
Küləklər üstündən ötüşür deyə,
Bilməyir sirrini minillik daşın.

Siz ar bilməyiniz ürək açmağı,
Dayanın, ötsəniz, boylanın geri!
Zaman da tələsmir ömrün bu çağı,
Dayanır gözləyir görüşənləri.

Görüşdük nə vaxtsa, bir yol hardasa,
Dinmədin, ürəyim, əzabındı çək.
Bəlkə bir də yollar görüşdürəcək
Bizi qocalanda, əlimdə əsa.

Dayan! Dur! – deyərəm mən də o vaxtı
Deyərəm: "Qulaq as, qəlbim nə çəkdi..."
Buludlar göylərdə qaralacaqdı,
Lalələr kədərlə deyinəcəkdi.

1960

QARA GEYİNMƏ

Ağ incidən xal düzürsən üzünə
Göz yaşların yanağına axanda.
Sən yazırsan gözlərinlə gözümə
Dərd-qəmini, mənə sarı baxanda.

Kövrəlməyin ürəyimi əsdirir,
Gedəcəksən bu hal ilə hara, yar?
Ölüm gündə min qapını kəsdirir,
Gəl geyinmə sən əyninə qara, yar!

Çox ağlama, gülünc olmayaq yada,
Fikir çəkmə, gül yanağın solmasın.
Sevdiyim qız, görmüsənmi dünyada
İnsan olsun, dərdi-səri olmasın!

Haqqın yoxdur belə hökmü verməyə,
Çaylaq olsun, çayın daşı olmasın?
Heç olarmı göz yaransın görməyə,
Ağlamağa gözün yaşı olmasın?

Bu halına nə deyim mən, nə bilim?
Qara geysəm, sən mənə nə deyərsən?
Əgər sənin vəfan varsa, sevgilim,
Çıxart onu, mən öləndə geyərsən.

1957

QARA DƏNİZ

Qəzəbindən ağarıb,
Qara dənizim, rəngin.
Dalğaların,
qəzəbli pəncəsi kimi pələngin,
sahili cırmaqlayır.
Elə bil sahil qaçmaq istəyir,
dalğalar tutur, saxlayır.
Sahildə yaralı göyərçinə dönürsən.
Lal adam xəbər gətirən kimi
çırpınıb, döyünürsən.
Baxışlarımla tumarlayıram səni,
ay sirlərin bağlı sandığı,
Qara dənizim!
Balıqların duzlu vətəni,
Gəmilərin mavi qəbiristanlığı,
Qara dənizim!

1962

GÜNAH YOLDADIR

Soyuq baxışlarından,
Könülsüz söhbətindən
Üşünürəm, danışma.
Onsuz da eşitmirəm,
Düşünürəm, danışma.

Yol zəhirmar, elə bil,
Dolaşıb ayağına.
Ayağını açmağa
Sənə kömək eləyir
Bu sözlərin yığını.

Görüşməyəydik gərək...
Görüşmüşük, neyləyək?
Söhbətin xeyri yoxdur...
Heç olmasa danışma –
Üşüyürəm, soyuqdur...

1966

DƏNİZDƏ AY ÇİMƏNDƏ

İşıqlı pəncərələr
Göz yumub qaralanda,
Ay işığı sərilib
Damlar üstə qalanda
Dəniz nağıl danışır
Elə bil ulduzlara.

Mən yatıram, unudub
Düşüncəmi, fikrimi.
Soyunub yorğunluğu
Öz iş paltarım kimi, –

Özüm də heç bilmirəm
Tullayıram mən hara.

Bəzən axır yuxuma
Bir cır xoruzun banı.
Hürküdür kirpiyimdə
Mürgüləyən zamanı.
Durub ayaq izimi
Düzürəm mən yollara.

1966

BALIQÇIYAM

Balıqçıyam, balıqçı,
Bir dənizim var mənim.
Dalğa qırışlarında,
Qayıq izim var mənim.
Tordan dəniz süzmüşəm,
Tordan zaman süzmüşəm.
Əksi sulara düşmüş,
Bir asiman süzmüşəm.
Tora günəş düşmüşdür;
Balıq yoxsa da nə qəm.
Amma qarnım acanda.
Mən günəş istəmirəm,
Mən balıq istəyirəm.
Odur ki, soruşana
Balıqçıyam deyirəm.
Balıqçıyam, balıqçı.
Ayağımın altında
Batır günəş, doğur ay.
Dəniz mavi bir örpək,
Ulduzlu bir kəlağay,
Titrəşən ulduzlara.
Yelkənim dəyir keçir,

Çilənən dalğalardan,
Ruhum sərinlik içir.
Baxsan bu gözəlliyə,
Gözlərin sərxoş olar.
Amma tək ona baxsan
Evə qayıdan zaman,
Əllərin də boş olar.

Onda nə fayda bizə,
Tor atıram dənizə
Balıqçıyam, balıqçı.

MƏNİM MƏSLƏKİM

Gözümdəki işıqdır, sinəmdəki ürəkdir.
Başım üstə günəşdir, süfrəm üstə çörəkdir.
Mənim məsləkim.

Dodağındakı nəğmə, damarındakı qandır.
Hələ mən doğulmamış taleyimi doğandır.
Mənim məsləkim.

Körpəmin gələcəyi, anamın sevincidir.
Qılınc kimi kəsərdir, könül kimi incədir.
Mənim məsləkim.

Ömrümün yol yoldaşı, arzumun silahısan,
Sən gözümün nurusan, ömrümün sabahısan,
Mənim məsləkim.

PAYIZ

Günəşə bənzəməkçin yarpaqlar saraldılar
Yerə şölə salmayıb, yenə kölgə saldılar.

YAŞAMAQ EŞQİNƏ, HƏYAT EŞQİNƏ

Qədim tarixləri aç varaq-varaq,
Acizə əyilən qəhrəmana bax.
Alim qoyun güdüb, əlində çomaq,
Yaşamaq eşqinə, həyat eşqinə.

Dostunu düşmənə əzdirən də var,
Özü öz canını üzdürən də var.
Ölümü qoynunda gəzdirən də var;
Yaşamaq eşqinə, həyat eşqinə.

Yaşamaq hər kəsə gəlməsin asan,
Ya gənc, ya qoca ol, daim yoldasan.
Uzaq ulduzları gözəcək insan,
Yaşamaq eşqinə, həyat eşqinə.

DİLİN BƏLASI

Dedim şoferə: tez sür! Məni çatdır yarıma,
Çatım arzularıma.
Şofer üzümə baxdı, tez saxladı maşını.
Dedi: dönəsi olduq burdan geriyə birbaş.
Yamanca yerdə saldın yarı yadıma, qardaş.

KÖMƏK

Deyin, od olmasa, ocaq yanarmı?
Körüksüz bir kürə alovlanarmı?
Deyirlər torpağa düşsə də gövhər,
Yenə qiymətini itirmir, ancaq
Onu da əyilib götürməsələr,
Ayaqlar altında tapdalanacaq.
Qınsız pas atmazmı iti bir tiyə.
Buludsuz, de haçan boran, qar olub?

Allahın özünü görünməzliyə
Yəqin ki, ilk dəfə qaldıran olub.
Suya, ağaclara, insanlara bax,
Həyat olardımı, günəş olmasa?..
Qıçları taqətdən düşmüş qocaya
Deyin əl tutmurmu adi bir əsa.
Heç kəs yaxasını çəkməsin yana,
Hamı bir-birinə gərəkdir, gərək.
Dar gündə insana əl tutmayana,
Yaxşısı budur ki, insan deməyək.

XƏZƏR

Bu axşam Xəzərə qonaqdır səma
Bu axşam sözü də verək rəssama.
Qoy o da gələndə lap asta gəlsin,
Qoy səma sularda bir az dincəlsin.

Xəzər dalğalandı, su yırğalandı,
Dedim ki, ulduzlar ürküşər indi.
Sahil işıqları Xəzərdə yandı,
Dedim dalğalara od düşər indi.

Külək dalğaları gətirdi dilə,
Külək mizrab çalır, sularda tel-tel.
Qaçan dalğaların köpüklərilə
Fikrim də, ruhum da qaçdı elə bil.

Xəyalım çırpındı boz dalğalarda
Suya qanad çalan qağayılar tək.
Qoşa uçuşdular, kim bilir, harda,
Qağayı da ürkək, xəyal da ürkək.

Çırpındı dalğalar, açıldı dən-dən
Çiləndi şirmayı incilər, tellər.
İstədim Xəzərə atılım birdən,
Qorxdum ki, görənlər "dəli" deyərlər.

Bərq vuran rəngləri dəyişir hər an,
Bilmirsən daş-qaşdır, ya adi sumu?
İstədim dənizdə alışıb yanan
Aydan alışdırım papirosumu.

Bəzən deyirəm ki, suyu da baldır,
Axı, o, canımdan mənə əzizdir.
Mən nə danışıram, bu nə xəyaldır,
Xəzər suyu duzlu, adi dənizdir!

BİR VAXT

Gələcəyik üz-üzə küçələrin birində,
Sənin üzündə qırış, mənim saçlarımda dən.
Bir soruşan da olmaz donub qalmışıq nədən.
Adamlar gələr, gedər, kimi vədə gözləyər...
Gözləyənə nə var ki, lap küçədə gözləyər.
Bizim rəngimiz qaçar gözlənilməz görüşdən.
Ayaqlar öz işində, onlar bənzər zamana.
Çəkib aparar bizim hərəmizi bir yana.
Sənin üzündə qırış, mənim saçlarımda dən.

VALS

Otaq fırlanır,
Tavan fırlanır,
Zaman fırlanır,
Yaman fırlanır.
Damarlarımda
Al qan fırlanır.
Ayaq yorulmaz
Vals... vals...
Mənim başımda
Dəli fikir tək,

Yerin başına
Fırlanır külək.
Fırlanıram mən,
Bu yer fırlanır.
Ürəyimdə bir
Şeir fırlanır
Deyir: məni yaz.
Deyirəm: olmaz!
Fırlanıram, vals
Vals... vals...
Əldə piyaləm,
Musiqi xoşdur.
Yer də sərxoşdur.
Göy də sərxoşdur.
Fırlanır aləm
Sərxoş olub qəm.
Fırlanıram mən.
Ha bir də, bir də,
Vals olan yerdə

Başsız da keçər
Ayaqsız olmaz,
Fırlanıram, vals...
Vals... vals...

ÇİÇƏKLƏR

Elə zərifdir ki, güllər, çiçəklər,
Sərt bir baxışdan da solar – deyirəm.
Qəzəbli danışsam mən səhər-səhər,
Nərgizin gözləri dolar – deyirəm.
Bu gün ilk qar yağır, qəşəng, ağ, incə,
– Zərif çiçəklərin, zərif ölümü.
Gülciyəz soyuqdan hey titrədikcə,
Yavaşca üstünə tutdum əlimi.
Dedim ki, ovcumda qızınsın bir az.

Qızındı yatdımı, boynunu bükdü.
Zərif çiçəklərə yuxu da yükdür.
Deyəsən, yatıbdır, oyatmaq olmaz.
Çiçəklər soluxub, baş qoydu yerə.
Havadan, günəşdən gözünü çəkdi.
Mən indi bildim ki, bu çiçəklərə,
İsti gərək deyil, bahar gərəkdi.

1959

QIZIMA

Pəncərə arxasına qara rəng çəkir axşam.
Fikirlər göylər boyda.
Sanki başıma enir.
Mən ikiqat olmuşam
Gözəl balam, ay balam,
Görəm nə boydasan sən...
Körpəm, nə boydasan sən...
Dərsdə, yolda, otaqda
Səni xatırlayıram.
Bağçada, bağda
Səni xatırlayıram.
Gah dönürəm küləyə
həzin-həzin əsirəm.
Qapınızı kəsirəm.
Xurmayı saçlarımı
Astaca oxşayıram.
Sən mənə oxşayırsan,
Yox! Sənə oxşayıram.
Kövrəlirəm, ay bala,
Sığınıram sinənə;
Sığınıram mən sənə.
Titrəyir dodaqlarım
Yenə həyəcanımdan.
Həsrətimin ağrısı
Çıxır, çıxır canımdan

Kirpiyimdə yaş olur.
Eh... sən bir taleyə bax..,
Ayılıram xəyaldan.
Bir mənəm, bir boş otaq.

Papirosun tüstüsü
Bir də mehriban xəyal.
Mən də lal, xəyal da lal.
Burda yaman qış olur.
Qar olur, yağış olur.
Başlamışam, ay qızım,
İsti paltar geyməyə;
Adına ürəyimdə
soyuq dəyməsin deyə.

PAPİROS ÇƏKİRƏM

Zəhərdir papiros, zəhər.
Çörəkdən qabaq səhər-səhər
Zəhər çəkirəm.
Çəkirəm kədərdən, sevincdən,
Sevilməsəm, sevilsəm.
Elə ki, keyfim nə o yandır,
nə bu yandır.
Deyirəm: bekarçılıqdır,
papirosunu yandır.
Ziyandır.
Çəkirəm.
Deyirəm bu zəhrimardır,
Yeni dürgək eşə-eşə
Mən, ilan kimi, dişlərimdə
tutmuşam zəhərimi həmişə.
Keyfim istəyəndə
Tən ortadan üzərəm.
Keyfim istəyəndə əzərəm.
Yandıraram, söndürərəm.
Yandırıb külə döndərərəm.

Acıdır zəhər təki.
Yazığın iliyini soruram.
Yanır, közərir, qaralır.
Özünə külü qalır.
Ağzıma bal vermiyəcəkmi?
O məndən acizdir.
Sevincdən ucuzdur.
Ömürdən gödəkdir.
Zəhərdir,
Zərərdir,
Gərəkdir
çəkirəm.

ÜMİD

Bir yol gördüm, görən kimi itirdim,
Bəxtim kimi məndən döndü baxışlar.
A "bəlkələr" sizə pənah gətirdim,
Axtarıram, bu şəhərdə hanı yar?..

Axtarıram, dincliyim yoxdur, bir an,
Bir cüt gözü gəzirəm bir ölkədə.
Ayaq deyir: yorulmuşam, bir dayan,
Ürək deyir: gəzək, bəlkə, bəlkə də...

1959

* * *

Yaman dili gileyliyəm ömürdən,
Fərqi azmış qırx yaşın da, yüzün də.
Ürək cavan, saçlarıma düşüb dən,
Gözüm qalıb gözəllərin üzündə.

Baxışıyla özlərini öyərlər,
Gözlərinlə qadasını alarsan.

Dindirərsən birdən "dayı" deyərlər,
Dindirməzsən yana-yana qalarsan.

Qocalsaq da çiçəkləri sevirik,
Bir də eşqin nə tərsi, nə avandı.
Gözəlləri, göyçəkləri sevirik
Neyləyək ki, onlar bizdən cavandı.

QURBAĞA VƏ MƏN

Gəldim ki, dərdimi suya danışım,
Suyun da dibindən sən çıxdın üzə.
Qurbağa, ay dostum, köhnə tanışım,
Niyə biz lal kimi durduq üz-üzə.

Yox, nəsə deyirdin arvaddan, ancaq
Ağzına su doldu sən quruldadın.
Yaman oxşayırsan mənə, a qorxaq,
Nə olar qurbağa olanda adın.

* * *

Hünərin var, bala böyüt,
Dərd-sərini vecə alma.
Hünərin var, bala böyüt,
O böyüsün, sən qocalma.

Bu dəcəllər böyüdükcə
Şöhrətimiz ucalacaq.
Onlar görən ağ günlərdən
Bizə ağ saçlar qalacaq.

Dəcəl olur, şirin olur,
Gözəl olur, axmaq olur,
Nə sözündən çıxmaq olur,
Nə sözünə baxmaq olur.

DƏNİZDƏ SUSUZ

Susuzluqdan alışıb
Dodağım-dilim yanır.
Ayağımın altında
Nəhəng dəniz dayanır.
Dalğa başımdan aşır,
Susuzluğum yatmayır.
Dənizin nə günahı,
Dənizin hər şeyi var
Cəmi bircə stəkan
Şirin suyu çatmayır.

TƏVAZÖKAR

Uşaq vaxtı döyüləndə
susurdu o.
Böyüdükcə xətrinə dəyiləndə
susurdu o.
Təvazökar deyiləndə qımışardı,
danlananda, söyüləndə
susurdu o.
Kiçiklərin qarşısında
qaya kimi lal durardı,
Müdirinə əyiləndə
susurdu o.
Danışsaydı nadanlığı
bilinərdi.
Danışaydı saf-çürüyü
ələnərdi.
Yuxusunda görsəydi ki,
o danışır
Qorxub dərhal oyanardı
yuxusundan.
Danışmağın qorxusundan,

Öləndə heç vəsiyyət də eləmədi
Məzarının başı üstə
hamı ona
Əlvida, ey təvazökar
insan, dedi.

QARAÇI QIZ

Qaraçı qız sinəsini verib qabağa
Kirpiyindən, dodağından məhəbbət axır.
İri ala gözlərindən od yağa-yağa,
Elə bil ki, gendən durub özünə baxır.

Bir baxışla kimi desən salar min dərdə,
Daşı öpsə, çiçək açar daşın üzündə.
Görənlər də yazıq olur, görməyənlər də,
Bir dənizin tufanı var ala gözündə.

Hardan düşüb yol yanına bu nadir inci,
Yerdən çıxıb, göydən düşüb, dalğa gətirib?
Ay gözəllik allahının bircə sevinci,
Necə olub Allah səni burda itirib?

Qaraçı qız, qaraçı qız, bu necə sirdi
Səni gördüm qaraçıya döndüm özüm də.
Odlar yurdu bir oğlunu bu gün itirdi
Bir qaraçı artırmısan bu yer üzündə.

* * *

Günortadan sonra duran
Kişilərə bax, kişilərə,
Arvad kimi qeybət qıran
Kişilərə bax, kişilərə.

Böyüklərə olar kiçik,
Olar tazı, olar küçük,
Biz yanından necə keçək –
Kiçiyi ilan tək vuran
Kişilərə bax, kişilərə.

Şöhrət gəzər axşam, sabah,
Mərd ağzına olar qapaq,
Lopa bığlı, şələpapaq
Quyu qazan, tələ quran
Kişilərə bax, kişilərə.

Çörəyini şəstlə yeyər,
Şəninə min sağlıq deyər,
Balaca büdrəsən əgər
Yerə sinib xəlvət qıran
Kişilərə bax, kişilərə.

RƏQQASƏ

Heç inanmıram ki, mən
Sən də uşaq olmusan,
Adi adamlar kimi
Anadan doğulmusan.
Gəzirsən aram-aram
Qarşında heç olmuşam,
Özümü axtarıram.
Tanıyıram mən səni
Sən əsrlər keçmisən
Elə həmin gözəlsən,
Adını dəyişmisən,
Nizaminin Rənası,
Füzulinin Leylası,
Gözəlliyin anası
Sən deyilmisənmi, din.
Ömürlük şairliyə

Katulu məhkum etdin.
Onların hayıfını
Səndən alacağam, qız,
Qoşun çəkib üstünə,
Təslim olacağam, qız.

HEÇ AĞLIMA GƏLMƏYİB

Sənə şirin söz demək,
Üzümə xoş baxmasan.
Səndən küsmək, incimək
Heç ağlıma gəlməyib.

Gülüm, səni izləmək,
Səni izlədiyimi
Dostlarımdan gizləmək
Heç ağlıma gəlməyib.

Gözlərin nə gözəlmiş,
Boy-buxunun elə bil
Arzulardan düzəlmiş –
Heç ağlıma gəlməyib.

Qonşum nazlı yar imiş,
Hələ tay-tuşlarımdan
Rəqibim də var imiş –
Heç ağlıma gəlməyib.

* * *

Ölüm-dirim arası –
Günün ağı, qarası.
Ömrün ən xoş anları,
Ən acı macərası
Cəmi ikicə addım.

Mən hara, ölüm hara,
Ömür səpdim yollara.
Çətin yollar keçmişəm –
Beşiyimdən məzara.
Cəmi ikicə addım.

Dərə aşdım, dağ aşdım,
Yer üzünü dolaşdım.
Ömrümü girov qoyub
İnsanlara yol açdım –
Cəmi ikicə addım.

KUBA LEYSANLARINDA

Tökülən seldən-sudan
Bir addım yol görünməz.
Hünərin varsa çıx, gəz
Kuba leysanlarında.

Külək hay-küy qoparan
Buludlardan incimir.
Meşələr, dağlar çimir
Kuba leysanlarında.

Yağış nizələrindən
Şəhid düşür kəpənək.
Yollar üzür balıqtək
Kuba leysanlarında.

Bir gözəlin yanında
Yağışdan daldalandım,
Baxışlarında yandım
Kuba leysanlarında.

HAVANA GECƏLƏRİ

Bütün pəncərələrdə
Ulduzların əksidi.
Bağların çilçırağı
Göylərin də bəsidi.
Subay oğlanlar üçün
Gözəllər sərgisidi
Havana gecələri.

Musiqi bolluğundan
Rəqs edir palmalar da.
Sahilə dırmaşırlar
Az qala dalğalar da.
Ayrıca bir fəsildi
Qışda, yayda, baharda
Havana gecələri.

Qızların kirpiyilə
Ürək didim-didimdi.
Yazıq qonaq nə təhər
Getsin yatsın bəs indi?
Burda şair olmağa
Təkcə elə bəsindi
Havana gecələri.

KÖNLÜMƏ DÜŞDÜN

Uzaq Havanada könlümə düşdün,
Gör bir aramızda neçə dəniz var!
Bu gecə yuxuma necə gəlmişdin,
Necə qısalmışdı bu gecə yollar.
Heç Günay qızımız yerimir hələ
Necə də dənizlər keçib, gəlibdi.
Ata yuxusunun qanadlarında

Körpə mələk kimi uçub gəlibdi.
Bu gecə fikrimdə qarışıb aləm –
Kubanı döndərdim öz kəndimizə.
Sənin hünərinə mat qalmışam mən,
Gəlib oturmusan burda üz-üzə.
Ağıla gələrmi, düşərmi yada,
Durub baxır mənə o gülə-gülə.
Uzaq Havanada, mehmanxanada
Mənə dovğa çalmaq istəyir hələ.
Dedim: "Nə qaçmısan ürəyi dolu,
Qoyaydın körpəni yataydı barı,
Axı, nə düşmüşdü, bu uzun yolu
Durub tək gəlmisən bu gecəyarı".
Yuxudan ayıldım, gördüm səhərdi,
İspanca danışır burda dəniz də.
Günəş qəzəbini yerə əndərdi,
İndi qaç, özünü istidən gizlə.
Elə istidir ki, eh... buralarda
Adam balıqlara həsəd aparır.
Səmada ləhləyən ağ buludlar da
Qaçıb gizlənməyə kölgə axtarır.
Belə vurhavurda könlümə düşdün,
Elə bil ruhuma qar ələndi, qar.
Bu gecə yuxuma necə gəlmişdin,
Necə qısalmışdı bu gecə yollar...

ƏRƏB QIZINA

Elədir baxışların –
Baxsan gözlərim dolar.
Qoy sənin kirpiklərin
Gözlərimə dağ olsun,
Günüm ağlamaq olsun.
Sən mənim ol, nə olar,
Desənə: amin, amin...

Gözlərin zil qaranlıq,
Gəl, bir aylı gecədir.
Gəl, bu ayrı gecədir;
Gəl şirin arzulartək
Verək burda baş-başa,
Ay eləsin tamaşa,
Söyləsin: amin, amin...

Bir cüt əyri qılınctək
Çəkilsin çatma qaşın,
Qəlbimin nəşəsindən
Xumarlansın baxışın –
bihuş kimi.
Arzu dolu nəğməmiz
Çırpınsın bir quş kimi
Nilin o sahilində,
Nilin bu sahilində,
Ləpələr öz dilində,
Yarpaqlar öz dilində
Qoy desin: amin, amin...

Ürəyin yuxalaydı,
Qısalaydı yollarım.
Hicranım yox olaydı
Bu uzun gecələrim
Dönəydi bir gündüzə
Belə, sözün qısası
Gəlin gələydin bizə.
Ay qohumlar, qonşular,
Siz deyin: amin, amin.

DƏDƏ QORQUD

Dədəm Qorqud udda çalan dünyadı,
Yarı doğru, yarı yalan dünyadı.
Heç kəs bilmir kimə qalan dünyadı,
Bir Karvandı Sarvanını görən yox.

Dədəm Qorqud nəğməmizin yaşıdı,
Dilin, könlün, sözün məhək daşıdı.
Ölüb gedən, olub gedən yaxşıdı,
Ömrün gözəl zamanını görən yox.

Yenə həmin ruzigarlar əsirlər,
Bəxti köhnə qəliblərlə kəsirlər.
Bir-birindən tutub gedir nəsillər,
Günün yaxşı yamanını görən yox.

YOXDUR

Daş olarmış nadan səsi,
Sındı könlümün şüşəsi.
Qanmaz başlara düşəsi
Allahın bir daşı yoxdu.

"Dərd əlindən çıxdım dağa"
Dərdim var dağ dağlamağa.
Görürəm, gəl ağlamağa
Gözlərimin yaşı yoxdu.

Bu günlərdən ötən yazıq,
Yetməyən vay! yetən yazıq.
Neyləsin bu vətən yazıq
Başçımızın başı yoxdu.

YARIMÇIQ İŞ

Yarımçıq iş
Nişanlı qalan oğuldu, qızdı.
Yarımçıq iş
Barsız gələn payızdı.
Yarımçıq iş
Körpüsü tikilməyən yoldu.
Yolu olmayan eldi.
Sözü olmayan dildi.
Yarımçıq iş
Məqsədsiz işdi,
Mətləbsiz söyüşdü,
Məhəbbətsiz öpüşdü.
Yarımçıq iş
Tavansız damdı.
Göydən düşən
Evinə damdı.
Qardaş, xülasə
Yarımçıq iş
Yarımçıq adamdı.

ÜRƏKLƏ

Narazı deyiləm ömürdən-gündən
Hamını dost gördüm bu yer üzündə.
Kişinin düşməni əzəl günündən
Ya evində olur, ya da özündə.

Düşmən evindəsə çarə tapılar,
Başını götürüb evdən qaçarsan.
Əgər kilidlənsə dəmir qapılar
Bacadan çıxarsan, damdan uçarsan.

Səni oda salan öz ürəyinsə
Ürəkdən ayrılıb qaçmaq da olmur.

Səndən qisas alan öz ürəyinsə,
Özgəyə bu sirri açmaq da olmur.

İçimi yandırır özümün ahım
Yanıb kül oluram mən gülə-gülə.
Şairin dünyada kimi var axı
Bir ürəyi olur, oda ki, belə.

YAPIŞMAZ

Çox şey uydurmaq olar,
Qırx gün çəkməz ağ olar.
Nə danışsa yağılar,
Sevən yara yapışmaz.

Çox ev yıxar uzun dil,
Özün haqda özün bil,
Qışdan qalan zir-zibil,
İlk bahara yapışmaz.

Eşqin, qəlbin düz olsun,
Ürəyin təmiz olsun.
İstəməyən yüz olsun,
Günə qara yapışmaz.

Səma kimi açığam,
Gün olam, hər gün çıxam.
Mən dosta xain çıxam?
Hardan-hara, yapışmaz.

Doğrunun doğru adı,
Hər meyvənin öz dadı,
Oğruya var qalmadı,
Buz buxara yapışmaz.

Körpəni aldatmayın,
Haqqa yalan qatmayın.
Düzə böhtan atmayın,
Qoz divara yapışmaz.

QARA RƏNG

Ağlama qara rəng
Ağlayarsan qaran yuyular
Ağararsan.
Bu lap ağ olar
Qara rəngsiz yaşamaq olar?
Başıma gəlib
Yağdıqca yağışlar
Yuyulub ağarıb,
Qara saçlar,
Qara qaşlar.
Qalıb nuru yuyulmuş baxışlar,
Ağlama qara rəng,
Onsuz da
yağış var.

ÜZÜ O YANA

Düzlər keçdim, dağlar aşdım,
Gün altında yana-yana.
Bir uçurumda dayanmışdım,
Üzü o yana, o yana.

Bilmirdim bahardı, qışdı,
Əlimdən əllər yapışdı.
Üzümə bir kölgə düşdü,
Dedim ay ana... ay ana.

Yox əyri bitmir hər sınan,
Tutdum ömrün yaxasından.
Əbədiyyət yuxusundan,
Zorla oyana-oyana.

Qışım döndü ilk bahara,
Salam verdim dosta, yara.
Yenə üz qoydum yollara,
Nura boyana-boyana.

XOŞ GÖRDÜK, İNSAN

Müdirdi o balaca bir idarədə,
Heç bilmədim nə barədə
İşim düşdü,
Biz görüşdük.
Salamımı elə aldı,
Şirin dillə gülə-gülə.
Heç işim də düzəlmədi,
İncimədim bircə gilə.
Bircə anlıq söhbətindən
Yüngülləşdim.
Yorğun idim elə bil ki,
Dərman içdim.
Baxdım gülər üzünə mən,
Güldü üzüm.
Dodağımda şirinləşdi
Acı sözüm.
Yola çıxdım,
Yol açıqdı,
Dünya geniş!
Səma mavi, sular gümüş,
Ləpələrin dodağında,
Par-par yanır sevinc, gülüş!

Gözəl rəftar gözəllikdə
İlk bahara bənzəyirmiş.
Bir insanın yaxşılığı
Bir şəhəri bəzəyirmiş.

SƏNİ GÖRDÜM BİR BAYATI ÇAĞIRDIM

Bizim bağın barı mən,
Arzularam yarı mən.
Eşq özü də bir candı,
Yarı sənsən, yarı mən.

Dağdan qarı xəbərsiz,
Bağdan barı xəbərsiz.
Yar çəkdirən dərdlərdən,
Qoca Tanrı xəbərsiz.

Axar su ləkə bilməz,
Dərdi gül çəkə bilməz.
Yar sındıran könülü,
El-oba tikə bilməz.

İNSAN

İnsan özündən kiçiyə acıqlanmaz.
İnsan özündən böyüyə arxalanmaz.
İnsan buz kimi soyuq olmaz,
İnsan hədər yerə yanmaz.
İnsan döyməz,
İnsan döyülməz,
İnsan neylər bəs?
Bunların heç birini eləməsə,
İnsana insan deyilməz.

GƏLİN

Əzizdi bala nəfəsi,
Evə hopub sözü – səsi.
Bu evin əziz "körpəsi".
Başqa evdə gəlindi ha...

Hər evin öz qibləsi var,
Öz sözü var, öz səsi var.
Gəlində yad nəfəsi var,
Evə təzə gələndi ha...

Qızın hər işi görünər,
Sözü, gülüşü görünər.
Qaynana baxıb deyinər,
Gəlin yaman güləndi ha...

Bu qız dönüb olmadı, dev,
Elə bil öz balandı, sev!
Gəlin saxlaya bilən ev,
Bala qədri biləndi ha...

BAŞA DÜŞDÜM

Dedilər; "Səbr elə" səbrə and içdim,
Dedilər; "Səbr edən böyükdü, haqdı".
Səbr edib, səbr edib mən başa düşdüm
Ən böyük səbirli uzunqulaqdı.

KÖKDƏN DÜŞMƏ

Səni gətirmişəm dilə,
Oxu, mələ, zarı, inlə,
Nə eləyirsənsə elə
Barı kökdən düşmə, könül.

Mənzil yaxın, vaxtım azdı,
Dörd günümdən biri yazdı.
Ürəyim bir sözlü sazdı,
Barı kökdən düşmə, könül.

Namərd başı ucalmasın,
Səni naşı əl çalmasın,
Sözüm yarımçıq qalmasın
Barı kökdən düşmə, könül.

Sən yoldan dönən deyilsən,
Uçmusan, enən deyilsən,
Bir də köklənən deyilsən,
Barı kökdən düşmə, könül.

Alıb səndə çaldım dərdi,
Çaldıqca dərdim əridi,
Sənsiz ömür-gün hədərdi,
Barı kökdən düşmə könül.

Ruhu olmayanlar qanmaz
Könül çalınar, çalınmaz,
Dillən başı bəlalı saz,
Barı kökdən düşmə, könül.

Ürəyim aşıq Qəribdi,
Gül əkibdi, qəm dəribdi,
Aşiqlər hamısı qəribdi,
Barı kökdən düşmə, könül.

QARANLIQ ADAM

Günün günorta vaxtı,
Elə qaranlıq sözlər danışdın,
Elə çaşdım,
Durub lampa yandırdım, baxdım,

Bəlkə aydınlaşa mətləbin.
Harda qurtarmısan,
Bu mətləbsizlik məktəbin.
Biz bir yana,
Özün də öz sözünü
Yüz yerə yoza bilərsən.
Elə qaranlıqsan,
Özün də öz içində aza bilərsən.
Özünü vurub salırsan dərin quyuya.
Sonra çapalayıb
Çıxmağa çalışırsan.
Məncə danışmağa sözün yoxdu.
Dayana bilmirsən
Onun üçün danışırsan.
Bizə nə var.
Birtəhər dözərik
Zarafatla, yandırdığımız işıqla...
Ömrün cəhənnəm əzabı olacaq.
Bu danışıqla...

XOŞ GÖRMÜŞÜK

Dünya səni xoş görmüşük,
Həyat, hər anın gözəldi.
Canım-gözüm nə bəxt, nə püşk,
Hər bir dövranın gözəldi.
Dağların yaşıl səmənim,
Bulaqların dili şirin.
Sənin sazın, sənin şerin,
Sinəmdəki bu ürəkdi.
İlk sevgim də sənsən mənim,
Bu yer, bu göy nə göyçəkdi,
Dünya, səni xoş görmüşük.

İşığını doldur, içim!
Bu dağlardan, bu düzlərdən,

Ayaqyalın gəlim keçim.
Dolular döysün arzumu,
Günə yansın könlüm, gözüm.
Gözümdə sənin şəklindi,
Dilimdə şirin adındı.
Ürək adlı bu bəlada,
Yanan sənin eşq odundu.
Dünya, səni xoş görmüşük.

Ana südü kimi ağsan,
Ətəyini öpsün fələk.
Sənin nurunda yuyunsa,
İnsan dönüb olar mələk.
Dünyada ən xoşbəxt anım,
Səni gördüyüm ilk andı.
Zülmətin də işıqlıdı,

Zindanın da mehribandı.
Gəlsin əlini öpməyə,
Ən qiymətli arzu, dilək,
Qədrini məntək bilməyə.
Ölüb diriləsən gərək,
Dünya, səni xoş görmüşük.

ÖMRÜN YÜKÜ

Ağlın əzabı,
Təsadüfən boynuna düşən
Müvəqqəti bir yükdü.
Ağılsızlığın əzabı
Ömürlükdü.

SATIRAM

Səsi zornan çıxır,
İkiqat yeriyir.
Müştəri çağırır.
Baxırsan başdan ayağa
Azar-bezardı.
Bu nə alverdi, nə bazardı.
Bunun nəyi vardı
Nə sata.
Adam deyil
Sümükdən hörülmüş
Suvağı tökülən divardı.
Bunun nəyi vardı
Nə sata...
Başa düşmək də olmur, nə deyirsə
Saxlayıb gərək
Adam kimi dedizdirəsən.
Satdığı əgər cana xeyirlidirsə
Gərək alıb özünə yedizdirəsən.
Bir az dirçələ,
Gedə evinə çata.
Adam kimi yorğan-döşəyində uzana.
Yox bu hələ istəyir sata
Hələ istəyir
Satanda aldada, qazana.
Acgözlük nə zalım qüvvədi.
Adamı hər cəfaya dözdürür.
Ölünü də yerindən qaldırır,
Küçələrdə gəzdirir.
Vallah, müəmmadı
Bu taleyin işləri.
Küçədən zarıltı gəlir,
Satıram, ay müştəri...

SÜKUT... SƏS SALMA

Yorulub üzə dayanmışam,
Sahildə uzanmışam.
Dincə qoyulmuş torpaq kimiyəm,
Barı yığılmış bağ kimiyəm.
Canımdan ağrı buxarlanır,
Yorğunluğum əriyir.
Nə yaxşı ki, yer kürəsi fırlanır,
Onu kim fırlayır?
Bəlkə tale yorğun balasın yürüyür.

ƏRKÖYÜN

Bu küləyi Bakı niyə saxlayıb
Yatır, durur, çapalayır, döyünür.
Dalğalarla dalğalanır, ağlayır,
Qayalıqda gileylənir, deyinir.

Daş-divara sürtür soyuq üzünü,
Qapımızı döymək ona peşədi.
Pəncərəyə elə çırpır özünü,
Anlamır ki, sına bilər, şüşədi.

Sanki şeytan kirayəyə tutubdu
Sübhə kimi küçələrdə "işləyir"
Nə götürüb, hara gəldi atır o,
Təpikləyir, sürütləyir, dişləyir.

Min illərdi bu şəhərdə dolanır,
Şuluqluğun səbəbini bilən yox.
Ağa kimi küçələrdə dolanır,
Ərköyündü, öhdəsindən gələn yox.

Bunu belə şəhər ilə dənizdi,
Qızışdırıb üstümüzə göndərən.
Baxmaram ki, ərköyündü, əzizdi,
Çıxıb yolda dayanaram köndələn.

QÜRBƏTDƏKİ HƏMVƏTƏNLƏRİMƏ

Qəriblərin yorğun gözləri,
Bir çimir vətən yuxusu istəyir.
Balıq yeyiləndən sonra da
Su istəyir.

AĞLAMA

Ağlamağı bacarırsan bilirəm,
Gözlərinin yaşını bir silsənə.
Bir yol de ki, ağlamıram gülürəm,
Bata bilməz tufan sənə, sel sənə.

Yazıqları heç kəs saya salmayıb,
Özü deyil, göz yaşıdı görünən.
Yazıq olub heç kəs haqqın almayıb
Haqqı deyil, paydı ona verilən.

Yazıqlarda nə yaxşı var, nə də pis.
Yazıq gəlmək - qiymət deyil insana.
Onlar üçün çox yansa da qəlbimiz
Mərhəmətdi – hörmət deyil insana.

Ağlayanda gərək bərkdən güləsən...
Bunu yaxşı bilirəm mən özüm də,
Çox çətindi bu dünyanı görəsən,
Göz yaşları görünməyə gözündə.

TƏPƏR İSTƏYİR

Özgə laylasına yatma,
Özün-özünü aldatma
Qazanın qaynasın deyə
Özgəsini oda atma.
Baxma burnunun ucuna
Hər günündən sabaha bax.
Mərd doğulub, mərd yaşamaq
Özü də hünər istəyir.

"Mənəm, mənəm" – deyəndə qorx,
"Hər şey mənim" – deyəndə qorx
Özünü qurtarmaq üçün
Özgəsini döyəndə qorx.
Ədalətdir güclü yaraq
Hər günündən sabaha bax.
Mərd doğulub, mərd yaşamaq
Özü də bir ər istəyir.

Uşaqlıqdan qoru adı
Düşmən kimi qovma yadı.
Bu dünyanın min üzü var
Bu gün sənsən, sabah odu,
Heç vaxt ağıl gətirməyib
Axmaq başa, baha papaq,
Mərd doğulub, mərd yaşamaq
Özü də təpər istəyir.

RİSK

Əlimdə lüğət,
Dilimi çevirirəm
O yan – bu yana.
Risk - bu bir sözdü, –
İki başlı,

Bir üzlü, iki tirə,
Dilimizdə yoxdu;
Varsa, hanı?
Yox, var buna bənzər, –
Deyirlər bəzən
Ya apara,
Ya da gətirə.
Görünür ki, bunu da deyib,
İlk dəfə
Əlləri əsə-əsə kəşf eləyib,
Qumarbazın biri.
Yoxsa belə deməzlər axı.
Görünür ki, riski müsəlmana
Elə qumardan ötrü
verib Allahı.
Risk, o hər nədirsə
Biz hələ onu eyləməmişik.
Biz hələ zamanı əyləməmişik.
Tutmamışıq sorğu-suala:
Hara gedirsən, bala?
Hara sürüyürsən ipləyib başımı.
Dəqiqələrin ağacdələn kimi didir,
Ömrümü, yaşımı.
Bəlkə boynu kəndirsiz olmaq olar

Bəlkə yana burulmaq olar.
Sözün ucundan tutub
Getdim ucuzluğuna,
O riskdi – nədi,
Qayıdaq ona.
Hələ bilməyəndə ki,
Atamız-anamız kim olacaq
Risk eləyib doğulduq...
Ancaq
Sonra halı olduq
Atamız, anamız kimdir
deyirlər.

Ayaqqabını ayağa geyirlər,
Qan da qırmızıdı,
Qan içən də var.
Amma ayrı şeydi çaxır...
Və ilaxır, və ilaxır...
Dövr risk axtarır ki,
Alıb qələminə tarix edə.
Bəzən adi bir riskdən doğulur
Yeni bir ölkə də, onun tarixi də.
Biz boyda xalqın yolunu kəsib
Araz kimi balaca bir çay,
Ay dədə vay...
Dözürük çox şükür deyə-deyə.
Sən Arazın soyuq suyunda
Qaynar riskə bax,
Od övladındakı soyuq mütiliyə...
Düşünürəm...
Heç soyuq da deyil
Elə öz fikirlərimdən üşənirəm.

EHEY DAYAN!

Ehey! Keçmə belə sürətlə,
Dayan!
Yenə düşəcək fürsət ələ,
Sürət ələ,
Dayan!
Zamanın o başında
Göydən süd yağmır,
Çayda bal axmır.
Göbələk kimi yerdən
Kömbələr qalxmır. –
Sən də əl-ayağını uzadıb
Yeyib-içəsən xımır-xımır.
Dayan,
Boylan,

Burdadı tay-tuşun,
Qohum-qonşun.
Onların sevinci, dərdi...
Sevinc də, dərd də
İnsan kimi gəldi-gedərdi.
Burda sevinc vardı, –
Sənsiz qalıb odu soyumuşdu.
Burda çiçək vardı, –
Sənsiz rəngi soldu,
Ətri uçdu.
Burda əllər üstə tabut gedirdi. –
Sənin əlinin yeri boşdu.
Ehey! Dayan!
Hövsələni bas!
İnsan doğulub
İnsan əlindən qaçmaq olmaz!
Qaçma
Özünü öldürmə, yaxşı!
Yoxdur zamanın o başı;
Heç vaxt göydən yağmayacaq
Süd yağışı –
Südü inəyin əmcəyindən sağırlar;
Çörəyi
Əkib, biçib yığırlar,
Qəhrəman – yer ayrılıb, yerdən çıxmır
Oğulu –
Zəhmət çəkib doğurlar.
Ehey! Dayan!
Qaçma yollarımın palçığından,
Yazımın yağışından,
Yapış yükün o başından.
Belə qaçacaqsan haçana kimi,
Qaçma
Dolə dairədə qaçan kimi...

YAXŞI Kİ, GƏLƏCƏK VAR

Yaxşı ki, insanlar ölüb gedirlər,
Yaxşı ki, doğulub gəlir insanlar.
Dünya tək bir nəslin olsaydı əgər,
Çox gödək olardı dünyada yollar.

Əzəldən qış qışdır, bahar da bahar,
Zaman dairə içrə ömrə başlayıb.
İnsanın ayağı altda balıqlar,
Başının üstündə quşlar yaşayıb.

Üstdən hava hörür, altdan su görür
Torpağı dirildib verir zamana.
Bilmirsən insandır – torpağa dönür,
Yoxsa ki, torpaqdır – dönür insana.

Bunu bilməyin də nə mənası var.
Həyat verdiyinin hamsını alır
Torpaq üstə qalan – insandan qalır.
Onu da insanlar dağıtmasalar.

Keçmiş də keçmişdən təsəlli alıb,
Zaman dövr eyləyir, uzanır yollar.
Gələcək həmişə işıqlı olub
Yaxşı ki, dünyanın gələcəyi var.

XALQ

Min cür xoşbəxtlik var,
Min bir cür dərd var dünyada.
Amma bir böyük
Həqiqət var dünyada.
Nə qədər yaşasa da,
Nə qədər pisdisə də,

Yaxşısa da,
Bütün doğulanlar axırda ölür.
Xalq ona görə böyükdür ki,
Çalır-oynayır, deyir-gülür.

AĞLAMA

Bağırma, əzizim,
Adam körpə olanda,
Güc gəlməz boğazına.
Əlacımız yoxdu, dözürük nazına.
Sənin də qanacağın olsun,
Bir susan çağın olsun.
Görüm böyüyəsən səni,
Özünə oxşayan çağan olsun.
Vallah, yalan deyiblər sənə,
Dünya lap gözəldi, ağlama,
Bir də harda gəldi ağlama...
Bir də nə görmüsən hələ,
Dişin yox,
Ağrısını biləsən.
İşin yox, öhdəsindən gələsən.
Məcbur olmamısan ki,
Ağlamalı yerdə güləsən.
Nə görmüsən hələ sən.
Ağlama göz yaşın qurtarar,
Böyüyəndə həsrət qalarsan,
Bir gilə göz yaşına.
Gəzərsən ortalıqda,
Gülə-gülə öz başına.

ACGÖZ ARVAD

Acgöz arvadın,
Allahı pul olur.
Əri qul olur,
Özü də axırda dul olur.

AĞLAYAR

İçimdə bir xərabə var,
Dindirsən daşı ağlayar.
Bir yol küçəsindən keçsə,
Dərd qanmaz naşı ağlayar.

Kim verdi qəlbimə yası?
Mərd hansıdı, namərd hansı?
Ömrümün güney səması
Quzeydən yaxşı ağlayar.

Bu haqsızlıq haqdan damar,
Göyü, yeri, günü danar.
Göz görüb heyrətdən donar.
Göz üstə qaşı ağlayar.

Qədim od oğlu – Azərəm,
Əllərdə oynanan zərəm.
Ağlamaram, mən dözərəm,
Könlümün başı ağlayar.

QUQ-QUQ QUŞU

Quq-quq quşu
Nə öz eli, obası var,
Nə də doğma yuvası var.
Öyünür ki, nəğməkaram,
Ancaq onun dilində bir havası var.
"Mən baharam,
Mən qədiməm,
Mən vüqaram".
– Harda gəldi deyir –
Quq-quq,
"mən də varam!
Bu meşənin sahibiyəm,
O çəmənin sahibiyəm.

Düzdə duman mənimkidi,
Dağda çənin sahibiyəm".
Gedir xəlvət yumurtlayır
Başqa quşun yuvasında.
Balası da yumurtadan çıxan kimi
Ana mənimkidir deyir.
Yuva mənimkidir deyir!!!
Quşun əsl balaların,
Didir, döyür,
Yuvasından atır yana...
Avam ana, bədbəxt ana,
Quq-quqa bala yemləyir.
Bala bir gün qanad açıb quq-quq deyir.
Neçə-neçə yuvalardan
Səsinə səs verən olur:
Quq-quq, quq-quq.

Neçə quşun yuvaları viran olur:
Quq-quq, quq-quq,
Quq-quqların öz tikdiyi yuva yoxdu.
Hər yuvada balası var.
Hər meşədə bu quş bir gün quq-quq deyir.
Quq-quq dedi
Bil ki, onun xata-balası var!

DÖZÜM VER

Mənə haqsız söz dedilər,
Qaldım udquna-udquna.
Niyə? Bilmirəm, bilmirəm.
Yevə bilmirəm, bilmirəm.
Cavab dilimin ucunda
Deyə bilmirəm, bilmirəm,
Allah, bizə dözüm ver.

Sağım, solum nadan, yağı,
Qaldım çırpına-çırpına.

Qopdu ürəyimin tağı,
Soldum çırpına-çırpına.
Gördüyüm hamısı göz dağı,
Öldüm çırpına-çırpına,
Allah, bizə dözüm ver.

Üstümüzə çaqqal hürür,
Gözüm elə şeylər görür,
Ya rəbb, gözə dözüm ver.
Ağac olubdu sarmaşıq,
Tanrı sözə dözüm ver.
Danışıb lal olmaq olar,
Alışıb kül olmaq olar,
Allah, bizə dözüm ver.

* * *

Şaxta kəsir, qar çırpılır üzümə
Nəfəsimlə isidirəm əlimi.
Ümid verib "döz" deyirəm özümə
Xəyalımda dəyişirəm aləmi.

Şaxta kəsir, mən baharı anıram,
Açılası güllər düşür yadıma.
Dayanmışam qar altında, donuram,
Gül otirli güllər düşür yadıma.

Ürəyimin içinə də qar düşür
İndi mənim yaxam, başım bağlanır.
Cavanlar var kəlçə kimi yer eşir,
Qar altında samovar tək buğlanır.

Təki olsun, mən demirəm "ay aman,
Məni yaman günə qoydun, ey fələk"!
Mən də elə cavan idim bir zaman,
İndi belə üşüyürəm, neyləyək?

Canım yoxdu, xəyalım var nə yaxşı,
Ümidimin istisinə qızındım.
Yoxsa yaza çıxmaz idim bu qışı,
Özüm satdım, özüm aldım, qazandım.

Bilirəm ki, ömür, tale, yazı var,
Hava dolmuş yüngül şardı xəyalım.
Nə yaxşı ki, hər qışın bir yazı var,
Yoxsa nədən yapışardı xəyalım.

* * *

Görüşə gələnlərə,
Gül görüb gülənlərə,
Gül qədri bilənlərə
Evdə bir gül də yazdı.

Mən qurban çiçəyinə
Bu çöllər göyçəyinə.
Bircə gül ləçəyinə
Bülbül eşqini yazdı.

Dayanaram göz-gözə,
Gül oxşar gözəl sözə.
Ətri bir ayrı məzə,
Tikanı ayrı nazdı.

Şövqü saçılan gülə,
Bu cəngi çalan gülə,
Qışda açılan gülə,
Baharım desəm azdı.

NEYLƏSİN

Deyirsən ki: "Mən neyləyim?
O Məcnundu, mən Leyliyəm"!
Yazıq Kərəm gözündə qəm
Odda bişəndə neyləsin?

Düşünməmiş vermə sual,
Dərd var görsən olarsan lal.
Bəxti gotirməyən maral
Pələng dişində neyləsin?

Qorx ki, haqq-nahaq yazıla,
İşin tərsinə yozula.
Haqqı axtaran yazıqla
Şər görüşəndə neyləsin?

Tüstüsüz qalmış bacalar,
Qardaşı itkin bacılar,
Yuxusu qaçmış qocalar
Axşam düşəndə neyləsin?

HƏMİŞƏ CAVANLARA

Şairlər cavan qalmağın
sirrini bilir.
Şairlər çox gec qocalır,
Ya da heç qocalmır –
– cavan ölür.

GÖZƏL DƏRD

Məhəbbətdə taleyin öz nuru var,
Gözəl arzu, saf niyyətdi məhəbbət,
Var-dövləti neyləyirsən, bəxtəvər,
Tükənməyən var-dövlətdi məhəbbət.

Vurulursan, adın çıxır yadından,
Həzz alırsan alovundan, odundan.
Doymaq olmur ağrısının dadından,
Şirin-acı həqiqətdir məhəbbət!

Sevirsənsə bilinəcək, gizləmə,
Heç kosdən də kömək, vəfa gözləmə.
Sən alçalma, kölgə olub izləmə
Öz-özünə sədaqətdi məhəbbət.

Yanırsan yan, tüstülənmə, alışma,
Öz sevgini kimə gəldi danışma.
Bu bəladan sağalmağa çalışma,
Haqdan gələn gözəl dərddi məhəbbət.

GÜLLƏRİN NƏ GÜNAHI

Bir yol görən, min yol dönüb baxardı,
Bu güllərin vaxtı vardı, əzizim.
Güllər bizi yandırardı, yaxardı,
Deyərdik ki, səma bizim, yer bizim.

Gül qönçəyə sığmayırdı elə bil,
Ruhum, canım sığmayırdı içimə.
Eşidirdim nə deyirsə gülə-gül,
Yüklənirdim küləklərin köçünə.

Səhər-səhər bu güllərin yanından,
Yollarımız asimana gedirdi.

Alışırdım əlvan ipək donundan,
Məşəl kimi yana-yana gedirdik.

Bu güllərin vaxtı vardı, əzizim...
Eh güllərə niyə böhtan atırıq.
Gül görməyə vaxt vardımı, əzizim.
Qaçhaqaçla işə ancaq çatırıq.

QOŞMA

Mən özüm də bir yazıyam,
Taleyin yazdığı yazı.
Mən baxtımdan çox razıyam,
Ömrün nə çoxu, nə azı.

Olan olub, keçən keçib,
Əkən əkib, biçən biçib.
Mənim köçüm çoxdan köçüb
Daraqla darama dazı.

Tanrı başı qəlib verib.
İçini də gülüb verib.
Tale özü bölüb verib
Kimə zuyu, kimə sazı.

Sən axmaqsan öyənin var,
Kürəyinə döyənin var,
"Vur, gəlirəm" – deyənin var,
Pazla çıxardırlar pazı.

TƏSLİM OLDUM

Əsir düşməyəcəyəm gözəlliyinə,
Öpüşlərin dadına...
Get məndən şikayət elə
Məni yaradana...
Sən yaradana
Məndən çox yaxınsan.
Yaxın yox
Elə bu gözəlliklə
Sən Allahınsan.
Yoxsa bu gözləri, bu qaşları,
Bu boy, buxunu,
Bu baxışları
Yerişindəki qəmzəni,
Sosindəki naxışları,
Tanrı qızına verərdi...
Bizim kimi yazıqlara
Niyə göndərib axı.
Sənin kimi gözəl dərdi.
Yox sənin boyda dərdi.
Mən çəkə bilmərəm,
Sən mənim ola-ola
Mən yer şumlaya bilmərəm.
Ağac əkə bilmərəm,
Ev tikə bilmərəm.
Güldü zalımın qızı
Özündən razı-razı
Dedi:
– Nə Tanrı, nə mələk,
Evlənəndən sonra
Arvadıq, ərik.
Yer də şumlayarıq,
Ev də tikərik,
Uşaq da becərərik!
Təslim olub dedim ki,
Yəni bacararıq?!

QALX AYAĞA

Gözlərini yumub
Gizlənmə özündən.
Özündən aşağıda özünsən.
Əlinin altında üzündü,
Üzünün altında
Gizlətmək istədiyin üzündü.
İçində öz gözün görür səni,
Sənə üsyan öz içindəndi,
Öz içində qışqırır bu sual.
Əllərini yanına sal.
Öz əllərinə cavab ver.
Öz gözlərinə, üzünə,
Əməllərinə cavab ver.
Ya istəyirsən yolun ortasında
Günün günorta vaxtı cavab ver.
Ya da istəyirsən tək-tənha
Qaranlıq bir otaqda cavab ver.
Fərqi yoxdu, cavab ver!
İlan qabıq qoyan kimi
Dərindən çıxsan da
Dərdindən çıxa bilməyəcəksən.
Gözlərini geniş açıb
Özün-özünü görəsən gərək.
Özün-özünə
Cavab verəsən gərək.
Özün-özünü qovasan,
İzləyəsən gərək.
Ürəyinin astarını
Yuyub təmizləyəsən gərək.
Gərək çalışasan ömrün boyunca.
Gərək ölməyə də ixtiyarın olmasın
Yaşayıb günahını yuyunca...
Qalx ayağa
Üzünü gizlədib sızıldama, əzizlənmə,
Gözlərini yumub
Özündən gizlənmə,
Qalx ayağa!

YÜKÜMÜ ÇƏKİRƏM

Mən səhra keçən
Dəvəyə oxşayıram.
Olan-olmazını belinə yığıb köçən
Dəvəyə oxşayıram.
Yolun çoxunu gəlmişəm
Belimdəkilər böyüyüb.
Mən kiçilmişəm.
Belimdəkilərin yeri
Rahatdı, yumşaqdı.
Arvaddı, uşaqdı.
Qohumdan, qardaşdan
Minəni var, sallananı var.
Ətəyimdən tutub sürünəni var.
Hamımızın bir olan
Bircə dünəni var.
Bu gün mən dəvəyəm
Bunlar sərnişindi,
Sərnişinlər də bir-biri ilə
Didişəndi...
Minəndi, düşəndi.
Yorğunluqdan gözlərim qapanır,
Dizim bükülür,
Köhnə araba kimi,
Canım sökülür, tökülür.
Tay-tuşlarım
Yıxılır ölür.
Mənim özümə yox
Belimdəkilərə yazığım gəlir.
İndi ki, dəvə olmuşam
Çəkirəm yükümü
Qeyrətə dolmuşam
Çəkirəm yükümü.

ENƏN DEYİLƏM

Səndən, özümdən də daha bezmişəm,
Özümün cəzamdı özüm dözmüşəm.
Yayından ayrılmış oxam, süzmüşəm.
Mən bir də geriyə dönən deyiləm.

Huşunu ayıldıb taleyin daşı,
Təzədən gözündə olmuşam yaxşı.
Leysana dönsə də gözünün yaşı,
Sevinən deyiləm, sönən deyiləm.

Çarxım çevrilsə də, yatsa da baxtım,
Sellər aparsa da demərəm: "axdım"!
Görsəm ki, ucalıb göylərə qalxdın,
Sən qalxan zirvəyə enən deyiləm.

QURTARSIN

Yüz acı eyham var hər bir sözündə
Saçları buluddu günəş üzündə.
İldırım gizlədib qara gözündə,
Bu şimşək biryolluq çaxsın qurtarsın.

Gözümdən qubarı yarım sildirsin,
Baxsın qərarını açıq bildirsin.
Ya məni öldürsün, ya da güldürsün,
Canımı odlara yaxsın qurtarsın.

Gözləri həsrətin gözüdür, baxır.
Araz ayrılıqda axır, hey axır.
Suyu od oğlunu yandırır-yaxır,
Mən də gözləyirəm axsın qurtarsın.

QADIN

Həmişə arzudu, bahardı qadın.
Qadın gözəlliyi daşqındı, daşar.
Bir nəğmədi qadın, küləkdi qadın,
Baharda hər bəndi-bərəni aşar.

Gözəl ruhumuza salıb yanğını,
Dinc dura bilmirəm bu yaşımda mən.
Subay oğlanların azadlığını,
Qızlar bir baxışla alır əlindən.

Boylanın dünyaya, baxın yollara,
Açarı sizdədi göylərin, yerin.
Sizə and verirəm gözəl bahara,
Qadınlar, bizə də azadlıq verin.

BUDUR

Çağır bir gün gəlim sizə,
Gəlim oturaq üz-üzə.
Tutuşduraq sözü-sözə,
Doğru budur, yalan budur.

Niyə durum gendən baxım,
Sözün olub sinə dağım.
Mən bağbanam, bu da bağım,
Açılan bu, solan budur.

Ağır olub daşım, sözüm,
Sən inanma canım-gözüm.
Məndən soruş, deyim özüm,
Olmayan bu, olan budur.

* * *

Biz gəldik üz-üzə, qərara gəldik
Hay-küysüz evləndik bir yaz səhəri.
Ən çətin günlərə kədərlə güldük
Qoşa qarşıladıq gələn günləri.
Var-dövlət yerinə, sərvət yerinə
Qayğılar qalmışdı atamdan mənə.
O da evlərindən cehiz yerinə
Qayğı gətirmişdi əri evinə.
Buna da çox şükür dedik biz yenə
Mən çörək qazandım, o uşaq doğdu.
Sevirəm deməyə tapmadım macal
Neçə yol yaxamdan yapışdı ocəl
O da öz sözünü dilində boğdu.
Həkimlər özünü verdi qabağa.
Ölümdən qaçmışam mən ömrüm boyu
Qara saçlarıma qar yağa-yağa.
Uşaq qamış kimi uzanır, qalxır
Zaman da bir ucdan axır su kimi.
O indi üzümə kədərlə baxır
Qəlbimin soyuyan arzusu kimi.
Qəmli gülüş oldu sözüm, gileyim
Ər-arvad başımız elə qarışdı
Nə mən bir vaxt tapdım "sevirəm" deyim
Nə də arvad mənə qəlbini açdı.
Bizim elə belə ömrümüz keçdi
İndi də yanaşı durub susuruq
Daha nə deyəsən? Ayıbdı, gecdi.

DÖZÜRÜK

Bu gün səni gördüm
Bütün dünya dəyişdi.
Saçlarında dəni gördüm,
Saçlarıma dən düşdü.

Bizimki də ömür deyil,
Elə bil ki, döyüşdü.
Özümüzlə döyüşürük
Özümüzü üzürük.
Ayrılığı yaradırıq,
Əzabına dözürük.

Adamların arasında
Görüşürük yad kimi.
Adın yanır ürəyimdə
Alov kimi, od kimi.
Oğrun-oğrun baxışların
Yandırır fəryad kimi
İki şamıq bir atəşə
Yana-yana gəzirik.
Ayrılığı yaradırıq,
Əzabına dözürük.

Anlar keçib günə dönür,
Günlər ilə dönürlər.
Qönçələr də pardaqlanır
Qızılgülə dönürlər.
Bizim kimi yaxın olan
Dağlar, daşlar dinirlər.

Biz bir toyda iki yasıq
Vay-şüvənik, hüzünük.
Ayrılığı yaradırıq
Əzabına dözürük.

XƏBƏRİN YOXDU

Könlümün ən gizli sirri,
Nəğmələrimin sehri.
Məhəbbətin
Ürəyimdə yanıq yeri –

Göynəyir səhər, axşam.
Köynəyin kimi,
Bədəninə sarınmışam,
Əriyib
Ürəyinə dolmuşam.
Qurbanın olmuşam,
Xəbərin yoxdur.
Baxışlarım hopub
Baxışlarına,
Kirpiklərinə,
Qaşlarına.
Saçlarının
Qara yağışlarına
Heyranam.
Salamat keçərsən
Odlardan, alovlardan,
Şaxtadan, borandan,
Qardan. –
Məhəbbətim qoruyur səni
Bəlalardan.
Bəlkə elə
Mənim məhəbbətim olub
Səni yaradan?
Mənə gəlib bütün
Ağrın, bəlan,
Qadan, –
Xəbərin yoxdu.
Mən həmişə sənin yanında olacağam.
Nəfəsində,
Ruhunda, qanında olacağam.
Əllərin olub
Sığallayacağam
Boyun-boğazını,
Yanağını.
Bil ki, ürəyində
Darıxan mənəm,
Mənəm canına salan

Yanğını. –
Xəbərin yoxdu.
Xəbərin olmayacaq
Ürəyim gülöyşə nar kimi
Partlayıb, parçalananda,
Sinəmdə ürəyim
Daha dəf çalmayanda.
Sinəmlə
Ayaqlarının arasına
torpaq döşənəcək, –
Xəbərin olmayacaq.
Amma nədənsə
Kədərli-kədərli
düşünəcəksən.
Tez-tez üşünəcəksən.
Sönəcək canındakı ocaq.
Dünya ögey olacaq,
Adamlar biganə;
Yarpaqlar pıçıldayacaq sənə:
Bilmirsən,
havalar niyə soyuqdur?..
Xəbərin yoxdur?..

DAYANDI

Yenə gözlərimə nur ələnibdir,
Yenə bu təbiət təzələnibdir.
Yenə səni görüb qürrələnibdi, –
Günəş dağ başına qalxdı, dayandı.

Bu gecə taledən pay gəlibdir, pay,
Bu gecə ulduzlar qopardı haray.
Sildi pəncərəni bir buludlu ay,
Pəncərədən bizə baxdı, dayandı.

Xoş anlar ömürdən mənə əzəldi,
Yaz sevgi paylayan mehriban əldi.
Fələyin özü də insafa gəldi,
Hicranın evini yıxdı, dayandı.

Dünyada yaşarıq hərə bir haqla,
Yığışıb köçərik bir təmtəraqla.
Zamana dedim ki, karvanı saxla!
Dağlar dəvə kimi xıxdı, dayandı.

Tale qoyun kimi bizi güdürdü,
Ürək baş götürüb daha gedirdi.
Fələk yolum üstə səni gətirdi,
Fikrətin əlacı yoxdu, dayandı.

GÖRƏNDƏ... GÖRMƏYƏNDƏ...

Səni görməyəydim mən fağır, təki, –
Səni görən yazıq, görməyən yazıq.
Görməyən dünyada nə görübdür ki,
Görən nə çəkmişəm bilir mən yazıq.

Desəm ki, mənim ol, el mənə gülər,
Deyərlər, get otur qafiyə tap yaz.
Bütün yer üzündə qalan dəvələr
O qızın nazını çəkib aparmaz.

Əl göydən üzülüb, ayaq da yerdən,
Görüb öz başıma iş açmışam, iş.
"Kaş ki, görməyəydim" desəm də hərdən,
Onu görməyincə mən heç nəyəmmiş...

SƏNSİZ

Sənsiz üşüyürəm türyan istidə,
Sənsiz söhbətlərdə yersiz sözəm mən.
Bəzən haylı-küylü bir məclisdə də
Qəribəm, tənhayam, kimsəsizəm mən.

Mənə bir ömürdür bir anlığın da
Çağırsan qəbirdə dayanmaram mən.
Uyusam gözünün qaranlığında
Yeddi günəş yansa oyanmaram mən.

Bilsəm ki, sevirsən, sonsuz səhrada,
Ulduzsuz gecədə, mən tək deyiləm,
Sənsiz biganəyəm, tanışa, yada,
Sənsiz özümə də gərək deyiləm.

Dostlar qayğısıyla neyləsin buna,
Kollektiv neyləsin, yalqızam, yalqız.
Mənim ürəyimin tənhalığına
Neyləsin həmkarlar təşkilatımız.

GİLEYLİ

Qara gözlər gileyli...
Barı bir yol güloydi.
Nə istəyir bilmirəm,
Mən Məcnunam, o Leyli.

Özü nədir, ətri nə,
Dəyməyin gül xətrinə.
Yarım bənzər ahuya,
Nəfəsi gül ətrinə.

Yuxu gördüm, kim yoza?
Bir söz dedim o qıza.

Sözüm dəydi xətrinə,
Dünya düşdü payıza.

Demə yoldan ötəndir,
Ağlı başdan itəndir.
Belə-belə işlərin
Sonu toyla bitəndir.

MƏHƏBBƏT

Sevginin
Məqsədi yoxdu,
Ona görə də
Gözü toxdu.
Sevəndə bilmirsən
İstidi, soyuqdu,
Yaxşıdı, pisdi.
Nə düzdü, nə tərsdi,
Nə pəsdi.
Nə çoxdu, nə azdı,
Nə bəsdi.
Uşaq üçün böyükdü
Doğruçu at kimi,
Qocaya yükdü –
Bir çuval
Qızıl manat kimi,
Cavana köməkdi
Qızıl qanad kimi.

GİZLİ SEVGİ

Sevgimdən qaçmışam uzaq şəhərə,
Burda da həsrətin gəlib dayanıb.
Ətrin səpilibdir bütün güllərə,
Gözünün rənginə göylər boyanıb.

Sənincün dünyada bəlkə yoxam mən,
Səni sevdiyimi heç bilməyirsən.
Gündüz xəyalımdan, gecə yuxumdan,
Bir an da, bir an da çəkilməyirsən.

Ürəyim, daşa dön, bu sirri saxla!
Bu sevgi, bu bəla hardan enibdi.
Bizim taleyimiz evlə, uşaqla
Hərəsi bir yana zəncirlənibdi...

Ölüncə eşqinlə olacağam mən,
Mən sənin ruhunda, qanında varam.
Üstünü kül örtmüş bir ocağam mən,
Balaca bir mehdən qaynayar yaram.

SƏNİN HÖKMÜN

O gözlər hökmündən mən necə çıxım,
Göylərdən genişdir səmavi gözü.
Qorxuram kövrəlib ağlayar birdən,
Yağışa qərq olar bütün yer üzü.
Dönər bu dünyaya, o, elə baxar,
Kövrələr qayalar, daşlar əriyər.
Elə qəzəblənər, yandırar, yaxar, –
Dağlar dik atılar, qalxar, yeriyər.

UNUTDUM

Çoxdan unutmuşam, çoxdan,
Canımdan
Gəncliyim kimi çıxdın.
Nə fəryad qopardım,
Nə yalvarıb
Çığır-bağır saldım.
Nə də yalvarıb qadanı aldım.

Çox adicə:
Sən getdin,
Mən də qaldım.
Qaldım ümidimin
İşığında,
Söykənib vüqarıma
Qaldım.
Sənin lə özümün aramda
Çəkilib tarıma
Qaldım.
Toxudum özümü
Hamının işinə,
Atdım özümü
Dostların görüşünə.
Büründüm gözəllərin
Baxışına,
Gülüşünə,
Üzdüm məclislərin
Tüstüsündə, meyində,
Kefləndirdim
Ürəyimin səndən
Gileyini də,
Sonra sərdim özümü
Çarpayıya, qurutdum.
Səhərə kimi
Özümü,
Səni,
Dünyanı unutdum.
Üzümü yuxulara tutdum.
Yuxular da yanına qayıtdı.
Köhnə yaraları oyatdı.
Yenə adamın
Başını yaxşı qatır iş.
Ömrü başa vurmaq da
Asan deyilmiş.
Sənə şeir qoşummu?
Sənin haqqında

Nizamidən bəri
Hər şey deyilmiş...
Axır ki,
Çoxdan unutmuşam,
Çoxdan
Canımdan gəncliyim kimi çıxdın!

İNSAN QIZI

Üstünə gəlirəm,
Ayaqyalın,
Gözlərimdən
Od yağa-yağa;
Üstünə gəlirəm,
Yatmış dəvə karvanı kimi
Dağları qaldırıb ayağa.
Üstünə gəlirəm,
Fələklər qaçıb
Canını qurtarmağa tələsir.
Gəlirəm,
Ulduzlar görüb
Göydə tir-tir əsir.
Yüzillik palıdlar
Qanad çala-çala
Arxamca uçur.
Torpaq,
Mən soruşmamışdan
Qorxub
Sirrini açır.
Ovcumda balıq kimi
Çapalayır dənizlər,
Qorxusundan tərləyir
Ayağımın altında
Səhra adlı düzlər.
Kainata səs düşüb
Gəlir bir nəhəng.

Insan-adlı,
Insan-familli,
Əməli -- insan əməli,
Dili – insan dili.
Üstünə gəlirəm,
İnsan qızı.
Kainatın ulduzlu saçını
Yolmağa
Gəlirəm.
Sənin hayıfını
Səndən almağa
Gəlirəm.
Qarşında
Diz çöküb
Təslim olmağa
Gəlirəm,
İnsan qızı...

YADIMA SƏN DÜŞƏN ZAMAN

Dağlar ayağıma enir,
Gözlərimə nur ələnir,
Arzularım pöhrələnir
Yadıma sən düşən zaman.

Qış dönüb lalәzar olur,
Buzlu çöllər bahar olur,
Düşmən də dönüb yar olur,
Yadıma sən düsən zaman.

Mənim eşqim, mənim nəğmәm,
Həm sevincsən, həm də ki, qəm.
Ölü olsam, dirilərəm
Yadıma sən düşən zaman.

SƏN DEYƏN OLSUN

Ətəyindən tök daşı,
Küsmə hər addımbaşı.
Ay canım, yaxşı, yaxşı,
Yaxşı, sən deyən olsun.

Gəl mənimlə əyinmə,
Alovdan don geyinmə.
Öz-özünə deyinmə,
Yaxşı, sən deyən olsun.

Adam yarı danlamaz,
Sevməyən, söz anlamaz.
Sevənlər cığallamaz,
Yaxşı, sən deyən olsun.

Mən bir yarpaq, sən çiçək,
Mən bir ocaq, sən külək.
Can deyək, can eşidək,
Deyək: sən deyən olsun.

DÜNYANI SEVİNDİR

Ala gözlüm, aç gözünü,
Göyün üzü gülsün bir az.
Göstərginən gül üzünü,
Günün gözü gülsün bir az.

Yeriş öyrət küləklərə,
Gülüş öyrət çiçəklərə.
Zərifliyi – ipəklərə,
Şirinliyi – bala öyrət.

Saçlarını dağıtma, yar,
Dünya düşər qaranlığa.

Qar ələyən göylərə bax,
Bəlkə göydən nərgiz yağa.

Sən mehriban danış, gülüm,
Sərt qayalar muma dönər.
Elə yumma gözlərini,
Gün inciyər, günəş sönər.

İNANMA

Yalvarma, keçən deyiləm, inanmırsan, inanma,
Mən ki and içən deyiləm, inanmırsan, inanma.

Dəyanətdə, etibarda mən dağlardan möhkəməm,
Axı mənəm, sən deyiləm, inanmırsan, inanma.

Nə Məcnunam, nə Kərəm, mən də eşqin oğluyam,
Dərdindən ölən deyiləm, inanmırsan, inanma.

Mən sənə olardım arxa, olsaydı etibarın,
Arxanca gələn deyiləm, inanmırsan, inanma.

Öz eşqimi mən danmıram, alçalmıram mən sənə,
Alçalsan gülən deyiləm, inanmırsan, inanma.

Sənin təmiz çağlarını səndən yaxşı saxlaram,
Qəlbimdən silən deyiləm, inanmırsan, inanma.

Qoca Fikrət səni görüb dönə bilməz gəncliyə,
İndi mən də mən deyiləm, inanmırsan, inanma...

QINAMA

Kimlərə od qoydun bu gözlərlə sən
Nə qədər adamlar yanıb-yaxılıb.
Sən elə gözəlsən, elə gözəlsən,
Sənə vurulanın evi yıxılıb.

Xəzəl altda su tək gizlin axmağım,
Kölgənə sızmağım doğrudur, haqdır.
Mənim oğrun-oğrun sənə baxmağım
Payızda baharı xatırlamaqdır...

ƏGƏR OLMASAYDIN

Dünyaya gəlməsəydin
Yenə tapardım səni.
Gündən, sudan, torpaqdan
Yoğurub-yapardım səni.
Gözlərinin nurunu
Al günəşdən sağardım,
Nəfəsinin ətrini
Çiçəklərdən yığardım.
Bulaqlardan yığardım
Sözlərinin tamını.
Gözünə rəng edərdim
Bizim geniş çöllərin
Ən qərib axşamını.
Səni yaratmaq üçün
Ölüm lazım olsaydı,
Deyərdim yüz yol ölüm.
Dünyaya gəlməsəydin,
Sənsiz dünyada nə var,
Mən də gəlməzdim, gülüm.

İLK BAHAR

Nəğmə sərgisidi bahar bayramı,
Sevinclə, sevgiylə boyanıb üzlər.
Elə bil söz qoyub bu bahar hamı
"Evdə oturmayaq gərək gündüzlər".

Gözəl kölgələri geyinir yollar,
Mehriban baxışdan uzanır, qalır.
Gecəni sübhəcən öyünür yollar
Göydə ulduz yolu sozalır, qalır.

Torpağın nəfəsi dəyir üzümə,
Yarpaq tumurcuqdan qışqırır, baxır.
Elə ki sataşır gözün gözümə
Ürək əsgər kimi salama qalxır.

Dodaqlarda alov, gözlərdə ocaq,
Bu yağan yağışdı, güldü, çiçəkdi?
Daşa sığal çəksən, daş oxuyacaq,
Dağa salam versən, kövrələcəkdi.

Elə mehribandı təbiət, həyat,
Buz utana bilər, buz gülə bilər.
Bu torpaq altında bu gün, bu saat,
Min ilin ölüsü dirilə bilər.

Havalı başımda bu sevgi hardan?
Ürəyimdə ağrı, gözlərimdə qəm.
Subay çıxa bilsəm bir bu bahardan,
Sonra ömrüm boyu mən evlənmərəm.

Bahar özü ilə nələr gətirdi,
Rəngi səsə dönür gülün, gülzarın.
Havası nəğmədi, suyu ətirdi,
Nəfəsi sevgidi bu ilk baharın.

TORPAĞIN NƏĞMƏSİ

Baharın ilk günləriydi,
Torpaq nəğmə deyirdi.
Sözlər onun güllәriydi,
Torpaq nəğmə deyirdi.

Gül ətriydi, quş səsiydi,
Sularının xoş səsiydi,
Bilmirəm yağış səsiydi,
Torpaq nəğmə deyirdi.

Yaşıl zəmi nazlanırdı,
Tumurcuqlar sözlənirdi,
Bənövşələr gizlənirdi,
Torpaq nəğmə deyirdi.

Uşaq öpürdü quzunu,
Bir qız yuyurdu üzünü,
Dumandı, şumlar üzünü
Torpaq nəğmə deyirdi.

GƏL BİR NƏĞMƏ OXUYAQ

Gəl bir nəğmə oxuyaq –
bir sözünü sən de
bir sözünü mən.
İkimiz də birdən oxuduq,
İkimiz də birdən dedik:
Vətən, Vətən.
Gəl bir nəğmə oxuyaq –
bir sözünü sən de, bir sözünü mən.
Olmasın sözümüz təkrar.
İkimiz də birdən dilləndik,
İkimiz də birdən dedik:
Yar, yar.

Gəl bir nəğmə oxuyaq –
bir sözünü sən de, bir sözünü mən –
Hər kəs ürəyindən gələn
Sözü desin, yana-yana
İkimiz də birdən zarıdıq:
Vay ana, vay ana.
Gəl bir nəğmə oxuyaq –
bir sözünü sən de, bir sözünü mən.
İkimiz də susduq birdən.

VƏRDİŞ

Elə ki hər işin vərdişə dönür,
Yaşamaq özü də bir işə dönür,
Ömür gündən-günə adlamaq olur,
qışda titrəyirsən, yayda yanırsan.
Gecə qara olur, gündüz ağ olur,
Hərdən yadından da çıxa bilər ki,
bu da bir dünyadı, dünyada varsan.
Hər şeyin şəklinə baxır gözlərin
yeyirsən, yatırsan, durub yeyirsən.
İstisi, soyuğu olmur sözlərin.
vərdiş elədiyin yolları, işi
soyunub yatırsan, durub geyirsən.
Yadından çıxır ki, yer kürəsi var,
insanlar yaşayır qaralı, ağlı.
Bu yer kürəsində olan hər şeyin
bir avand üzü var, bir də tərsi var.
Haqq var, ədalət var, hökmü rəvandı,
Onlar da ömürdü əriyib axır,
bir şamsan yanırsan günorta vaxtı.
Yadından çıxıbdı yol enir, qalxır,
Adamın gətirməz, gətirər baxtı.
Yadından çıxıb ki, ölüm-itimdi,
beşikdən məzara gedən yoldu bu.
Sənin ömür yolun ikicə tindi,

birdən niyə görə ömür oldu bu –
vərdişdi, vərdişdi, ilhamsız işdi -
Bu gündən sabaha keçmək vərdişi.
Çörək çeynəməkdi qarnın doyunca
Üstündən bir az su içmək vərdişi.

KEÇİB GEDƏCƏK

Keçib gedəcəkdi
bu ağrı-acı,
bir vaxt olmayacağam
xoş gün tamarzısı,
kömək möhtacı.

Mən sürət götürmüş
bir qatar kimi
gecədən, gündüzdən keçib gedərəm.
Tale üşütsə də
Məni qar kimi,
ömrü şorbət kimi içib gedərəm.

Rels qurtaran yerdə
hələ aşa-aşa
gedərəm bir az.
Özüm öz əl-ayağıma
dolaşa-dolaşa gedərəm bir az.

Sonra süküt adlı bir uçurumda
nə havadan tutar,
nə də qanad çalar,
süzər xəyalım,
Sərilər zamanın axarı üstə
özü istəmədən üzər xəyalım.

Adım geyilməkdən,
sözüm yeyilməkdən,

qapım döyülməkdən qurtaracaqdı.
Keçib gedəcəkdi
bu ağrı-acı.
Qoluma girəcək xatirələrim.

EHTİYAC

Qarnım toxdu,
Könlüm, ruhum çoxdan ac idi.
Rahatlıqdan, evdən qaçmaq ehtiyac idi.
Balıq tutmaq bəhanəsi keçdi əlimə,
Gecə Kürün sahilinə verdim özümü.
Mən o gecə düşdüm tamam başqa aləmə,
Gözəl dövran, mən sənə də yumdum gözümü.
Süküt vardı beynimdəki küyü yuyurdu -
İlbizlərin səsi idi sükut deyəsən.
Mənim idi ilk insanın ocağı, yurdu.
Heyif deyil, sükut geyib, dinclik yeyəsən.
Elə sakit, elə rahat uzanmışdım ki,
Ulduzlar da pıçıldaşsa, mən eşidərdim.
Mən bu gecə elə bir şey qazanmışdım ki,
Əritmişdi ürəyimdə kədəri, dərdi.
Kür sahili, sükut, bir də bu aylı gecə
Uzun ömrün çirkabını, tozunu yudu,
Ömrümdəki gecələrdən bu ayrı gecə
Bir ömrün söhbətini, sözünü yudu.
Dan sökülür, açılır bir həyalı səhər,
Yazıq Fikrət, ürəyini indi günə sər,
Bütün gecə yuyulubdu, indi qurusun.
Ömür boyu sözdən, tozdan, nə bilim nədən
Adam gərək ürəyini özü qorusun.

BALALARIMA

Ağlama, balam, ağlama,
Bu dünya düzələn deyil.
Ağlama, balam, ağlama
Gedənləri gələn deyil.

Demə ki "var", deynən "vardı".
Ömür köç gedən yollardı.
Getdi borcunu qaytardı,
Öldü bir də ölən deyil,
Ağlama, balam, ağlama.

Heç bura da gəlmə hər gün,
Sağ ol, yada salıb gəldin.
Sən ağladın, ya da güldün,
Atan burda bilən deyil,
Ağlama, balam, ağlama.

Vüqarlı gəz bundan belə,
İnsanlarla ver əl-ələ,
Heç bir ölü dirilərlə
Qalxıb dərd-sər bölən deyil,
Ağlama, balam, ağlama.

BİZ GEDƏRİK, YAŞIDLARIM

Ömür keçir, saç ağarır, göz nurdan düşür,
Qamət sınır, boy kiçilir, qürurdan düşür,
Dost seyrəlir, cərgəmizə daha dən düşür,
Yalan yaşar, amma meydan yalana qalmaz.
Biz gedərik, dünya burda qalana qalmaz.

Ömür də bir yol deyil ki, eniş-yoxuşu,
Yazdı, yaydı, bir də gördün, payızdı, qışdı,
Mən rahatlıq tapanacan cavanlıq uçdu,

Gözəllik də ondan ilham alana qalmaz.
Biz gedərik, dünya burda qalana qalmaz.

Nə uduzduq, nə də udduq, bu bir oyundu,
Bizi özü yoğunlatdı, özü də yondu.
Lilim çökdü, suyum uçdu, odunum yandı,
Torpaq heç vaxt özü torpaq olana qalmaz.
Biz gedərik, dünya burda qalana qalmaz.

Güləşənlər, yıxılanlar, yıxanlar gedir,
Fit verənlər, əl çalanlar, baxanlar gedir,
Qulluq üçün dərisindən çıxanlar gedir,
Bu "sur" ki var, qiyamətdə çalana qalmaz.
Biz gedərik, dünya burda qalana qalmaz.

Dünya üzü üzlər görüb min yol düzlənib,
Uralanıb, malalanıb, südü üzlənib,
Dünyamızı yaradan da qaçıb gizlənib,
"Mənəm-mənəm" – deyib taxt-tac salana qalmaz,
Biz gedərik, dünya burda qalana qalmaz.

Yer yananda ona göylər yanır, ağlayır,
Yer kürəmiz qocalıbdı, oxu laxlayır,
Yaddaşında yaxşıları ancaq saxlayır,
At oynadıb burda qılınc çalana qalmaz.
Biz gedərik, dünya burda qalana qalmaz.

YAŞAYACAQDIR

Uçub getdik bu dünyanın başının üstdən,
Bir ömür də keçməyibdi yaşının üstdən,
Heç qırış da düşməyibdi qaşının üstdən
Hələ bir ot göyərtməyib daşının üstdən.
Görə-görə, duya-duya yaşayacaqdı,
Cavan dünya, gözəl dünya yaşayacaqdı.

Yollar ilan dili kimi haçalansa da,
Əsrin səbri cır nar kimi parçalansa da,
İnsan didib bir-birini parçalasa da,
Yer üzündə yenə səhər açılasıdı,
Əl-üzünü yuya-yuya yaşayacaqdı,
Cavan dünya, gözəl dünya yaşayacaqdı.

Hər kəs gəlib ocağını çatıb gedəcək,
Gedənlərin tozanağı yatıb gedəcək,
Bu dövranda tərsliyini atıb gedəcək,
Bu səbirli tutduğundan tutub gedəcək,
Günəş əmib doya-doya yaşayacaqdı,
Cavan dünya, gözəl dünya yaşayacaqdı.

İnsan hələ milçəyə də verməyib canı,
Amma insan canlı qırıb ulduzlar sanı,
Kim qəfəsə salacaqdı tutub zamanı,
Torpaq yenə yaradacaq otu, insanı
Yenə həyat dönüb toya yaşayacaqdı,
Cavan dünya, gözəl dünya yaşayacaqdı.

Yazan yazır, yozanlar da min yana yozar,
Dəllalları çox görübdü bu böyük bazar.
Gələnlərə yer tapılar, gedənə mozar
Varaq yansa tarix yazan torpağa yazar.
Boylanmayıb səsə, soya yaşayacaqdı,
Cavan dünya, gözəl dünya yaşayacaqdı.

Qatil ömrü-günü heç vaxt ağ olan deyil,
Yerə insan əkmək ilə bağ olan deyil,
Davalarda həqiqətlər doğulan deyil,
Yer kürəsi göz yaşında boğulan deyil,
Döndərəcək duzlu suya yaşayacaqdı,
Cavan dünya, gözəl dünya yaşayacaqdı.

NƏ VAXT?

Yoruldum, sərildim yer kürəsinə
Gecəni yorğan tək üzümə çəkdim.
Qulağımı söykədim vaxtın səsinə
Göyün mavi səbri gözümə çökdü.

Ayağımdan ağrını dənizlər yudu,
Yorğun barmaqlarım yerə kök atdı.
Ürəyimin yanğısı bir az soyudu,
Yer də sürətini bir az azaltdı.

Böyük kainatın belə boş vaxtı
Məni bu torpağa axı kim əkdi.
Əlimdən pöhrələr ucalacaqdı,
Kökümdən insanlar göyərəcəkdi.

Cavan pöhrələrin gülüşlərinin
İşığı bir nəğmə çalacaq səhər.
Göyün milyon-milyon günəşlərinin
Gözləri bərələ qalacaq səhər.

Kainat olacaq insan yolları,
İnsan lal səmanı danışdıracaq.
Körpü tək uzanıb insan qolları
Neçə səyyarələr barışdıracaq.

A DÜNYA!

Öz urvam var, öz unum var,
Ələyimi ələyirəm.
Seyrəldikcə dost-tanışlar
Mən yır-yığış eləyirəm,
A dünya, sənə yaxşı yol.

Qaralır köz, sönür ocaq,
Gözü örtür göz üstə qaş.
Mən düşəsi dayanacaq.
Yaxınlaşır yavaş-yavaş,
A dünya, sənə yaxşı yol.

Mənim çox az görüşüm var,
Salam verəm, ya verməyəm,
Yolüstü bir az işim var,
Vaxt ola görəm, görməyəm,
A dünya, sənə yaxşı yol.

Qılıncımı qına qoyub,
Kəhərimdən mən düşmüşəm.
Çox şeylərdən gözüm doyub
Yerişimi dəyişmişəm.
A dünya, sənə yaxşı yol.

Son baxışım səni öpər,
Sənə duadır son sözüm.
Nəğməmi özünlə apar,
Uğur olsun canım, gözüm,
A dünya, sənə yaxşı yol.

QARA QARAYEVİN ƏZİZ XATİRƏSİNƏ

Bu susan
bir musiqinin son nidasıdı.
Lalələr şərəfli Qara ömrünün
qırmızı əlvidasıdı.
Musiqini oxuyur
Öz rəngiylə güllər.

Bu gecə
ildırımlı yollar keçib
bir zənci gələr
tabutunun ayağına,

Gözlərinin ağı
Lalə kimi yana-yana.
Haqqımız yoxdu
deyək bu ömür azdı,
deyək çoxdu.

İnsan əvvəl-axır
torpaqdı.
Abşeron qayalarında
Xəzərin duzlu göz yaşı axdı.
Qara Qarayev
ömrünü musiqiyə, səsə döndərib.
Səs ömrünün ölçüsü yoxdu.
Azərbaycan yola salacaq onu
Qaradağlı, Qarayazılı, Qarabağlı
Yeddi gözəl gələcək bu gün
Qara duvaqlı.
Qara bir axşam gələcək

Qara geyinib Qarasız qalmış
bir ilham gələcək.
Bu qara torpağın yaşı qədər
xalqımız səni salacaq yada...
İndi... Əlvida,
Əzizimiz, əlvida...

CAVİD GƏLİB, AÇ QOYNUNU

Tale, nə gözəl gündü bu, sən
insafa gəldin.
Qırx ildi gəlirdin, gəl, a Cavid,
səfa gəldin.
İllər külək oldu,
yollar çiçək oldu,
insan mələk oldu,
gördün – vəfa gəldin.

Torpaq, gözün aydın,
onu al bağrına, torpaq!
İtkin düşən oğlun gəlir,
Yoldan gəlir, yorğun gəlir,
Ey ulu torpaq, ana torpaq,
Cavid gəlib, aç qoynunu, bas bağrına torpaq,
Onu kövrəlt, onu qızdır,
O qədər həsrət olub ki,
Ona yurdun qışı yazdır.
Həsrət - onu mərd yıxdı ki,
O insafa gəldi...
Ey ayrılıq oğlu, bu Araz sahilinə
sən səfa gəldin!

BİLMƏRƏM

Gəzdirərəm ürəyimdə bürkünü,
Dağlar geyib yaşıl yarpaq kürkünü.
Mən ömürdən burda keçən hər günü,
Ömür saydım, hədər saya bilmərəm.

Namərd olub öz dərdimə gülməsəm,
Sağlıq olsun, görüşərik ölməsəm,
Əgər bir vaxt Lənkərana gəlməsəm,
Qəza sayın, qədər saya bilmərəm.

Ürəyimi döyündürün, döyməyin,
Sərhəd üstə geydim həsrət köynəyin,
Mənə burda "kədərlənmə" deməyin,
Mən bu dərdi kədər saya bilmərəm.

KEÇİB GEDƏCƏK

Dünyanın işləri keçib gedəcək,
Hər şeyi sahmana salacaq həyat.
Yerin allahları köçüb gedəcək,
Qalacaq insanlar, qalacaq həyat.

Xatirə çalacaq qaynar sazında,
Buludlar göylərdə göllənəcəklər.
Ağaclar torpaqla göy arasında
Yaşıl tellər kimi dillənəcəklər.

Ölən gözəlliklər, ölən gözəllər
Təzədən yaranar, sevilər yenə.
İnsanlar yenə də vüsal gəzərlər,
Həsrət aparalar mənzillərinə.

Bulaqlar qaynayar qədim illərdən,
Uzaq əsrlərdən küləklər əsər.
Min ilin tanışı rastlaşar hərdən,
Hərəsi bir yana yenə tələsər.

Yenə güləşərlər – "görək kim haqdı",
Torpağa qoyular asılan, asan.
Yenə də xoşbəxtlik axtaracaqdı
Dünyanın ən xoşbəxt canlısı insan.

* * *

Gülün gözəlliyi öz qatilidi
Bülbülün qəfəsi şirin dilidi.

HƏMSÖHBƏT

Ürəyim darıxanda,
abırlı bir yerə getmək istəyəndə,
abırlı bir söhbət etmək istəyəndə
çıxıram sahilə,
altıma qoyuram daşı,
atıram qarmağı,
Dənizdən yaxşı yer,
Balıqdan yaxşı söhbət yoldaşı...

YAZIQ MUSA

Qorxa-qorxa yaşadı ömrünü yazıq Musa,
Birdon aldadarlar ha, birdən aldanaram ha...
Getmədi xeyri-şərə, getmədi toya-yasa
Birdən aldadarlar ha, birdən aldanaram ha...

Öz evi, öz yatağı, vətəniydi, eliydi,
Fikri vahiməliydi, gözü vahiməliydi.
Onun ən qorxduğu şey insanların əliydi, –
Birdən aldadarlar ha, birdən aldanaram ha...

Quzey o yana dursun, güneydən nəm çəkərdi,
Tütün almaqdan qorxub, oturub qəm çəkərdi,
Yeməyi öz qabına durub özü çəkərdi –
Birdən aldadarlar ha, birdən aldanaram ha...

Bir qərara gəlincə ölərdi, dirilərdi,
Yazıq Musa kişinin yaman ağırdı dərdi.
"Hə" ilə "yox" sözünü eyni anda deyərdi –
Birdən aldadarlar ha, birdən aldanaram ha...

Zaman keçdi, yaş ötdü, Musa nazik əyirdi,
Yıxılmaqdan qorxub o daha iməkləyirdi,
Vida vaxtı çatanda yazıq bir il can verdi –
Birdən aldadarlar ha, birdən aldanaram ha...

ŞAHMAT

Dünyada şahların
bir ağı, bir qarası qalıb.
Cəmi iki avarası qalıb
bir şahmat taxtası üstündə
İkisi də pis gündə.
Adları şahdı,
özləri oyuncaqdı.
Şah paltarında iki uşaqdı,
nə çalsan, ona oynayacaqdı.
İkisinin də yanındadı
atı, topu, qoşunu.
İkisinin də yadından çıxıb
yer əkəni, ev tikəni, nəğmə qoşanı.
Qırılan əsgərlər də bilmir,
Günah bu şahların hansındadı.
Yazıqların heç ağlına da gəlmir
Şahlarının da başı
bir oyunçunun iki barmağının arasındadır.

BƏSDİR

Bəsdir, göz yaşardıb zarıma zar-zar,
Səndən, dünyandan da böyükdür dərdim.
Bilsəydim göz yaşı yara sağaldar,
Dünyanı sularda qərq eləyərdim.

Bəzən yaşamaqdan adam yorulur,
Kişi yorğunluğu kişini yıxmaz.
Adamın qeyrəti gözündə olur,
Kişinin qeyrəti əriyib axmaz.

Əriyib yox olur ağlayanda qar,
Şam da ağladıqca dünyadan köçür.
Alçalır, kiçilir ağlayan xalqlar,
Torpağı əllərdən əllərə keçir.

Göz ağı-qaradan seçmək üçündü.
Uşaq ağlayar dil açana kimi.
Can vətən yolunda keçmək üçündü,
Adam uşaq olar haçana kimi.

Səsin adamları qoy bezdirməsin,
Oxuyursan oxu, yazırsansa yaz.
Qoy şeİr gözündə nəm gəzdirməsin,
Göz üstə damlanı saxlamaq olmaz.

XOŞ GÖRDÜK

Səni gördüm, üzüm güldü, xoş gördük,
Səni gördüm, xoşboxt oldum bu axşam.
Yüngülləşdi çiynimdəki ağır yük
Sönüb getmiş gözlərimdə yandı şam.

Bayram oldu ürəyimdə, evimdə
Səni gördüm, yollar əlvan geyindi.
Nağıllardan qaçıb gəlmiş divin də
Qarşısında çəkinmərəm mən indi.

Səni gördüm, dünya tamam dəyişdi
Ədalət var, səxavət var dünyada.
Səni gördüm, ürəyimə od düşdü
Məhəbbət var, məhəbbət var dünyada.

Səni gördüm, göyə baxdım, güldü göy,
Çölə baxdım, çiçək açdı dağ, dərə.
Doğmam mənim, sənin üçün mən ögey
Hərdən görün, zülm eləmə çöllərə.

Səni gördüm bahar gəldi cahana
Səni gördüm dünya əlvan boyandı.
Əfsanələr dirildi, gəldi cana
Leyli-Məcnun yuxusundan oyandı.

Leyli gördüm mən bu gün bu ölkədə
Yaxa cırdım, sinə gərdim bu dağa.
Mən Məcnundan bərk sevirəm bəlkə də
Vaxtım yoxdu mənim dəli olmağa.

İŞ BELƏ DÜŞDÜ

Yaxşılı-yamanlı gözəldir hamı,
Hərə bir taleli, hərə bir adlı.
Hər kəsin dünyada var öz əyyamı,
Sevincli, kədərli, insan həyatlı.

Kimi gec doğulur, kimi bir az tez,
Kimi də dünyaya vaxtında gəlir.
Odur ki, araya düşür bu söz-sov.
Biz çoxuq, amma ki, dünya birdi, bir.

Əvvəldən çaşmışdıq macəramızda
Biz öz başımızda od qalamışdıq.
Müqəddəs vətəni öz aramızda
Məhəllə-məhəllə parçalamışdıq.

Hər kəsə baxanda bir düşün ki, sən
Hər kimsə insandır, bir gərək olar.
Pisə "yaxşı" deyib, yaxşı edərsən,
Yaxşıya pis deyib öldürmək olar.

Bir vaxtda doğulduq, iş belə düşdü,
Dünyanın işindən biz ki halıyıq.
Didişmək, boğuşmaq havayı işdi,
Ölüncə bir yerdə yaşamalıyıq.

* * *

Yarpaqlar quşlara qoşulub gedib,
Kür boyu meşələr tək qalıbdılar.
Yaşıllıq elə bil quş olub gedib,
Ağaclar nə yaman qocalıbdılar.

Hirsindən partlayıb meşədə cır nar,
Yovşan yetim kimi görünür mənə.
Donunu soyunmuş cavan ağaclar
Həyadan qısılıb biri-birinə.

Kürdə də kürlükdən əsər qalmayıb,
Dilini qarnına qoyub yatıbdı.
Heç kəs cığırlara ləpir salmayıb,
Torpaq da su içib, doyub yatıbdı.

Həzin payızı var bizim yerlərin,
Susursan, danışıb-gülmək olmayır.
İnsansan, olsa da min dərdin, sərin,
Meşəni tək qoyub gəlmək olmayır.

BALTA SƏSİ

Qışda balta səsi yaman olur.
Kəsilən ağac yalan olur;
yaxındakı ağaclar
tir-tir əsir.
Bəlkə kişi quru bir
ağacı kəsir?
Bəlkə də həmin adam
meşəni qoruyur?
Amma o bir ağacı kəsincə
On cavan ağac
qorxusundan quruyur.

AĞLAYIRMI GÖRƏSƏN

Görəsən ağaclar ağlayırmı
budağını yarpaqlar, quşlar
tərk edəndə.
Kölgəsindən
insanlar da gedəndə.
Qışın sərt küləyi
qırmanclayanda budaqları,
çılpaq qolları tir-tir əsəndə
ağaclar ağlayırmı,
ürəyini boşaldırmı, barı?
Yorulanda şaxta, ayaz,
gələndə yaz,
budağına qayıdanda
quşlar, yarpaqlar,
yanına yığışanda biz,
kölgəsi ayağına yıxılanda
səssiz, səmirsiz...
Hcç olmasa bu günündə gərək
özünə yazığın gələ, hönkürəsən.
Ağaclar ağlayırmı görəsən?..
Ağaclar qürurunu saxlayır,
vüqarını qoruyur.
Gecələri üzünə tutub ağlayır,
ağaclar ağlamaqdan
quruyur.

GÖZLƏRİM

Bu gözəl dünyaya, gözəl aləmə
Kədərlə boylanma, kədərlə baxma.
Gözlərim, dünyanı boyama qəmə,
Payız sularıtək kədərli axma.
Xəzəllər saralmış arzular deyil,
Yarpaqlar öləndə gözəl olur ki,

Gözəl qarşılansın yenə gələn il.
Bir cür gözəl olur, həm qürub, həm dan,
Günəş də dünyadan gözəl gedir ki,
Görənlər bezməsin gözəl dünyadan.
İnsantək yaşasaq dünyada əgər,
Bir ömür insanın gen-bol bəsidir.
Böyüklər dünyaya "gözəlsən" deyər,
Kədər acizlərin bəhanəsidir!

AĞACLAR

Töküldü ağacların
görən gözləri,
eşidən qulaqları,
yaşıl yarpaqları.
Ağaclar oldu kor-kar,
budaqlarıyla küləyin
saçından yapışdı,
kökləri ilə yerdən yapışdı
ağaclar.
Quru barmaqları ilə
çörəkdən yapışan kimi aclar.
Yer yerə çəkdi,
küləklər göyə.
Yerlə göy arasında
ağaclar əsəblər kimi
tarıma çəkildi
bütün qışı inildəyə-inildəyə.
Yaxşı ki, qışda
kor-kar olur ağaclar.
Yoxsa insanların,
ulduzların biganəliyini görüb
yaşamaqdan yorularlar.

ƏSGƏR MƏKTUBU

Yazırsan: oğlum olub...
Yazırsan: evimizdə
Təzə günəş doğulub...
Bir az ehtiyatlı ol,
Od kimi şeydir oğul,
Böyüyüb yanğın olar.
Can isitmək yerinə,
Sonra canın qovrular.

Durmuşam qazamatın
Qapısında keşikdə.
Bala görməyə gələn
Ana durub eşikdə.
Səbri kirpiklərindən
Süzülür aram-aram.
Öz doğma anam ola –
Görüşə buraxmaram.

Başlarının üstündə
Gəzirəm sola, sağa,
Baxıram hər dustağa...
Birisi rüşvət alıb,
Birisi ev yarıbdır.
Birisi xalq malını
Zəli kimi sorubdur.
Biri də bıçaq çəkib
Üstünə bir cavanın;
Gözünü yolda qoyub
Mehriban bir ananın.

Dayanmışam keşikdə,
Ürəyimin başından
Asılıb avtomatım,
Qardaşım qaçsa burdan,
Mənim borcumdur atım.

Ana yalvarır mənə,
Yalvarır məftillərə.
Ömrü az qalıbsa da
O yalvarır illərə, –
Tez gəlib keçin, – deyir,
Ana görüşə gəlib,
Ana görüş istəyir.
Tikanlı məftillərin
Arxasında illərin
Ağırlığı gizlənib.
Burda baxan yoxdur ki,
Kim dəymədüşər olub,
Bəslənib, əzizlənib...
Sən də ana olmusan,
Bir az ehtiyatlı ol.
Od kimi şeydir oğul,
Böyüyüb, boya yetib
Könül qırmasın deyə,
Körpə qəzəbi ilə
Qab sındıranda qoyma.
Sonra silah götürüb
İnsan vurmasın deyə,
Əlinə daş götürüb
Cücə vuranda qoyma.

1961

MÖCÜZƏ

Soruşma nə üçün sevirəm səni
Sən də möcüzəsən, mən də möcüzə.
Niyə eyni vaxtda dünyaya gəldik?
Bu boyda dünyada gəldik üz-üzə?

Hər addım başında min möcüzə var.
Möcüzə küləkdi, oddur, bulaqdır.

Kiçik bir budaq da hoqqa çıxardır,
Yarpağı yaşıldı, çiçəyi ağdı.

Sükut səssizlikdən yaranır, ancaq
Sükutun səsindən qulağım batır.
Hər şeydə, hər yanda min möcüzə var,
Daşda, qayada da möcüzə yatır.

Hardandır gecədə işıqlı yuxu?
Zülmət yer altında işıqlı sular?
Ölüm ayağında həyata ümid?
Zindanın küncündə gözəl arzular?

Min-min səyyarəni yaşatmaq üçün
Günəşə nə gəlib alışıb yanır.
Kiçik bir daş atsan havada durmaz
Bəs bu yer kürəsi necə dayanır?

Mavi göz aləmi mavi görməyir,
Ala göz də ala, qara göz qara.
Bir vaxt mən ölsəm də, bu ölüm deyil
Təslim olmağımdı bu suallara.

Soruşma nə üçün sevirəm səni
Sən də möcüzəsən, mən də möcüzə.
Niyə eyni vaxtda dünyaya gəldik?
Bu boyda dünyada gəldik üz-üzə?

SƏNİ SEVƏNDƏN

Eşqin bəzəyibdir yaşıl çölləri,
Hələ ki, sevirəm həyat gözəldi.
Bütün bu dünyanın gözəllikləri
Sənin eşqin ilə dünyaya gəldi.

Güllərin rəngiylə gülür çöl, çəmən,
Elə bil dağlar da o dağlar deyil.

Mən səni sevəndən, səni sevəndən
Dönüb nəğmə olub dəniz elə bil.

Mən səni sevəndən, səni sevəndən
Qəlbimdə sevincim aşıb daşıbdır.
Üzlərdən çəkilib qəzəb, duman, çən,
Adamlar hamısı yaxsılasıbdı.

SƏRHƏD BOYUNCA

Dağların dağ dərdi var –
Qar altında üşüyər,
Gün altında yanarlar.
Danışmaq qadağandır,
Üz-üzə dayanarlar.
Sakitcə boylanarlar
Dağlar sərhəd boyunca,
Gözlərində bulaqlar
Ağlar sərhəd boyunca.

İki cərgə düzülüb
Sərhəd boyu təpələr,
Təpələr dağ övladı –
Allı-güllü körpələr.
Dayanıblar döş-döşə
Danışmaq olar dcsən
Təpələr qışqıracaq:
"Bənövşə, bəndə düşə,
Bizdən sizə kim düşə".
Təpələr dağa baxır,
Dağların dağ dərdi var –
Sakitcə boylanırlar
Dağlar sərhəd boyunca.
Gözlərində bulaqlar
Ağlar sərhəd boyunca.

Dünyanın işinə bax,
Dərdli babalarımı
Aldı, apardı torpaq,
Bu dərdə yer dözmədi,

Şişdi, şişdi oldu dağ,
Qorxuram dərdimizlə
Bu dünyanı partladaq,
Nə qədər ki, boylanır
Dağlar sərhəd boyunca.
Gözlərində bulaqlar
Ağlar sərhəd boyunca.

YAXŞI Kİ...

Yaxşı ki, dünyada yaşayıram mən,
Bir insan adını geyib əynimə,
Bir insan ömrünü alıb çiynimə,
Günlərdən-günlərə daşıyıram mən.

Heç mən olmasam da dünya olardı,
İnsanlar, qayğılar yenə vardılar.
Dünya bir ürəklik kasıblayardı,
Dostlar bir dost boyu qısalardılar.

Heç mən olmasam da, boş qalmaz yerim,
Min Fikrət tapılar tanışa, yada.
Mənim öz sevincim, mənim kədərim
Yetim qalacaqdı gözəl dünyada.

Mənim məhəbbətim bahar kimidir,
Nifrətim ən qəddar şaxta, ayazdı.
Bütün qapıları döyərdi bir-bir
Gecələr yatmağa sizi qoymazdı.

UŞAQ OLMAQ İSTƏMİRƏM

Bir də uşaq olmaq istəmirəm,
aldadırlar adamı hər addımbaşı
Böyüklər qəribə olur
uşağa qarşı.
Canı yanan, doğma atan-anan
rezin əmzik verir sənə,
yemək yerinə.
İçi boş şar,
Yalançı qılınc,
Yalançı mişar,
Yalançı maşın.
Balaca bir yalan dünyasında
qarışır başın.
Bir adam da demədi, bala, inanma.
Ağlım kəsməsəydi
yalan işlərdi qanıma.
Ömrümün əvvəli
yalanlar arasında
itdi, batdı.
Sonra böyüdümsə də
uşaqlıq vərdişim üzündən
məni hər yalançı aldatdı.

BU GÜN

Məhəbbət süzülür
torpağa-daşa
Çaylar süd rənginə
Boyanıb gedir.
Bu ay işığından,
Bu məhəbbətdən
Dağlar ağır-ağır
ayağa qalxır.
Bulağın sevgisi

Gözündən axır.
Zirvələr az qalır göyə dırmaşa
Ürəyim partlayır məhəbbətimdən
bu yaz gecəsində,
ay işığında,
Yolun ortasında,
Göz qabağında
az qalır ağactək,
pöhrəliyim mən.

* * *

Salam, Rəsul Rza!
Yenə də özümlə söhbətim səndən düşdü,
Salam, şair,
bilirəm, şair ömrü uzun işdi.
Həmişə ürəyin ovcunda
ürəyinə yağır
qar, yağış,
söz, baxış,
tərif, tənə.
Gələn salamsız, kəlamsız
birbaşa daxil olur ürəyinə,
Papaqlı, ayaqqabılı, paltolu,
Gedən ürəyindən gedir,
Şair ürəyi el yoludur,
el yolu,
Həmişə yüklü, dolu.
Nə qədər illər,
Nə qədər dostlar
gedib bu yolla,
Yetim qalmış xatirələri
ürəyində xəlvət-xəlvət
sızlayanda.
Ürəyinin könlünü alırsan
validolla

Yadından çıxır öz dərdin-sərin.
Həmişə təzyiq altındadır
zamanın barometri – əsəblərin.
Baxıram üzünə, kefin xarabsa,
deməli, bədbəxtlik üz verib
hansı ölkəyəsə, harasa.
Kiminsə taleyi tapdalanıb.
Hansı xalqınsa
azadlığı talanıb.
Dünyada nələr olur,
nələr.
Sənin gözlərində ağlayır, gülür
ağlayan, gülən nəğmələr,
Yenə də özümlə söhbətim
səndən düşdü.
Salam, Rəsul Rza,
Bilirəm, şair ömrü uzun işdi.

* * *

Ömür,
bir üzü gecə,
bir üzü gündüzdü.
Şair ömründən
gecələri çıx.
Şair gecələrində
İşıq olanda işıq yanır,
işıq olmayanda
Öz fikirlərinin işığında
dolanır.
Şair ömrü
gecəli-gündüzlü olmur.
Əsl şairlər
ona görə
ikiüzlü olmur.
Nə yazsa, düzdü.

Oz inamına görə
tənqidlərə,
tərifləə
Rəsul Rza dözdü.
Ən çox ozunə,
bir də şerinə
ərk eləyən Rəsul Rza.
Hamıdan çox döyüiən,
hamıdan çox bərkiyən
Rəsul Rza.
Dedilər: Vəzni pozdu.
O bir şeir də yazdı.
Dedilər: Şerinin bəzəyi azdı.
O bir şeir də yazdı.
Dedilər: Dayazdı.
O bir şeir də yazdı.
Dedilər biz anlayırıq,
Amma xalq üçün
anlaşılmazdı.
O bir şeir də yazdı.
Yazdı, yazdı, yazdı.
Amma öz aramızdı,
O vaxt sözümüzə baxsaydı,
İndi Rəsul Rza olmazdı!

YAĞIŞ YAĞACAQ

Bu gün bir kişi ağlatmısan,
Yağış yağacaq,
Bu gün də, sabah da
yağış yağacaq.
Ömrümə, pəncərəmizə, vaxta,
Mənim dediyim "Cığal olma sözünə"
sənin dediyin "taleyi - baxta".
Yağışda çiməcək
sənsiz çılpaq qalmış ürəyim də,

həmişə yolda olan
vaxt adlı uzunqulaq da.
Sən ki bir kişi ağlatdın,
Yağış yağacaq.
Evimin döşəməsində quru taxta
göyərib yarpaqlayınca ayağım altda.
Yağış yağacaq,
saçlarımın
qarasını yuyunca.
Dünyada
məhəbbət əlindən ağlayanlar olunca
Yağış yağacaq.

* * *

Çılğın baxışların dönərdi oda,
Üzümə baxardın, mən qaynayardım.
Əgər əmr etsəydin, gözəlim, onda
Dağı dağ üstünə alıb qoyardım.

Əgər çatılsaydı qaşın kamanı,
Kainat xətrinə dəysəydi əgər,
Elə silkələrdim mən asimanı
Ulduzlar tut kimi tökülərdilər.

ÖZÜMLƏ MÜBAHİSƏ

Neyləyirəm yoxmu, varmı o dünya?
Əgər yoxsa, var deməklə
var olarmı o dünya?
Bir də qoca dünyada
Hər bir şeyin tərs üzü var.
Gecələrin gündüzü var,
axşamların səhəri.
Qurd özünü dəfn eləyir

baramanın içində.
Sonra nədir
baramanı deşib çıxan
Kəpənəyin səfəri?
Tutaq ki, heç olmayacaq
Ömrümüzün tərs üzü.
Qurdalaya-qurdalaya
söz etməyək hər sözü.
Heç ölərmi insan adı?
Heç ölərmi insan səsi?
Ölənlərin xatirəsi
Sinəmdəki bir dünyada yaşadı.
Bir də belə lap açığı
"Öldü" demək istəmirəm,
"Getdi" demək yaxşıdır.

QIZLAR DAYANARLAR YOLLAR YANINDA

Bizim kənd yerinə gələndə bahar
qırmızı geyinib qızlar dayanar
yollar yanında.
Lalələrə qarışar,
alışar, yanar
yollar yanında.
Hər gələn maşınla min ümid gələr,
Hər gedən maşınla min arzu gedər,
yolyanı kəndlərdə səhənglər qədər
qızlar dayanarlar yollar yanında.

Oğrun baxışları qonar maşına,
gəlin maşınını demirəm hələ.
Ay gəlin,
sağ əlin
olsun başına,
subay qızların.

Bizim kənd yerinə gələndə bahar
geyinib əyninə məhəbbətini,
əyilib bulaqda axıdar onlar
qara gözlərinin şikayətini.
Ayna bulaqlara əyilər onlar
Saçın tumarlayar, qaşın düzəldər;
gözəl kölgələri çöllərə axar,
odur ki, bu yerdə güllər gözəldir.

Qızlar dayanarlar yollar yanında,
Bir kəndin bəzəyi, bir el qeyrəti
görəndə adamın tutulur dili.

Yollara çəkəndə qaranlıq pərdə
qızlar qayıdarlar mənzillərinə,
Qızlar işıq olar pəncərələrdə.
yollar yuxulardan gəlib keçərlər.
Qızlar yuxularda ağ maşınlarla
uzaq şəhərlərə gəlin köçərlər...

Səhər dağ başında gün oyananda
geyinib əyninə məhəbbətini
qızlar dayanarlar yollar yanında.

YOL VERİN!

Yol verin, yana durun,
hamilə qadın gedir.
Bir az o yana durun,
hamilə qadın gedir.
Ayağının altında
yumşaq olun, a daşlar,
Köntöy söz danışmayın
ay bacılar, qardaşlar,
hamilə qadın gedir.
Əgər dərdin, sərin var

Mənzilində gizlə, çıx,
yola gülər üzlə çıx!
Qəzəbini, kinini
gizlə ayıbın kimi,
yola şirin sözlə çıx,
hamilə qadın gedir.
Dodaqlar boyanmasın
Qara giley-güzara,
Həyatı dəllal kimi
siz çəkməyin bazara,
dünyanı, sizi, bizi
hələ görməyən var, ha?!
Onu dünyaya çəkən
bu sudur, bu torpaqdır.
Taleyi, adı, baxtı,
onun çiçək payı da,
onun işıq payı da,
hələ doğulacaqdır.
Yol verin, yana durun
hamilə qadın gedir.
Bir az o yana durun
hamilə qadın gedir.
Onun qaşı çatılsa
Tutular göyün üzü,
Onun bircə naləsi
dağıdar evimizi,
siz allah gülümsəyin,
gülümsər görsün bizi,
hamımızın tanışı,
hamımızın əzizi
hamilə qadın gedir.
Bir layladır, beşikdir
yeridikcə yürünür.
Çiyinlərində tale,
üzündə, gözündə nur,
hamilə qadın gedir.
Sevdiyim qız, yana dur,
hamilə qadın gedir.

DÜNYA MƏNƏ TANIŞ GƏLİR

Məni qınamayın,
Dünya mənə tanış gəlir,
Elə bil bir dəfə
olmuşam buralarda.
Onda da belə dəniz vardı,
sahil vardı.
Min il, yüz min il,
nə bilim
nə qədər əvvəl olardı.
Onda da balıqlar suda,
quşlar səmada yaşayırdı,
Onda da insan ömrünə
lap körpəlikdən
başlayırdı.
Çoxdan gördüyüm
qarışıq bir yuxu kimi
yadıma düşdü.
Bir balığı səmaya tullamışdım ki,
qanadın var, uç!
Ölmüşdü.
Bir quşu suya basmışdım ki,
qanadın var, üz!
Ölmüşdü.
Kim hava ilə suyu
onların arasında ölüm
sərhədiylə bölmüşdü...
Onda bilmirdim,
İndi də bilmirəm,
Nə də bilmək istəyirəm.
İşdən indicə gəlmişəm
Oturmuşam, balıq yeyirəm.

SABAH BAYRAMDIR

Sabah bayramdır.
Bu gündən qara qayd alıb canımı,
bu gündən çəkiblər
sabahın əncamını.
Alınan alınıb,
düzələn düzəlib.
Stollar açılıb,
stullar düzülüb.
Ortada şirnilər,
şərbətlər,
meyvələr,
çiçəklər təzə-tər.
Kənarda
qədəhlər,
qədəhlər,
qədəhlər.
Sabah bayramdı,
mən isə tək qalmaq istəyirəm.
Bir qara səhratək kar olmaq,
bir qara daş kimi
təklikdən qaralmaq istəyirəm.
Sabah şirin zarafatlar,
baxışlar, eyhamlar, gülüşlər...
Açılmış ağızlar
qırmanmış dodaqlar
dişlər,
dişlər,
dişlər...
Sabah bayramdı,
mən də tək qalmaq istəyirəm.
Belə-belə işlər...

* * *

Ölülər qorxmur
Nə vəzifəsinin enməyindən,
Nə də vəzifəlilərin
ondan üzü dönməyindən.
Nə "dost" kələyindən,
Nə də solaxay Bakı küləyindən.
Pah atonnan!
Biz də ölürükmüş
aldığımız hər nəfəslə,
aldığımız hər addımla,
zərrə-zərrə,
damla-damla,
xırda-xırda.
Təntiyib eləməyin,
bir az da dözün
Hamımız dincələcəyik
axırda!

* * *

Bu da belə bir nağıldı.
Taxtadan adam yondum,
adını qoydum Ağıllı;
geyindirdim şux.
Kişilər həsəd apardı,
qızlar, gəlinlər oldu aşiq.
Məclislərdə susdu,
iclaslarda susdu,
toylarda susdu,
yaslarda susdu.
Nə bir dəfə qımzandı,
Nə də əhvalı pozuldu.
Susduqca da hörmət qazandı –
Axı deyiblər:

"Susmaq qızıldı".
Axırda vurub özüm sındırdım.
Dedilər: "Ağıllıların düşmənidi".
Nağıl burda qurtardı.
Nağıl dəbinə görə gərək
Göydən üç alma düşəydi
Biri də düşmədi.

* * *

Dodaqların Füzulinin
iki şirin misrasıdı.
Özün tap oxu,
hansıdı.
Gözlərin yazılmayıb hələ,
nazın çəkilməyib hələ.
Eh...
işimiz varmış indən belə.

* * *

Məni oda tullasalar,
Od olaram, yaşaram.
Məni suya tullasalar,
balıq olub üzərəm.
Məni didərgin salsalar
dağlar-düzlər aşaram.
Küləklərə qoşularam
bu dünyanı gəzərəm.
Məni yerə basdırsalar,
Cücərərəm lalətək,
Öz rəngimlə bu dünyaya
boylanaram, gülərəm.
Mənə məhəl qoymasalar,
Yaşamaram, ölərəm!

YATMAĞA QORXURAM

Yuxum gözümdən tökülür
yatmaq istəmirəm.
Səhər üzündə
gecə ölür
yatmaq istəmirəm.
Bilirəm, yatsam,
yenə yuxuma girəcəksən
gözlərində yaş,
Yaxınlaşacaqsan
yavaş-yavaş.
Uşaq oyuncaq istəyən kimi
Mən səni istəyirəm, –
deyib hönkürəcəksən,
Yuxunu da mənə çox görəcəksən.
Təki mən oyuncaq olaydım –
Nə sən göz yaşları tökəydin,
Nə də mən bu əzabları çəkəydim.

YAŞ O YAŞ DEYİL Kİ...

Sən mənim ən əziz sirrim, istəyim,
Sən mənim ən acı həqiqətimsən.
İtmiş gəncliyimdən soraq gətirən,
Sən mənim ikinci məhəbbətimsən.

Yaş o yaş deyil ki, yolunu kəsim,
Yaş o yaş deyil ki, açım qəlbimi.
Təzədən başlayım barışım, küsüm
On yeddi yaşında cavanlar kimi.

Yaş o yaş deyil ki, səni izləyim,
Özümü odlara toxuyum yenə.
Durub saatlarla vədə gözləyim,
Görənlər, bilənlər nə deyər mənə.

Səni hər görəndə çaşıram düzü,
Hamı mənə baxıb gülür elə bil.
Dilimi dişləyib demirəm sözü,
Yaş o yaş deyil ki... hayıf ki, deyil.

İKİNCİ GÖRÜŞ

Oturduq yanaşı, susduq yanaşı,
Dən düşmüş saçına baxdım arada.
Sən də mənə dedin ağarır başın,
Görməyə nə var ki, ağı qarada.

Gecikmiş məhəbbət son bahar kimi,
Həm kədərli olur, həm də ki, şirin.
Anamın çaldığı laylalar kimi,
Arzuyla doludur ala gözlərin.

Qalmışıq biz odla su arasında,
Gənclik məhəbbəti, müdriklik yaşı.
Ömrün bu qəribə macərasında,
Oturduq yanaşı, susduq yanaşı.

Birdən fikrimizi elə bil gördük,
Qəmli gülümsündük bir-birimizə.
Elə bil bununla açıq deyirdik, –
Bu yaşda məhəbbət yaraşmır bizə.
Ürək necə olub unudub yaşı...
Oturduq yanaşı, susduq yanaşı.

* * *

Vaxtında gəlirsən görüşə hər gün,
Deyirəm: – Necəsən?
– Niyə, yaxşıyam.
Sədəf ulduzlarla göy düyün-düyün,

Başımız üstündən asılır axşam.
Külək də son qoyur dəcəl oyuna,
Sahilə yıxılır yorğun dalğalar.
Mərmər hovuzların sərin qoynuna
Söyüd budağından sallanır bahar.
Vaxtında gəlirsən görüşə hər gün,
"Vaxtında?"
vaxtında görüşsəydik biz,
İndi yollanmazdıq səssiz-səmirsiz
İtən cavanlığı axtarmaq üçün.

DÜNYADA XOŞBƏXTLİK YAŞAYIR

Dünyada xoşbəxtlik gəzir, dolanır,
Döyür qapıları, evlərə girir.
Qonur yanaqlara, gözlərdə yanır,
Hardasa bir qızın saçını hörür.
Xoşbəxtlik yaşayır bu yer üzündə,
Baharda çöllərə xoşbəxtlik yağır,
Xoşbəxtlik yaşadır güllər özündə,
Uşaqlar çöllərdən xoşbəxtlik yığır.
Xoşbəxtlik baxmayır fəsilə, vaxta,
Qışda qara dönər, ələnər, yaşar.
Bir evə körpəylə gələr qucaqda,
Bir əlcə qundaqda bələnər, yaşar.
Dünyada xoşbəxtlik yaşayır, bəli,
Qonşuluq eləyir kədərlə, qəmlə,
Bəlkə də hamıya çatmayır əli.
Xoşbəxt olmağa da tələsmirəm mən,
Nə bilim, bəlkə də o, bilə-bilə
Xoşbəxt eləməyir hamını birdən.

* * *

Təki ürəyimdə bayramım olsun
Ruhum havalanar qarda, yağışda.
Təki ürəyimdə bayramım olsun
Bahara çevrilər, payız da, qış da.
Günəşi nar kimi alıb sıxaram
Doğma torpağımın, daşımın üstə.
Gecə ürəyimi alıb sinəmdən
Məşəl tək tutaram başımın üstə,
Təki ürəyimdə bayramım olsun
Göylərə baxaram gözümdə bayram,
Ağ çiçəyə dönər buludlarda qar.
Çılpaq ağaclara elə baxaram
Ağaclar bir anda yarpaqlayarlar –
Təki ürəyimdə bayramım olsun.

OĞLUMA LAYLA ÇALIRAM

Gecələr günəş kimi yatan,
Gündüzlər ay kimi xumar,
ömrüm-günüm,
qəşəngim,
Hələ nə adın,
nə də taleyin var.
Hələ süd rəngli
yuxular içində üzürsən.
Gah üzünə yuxu kimi isti
bir təbəssüm qonur,
Gah da dodaqlarını
büzürsən.
Dünyadan xəbərin yox,
Bilmirsən –
Havalar olur gah isti,
gah da soyuq.

Bilmirsən –
Ölümün də sənlə
əkiz gəlib cahana.
Qoşa böyüyürsünüz
Bir beşikdə
yan-yana.
Sən də böyüyürsən,
sevincin də, dərdin də,
Neçə dostun
böyüyür hər tində...
Bax, oğlum, sənə
Verdiyim hədiyyədir –
Qıçlarını yorası yollar, küçələr.
Gözlərinin nurunu oğurlayası
yığın-yığın
yuxusuz gecələr.
Saçlarını ağardası – gündüzlər.
Əllərinə qabar salası – çöllər,
düzlər...
Çöldə – yağış,
Otaq – isti.
Çöl tərəfdən pəncərəmizin
şüşəsi ağlayır...
Çöldə səni gözləyir
qəhrəmanlığın,
təbiətlə vuruşlar.
Səni döyüş meydanlarında,
küləklər gözləyir.
Çöldə çiçəklər, göydə quşlar.
Hələ yat, gücün artsın,
bala, yat,
Süd rəngli bir yuxuya
bənzəmir həyat!

QATAR

Qaçır qatar,
Uçur qatar,
Taraq-taraq,
Düşür qalır
Polad izi.
Yollar ilə
daraq-daraq
yerin üzü.
Qaçır qatar,
Uçur qatar
Elə bil ki,
Uçur külək.
Bir şəhər insan dənizi
Atıb onu
Sahilindən
bir dalğatək.
Qaçır,
Uçur
Vaqon-vaqon
Ürək,
Arzu,
Ümid,
Nicat.
Qatara çat,
Qatarı tut,
Qatarı qoyma
qaçmağa.
Elə yeri,
Qalma geri.
Qoy qatar olsun
başmağın.
Qaçır qatar,
Uçur qatar
Bu nəğməni
çarxlar çalır:

"Mən zamanam,
çatın mənə,
Tutun məni...
Çatan çatır!
Qalan qalır!"

TƏYYARƏDƏ

Buludlar üstündə biz,
buludlar altında yer...
Fikrimdən neçə misra
buludlara səpilir.
Bu axşam şimşək çaxar,
çöllərə yağar şeir,
Sözlərim damcı-damcı
hara düşər, kim bilir...
Sözlərim damcı-damcı
yağacaqdır torpağa
Neçə-neçə eyvana,
neçə bağçaya, bağa.
Baxışlara yağacaq,
kirpiklərə düşəcək,
Azərbaycan şerində
çiməcək min-min çiçək.
Keçirəm diyarları
Ürəyimdə vətənim
şirin bir nəğmə kimi.
Sibirin üfüqlərinə
yağdırıram fikrimi.
Eşidirsənmi: – Tayqa,
Anqara, qulaq as bir,
Ürəyimdə göyləri
gəzməyə çıxıbdır Kür.
Araz da mənimlədir,
nənəmin arzusu da,
Gözlərim də Xəzərdən
ikicə damla sudur.

Buludlar üstündə biz,
buludlar altında yer...
Səhər şair ürəkli
bir rus baxıb şəhlərə
Deyəcək: yarpaqlara
şcir yağıbdır, şeir.

RÜŞVƏTXORLAR

Hardasa iki namərd
oturub üz-üzə indi;
Biri rüşvət alandı,
biri rüşvət verəndi.
İlan kimi qıvrılıb
xəyanət yatır
pullar altında.
Onlar qeyrət satıb,
vətən satıb
pullar altında;
Bəlkə düşünüblər vətən nədir –
Bir az qara torpaqdı,
bir az da sudur.
Cahil, vətən – Koroğlu qeyrətidi,
Həcər namusudur.
Rüşvətxora hər cür rüşvət gərəkdi.
Rüşvət də rəng-rəngdi.
Böyüklər qarşısında
əyilib-düzəlmək
rüşvəti var.
Yaltaqlığı da rüşvət alan olur,
Rüşvət həqiqətə bənzər
yalan olur,
Rüşvət puluna
uşağına "Əlifba" kitabı alan olur
Rüşvət – xəyanət ocağıdır,
Rüşvət – kürəyimizə sancılan xain
bıçağıdır.

Elə bu rüşvətxorlar idi
Babəki qızıla satanlar –
Yadların ayağına atanlar.
Onlar Gəncədə Məhsətimi
daşqalaq elədi,
Susduq ki, neyləyək, taleyi belədi.
Bakıda Sabiri qoçular söydürdülər,
Fitva verib
Hələbdə Nəsimini soydurdular.
İndi də qaranlıq bir evdə, tində,
dalanda
Onlar rüşvət verəndə, rüşvət alanda
Yenə biz oluruq müqəssir.
Babək yenidən düşür əsir,
Məhsəti təzədən daşqalaq olur.
Nəsimi təzədən soyulur.
Axtarın!
Hardasa iki namərd oturub
üz-üzə indi;
Biri rüşvət alandı,
biri də rüşvət verəndi.

QURU ÇİNARIN NƏĞMƏSİ

Çinar ömrü yaşamışam,
Quru bir çinaram mən.
Əyilməkdən keçib daha –
Əysəniz sınaram mən.
Qəddim bir az bükülübdü,
Yarpaqlarım tökülübdü,
Nə şirin nəğməliyəm,
Heç çinar da deyiləm mən,
Bir çinar heykəliyəm.
Dik dayanmış bir odunam
Ağacların sırasında.
Bir leylək yuva tikib
Qollarım arasında.

Mən bir ağac ölüsüyəm
Gərək yıxılam, yanam.
Amma leylək yuvası var
Qollarımın üstündə,
Yuva dağılmasın deyə
Gərək dözəm, dayanam.

* * *

Titrəmək yaraşmır insan səsinə
Zəfərlə yaşayaq, zəfərlə ölək.
Mənim məzarım da yer kürəsinə,
Düşəcək bir nida işarəsi tək.

Namərdəm məsləksiz gözlərim gülsə,
Düşmənəm acizin fəryad səsinə.
Məsləkim uğrunda bina tikilsə
Qoy məni hörsünlər bünövrəsinə.

YALANÇI MƏHƏMMƏD

Bir Məhəmməd kişi vardı,
Ömrü boyu
yalan danışardı.
Ağır xəstəyə deyərdi ki,
ch... küyçü olma,
Səndə heç nə yoxdu!
Birinə
pay versəydi,
deyərdi qoyun deyil,
toyuqdur.
Hər axşam deyərdi:
səhər günəş
başqa cür doğacaq –
Təzə, parlaq.
Malı itənə

deyərdi: "tapılacaq",
Oğlu davaya gedənə
deyərdi: "qayıdacaq!"
Elə ürəklə deyərdi ki,
Sözünə özü də inanardı,
Qəribə xəsiyyəti vardı.
Bir vaxt mənə:
adamlar ölmür,
ulduzlar arasına
köçür demişdi,
Məhəmməd kişinin
özü də köçdü.
İndi də kefim pozulanda
Çəkilirəm bir yana
Baxıram asimana:
ulduzlar çiçək-çiçək.
Ulduzlar arasından
Məhəmməd kişinin
səsini eşidirəm:
– Darıxma, düzələcək,
tapılacaq,
gələcək.
Yaxşı ki, ölmürmüş insanlar,
Yaxşı ki, dünyada
Məhəmməd kişi varmış.

MƏN QANIM, YA QANMAYIM

Qansam əgər bəlkə başım daşdan-daşa dəyəcək,
Qanmaz olsam, dərd çəkmərəm, bunu gərək danmayım –
Bu da var ki, onda məndən çiçəklər inciyəcək
İndi düzü mat qalmışam, mən qanım, ya qanmayım.

Qansam gərək həmdəm olam hər tanışa, hər yada
Necə qanım, nadanların halına mən yanmayım.
Mən qanmasam, bir qanmaz da artacaqdır dünyada,
İndi düzü mat qalmışam, mən qanım, ya qanmayım.

ƏRKƏC

Sallaqxanada bir ərkəc vardı,
Ələ öyrəşmişdi;
Yediyi kişmişdi.
Dağ kəli kimi
Buynuzları buruq-buruq,
Özü də buruq,
Zatıqırıq
bir ərkəc vardı.
Sallaqxanada tilsimli bir dünya idi
sağ qalan qoyunlar üçün.
Neçə qoyun sürüsü girərdi
ora hər gün.
Dəstə çəkəndə həmin ərkəc,
Sürü qayıtmazdı, ərkəc qayıdardı.
Deyərdi:
təzə yol öyrənmişəm,
Bu dəfə dağ yamacına
çıxdıq bəlkə.
"Bəlkə" də bir zərrə ümid.
"Bəlkə" altında ləkə,
üstündə ləkə.
"Bəlkə"nin əvvəlində buynuzuna,
görkəminə sürü inandığı
ərkəc.
Sürünü çəkdi sallaqxanaya
Qoyunlar elə bildi ki,
birinci həlak oldu buruq.
Sürü mələşdi:
Ərkəc tək deyil, arxasında biz varıq.
Qoyunlar nə qorxdu,
nə də qayıdıb qaçdı,
Ərkəc xəlvət qapıdan qaçıb
Sürüyə görə
bir ovuc kişmiş almışdı.

UZAQ ŞƏRQİN ÜFÜQLƏRİNDƏ CAVİDİ XATIRLADIM

Təyyarədəyəm, göyləri fəth etmədə sürət,
Çərxi-fələyin sürətini ötmədə sürət.
Yay idimi, yer ox kimi atdı bizi ərşə,
Qaçqın günəşə çatmağa yerdən üzü ərşə.
Cavid, göy üfüqlərdə çimməndə səni andım.
Yandım, yenə yandım.
Karvanını çəkmiş yenə səyyarə buludlar,
Ahındımı, arzundumu onlar,
Nəğməndimi qu nəğməsi, son nəğmən, əzizim.
Neyləyim mən, əzizim?
Həsrətli baxışlarını allam bu səmadan;
Bəlkə o baxışdan qalan izdir qızaran dan.
Sakit okean bir tərəfindirsə, a şair,
Bir yanda da qəlbin kimi çılğın Xəzərindir.
Tayqa məzarındır.
Ruhundumu, könlündümü vulkan?!
Nəğməndimi qu nəğməsi, son nəğmən, əzizim.
Neyləyim mən, əzizim?

QRANİT QAYALARDA

Dağlar göylərlə daban-dabana
Ayaqyalın küləklər zirvələrdə
"Qovma-qaç" oynayır.
Günəşin telləri zirvədə sınır,
Qızıl qırıntısı tək ələnir
dərənin qaranlığına.
Qayalarda zaman izi
qarış-qarış, çopur-çopur,
Çovğun qamçılayanda, hər qayadan
min nalə qopur.
Qranit qayalarda haray salır

İnsan gözləri, insan baxışları,
insan əlləri.
Qranit qayalarda əsirdir –
Naməlum qəhrəmanların
hələ yonulmamış heykəlləri.

YAZIQ ADAM YOXDUR!

Vurun,
çalın-çapın,
talayın.
Vurun, çalın-çarpaz
dağlayın.
Dinmədikcə döyün,
Çırpınmadıqca, döyünmədikcə
döyün.
Susdururamsa ürəyimi
Sinəmin zindanından
çıxart.
Onu bir bahar günəşi kimi
təbiətin qoynuna at.
Qollarımı qaldırmağa
qorxuramsa,
Qollarımı bur,
qır.
Eşidim qırılan
sümüklərimin səsini.
Mən yerin üstündə
insan kimi yaşamağı
bacarmıramsa,
Çiynimə yüklə Yer kürəsini.
O qədər döy ki,
Hirslənim, qışqırım, vuruşum –
Silkələnsin huşum,
Yazıqlıq dolu gözlərim
dönüb olsun qurğuşun;

O qədər döy ki,
dözməkdən yorulum,
yoğrulum.
Ya qılınc olum,
ya da qum.
Sığallayıb başını,
silib gözünün yaşını
Yazıq günə qoymayın
yazıqları
Döyün, döyün onları
əl qaldırsınlar deyə.
Hər yazığın içində
bir qəhrəman yatıb,
Oyadın o qəhrəmanı
döyə-döyə.

BİLDİRƏCƏK

Hər kəsin öz zatı – qanı,
Ha qalayla mis qazanı
Üzə çıxır bir gün paxır.
Zatıqırıq əvvəl, axır
Öz əslini bildirəcək.

Düzəltmək olmur insanı
Namərdi sən ha tut dilə.
Götür lap qızıla bələ
Girəvə düşəndə ələ
Özünü yana verəcək.

Adamını əvvəl tanı,
Ha qorusan ağlı azı,
Nə qədər çəkilsə nazı,
Bir gün açılacaq ağzı
Eli sənə güldürəcək.

Dost etmək olmur düşmənı
Cəvahir ver kisə-kisə
Götürəcək küsə-küsə,
Əlinə bir silah keçsə
ya ölər, ya öldürəcək.

XƏBƏRÇİ

Ağır işdir işi,
Xəbər daşıyır
iki ev arasında...
İki dost arasında yaşayır.
Qulağı həmişə şəklənmiş olur,
Hər söhbətə qəmiş olur.
Pəncəsi üstədir
gəlişi-gedişi
Əvvəllər bu arvad sənətiydi.
İndi verib bu sənətə özünü
bir neçə kişi.
Həmişə qulağı qapı dalındadı,
qıyılmış gözləri
açar deşiyində.
Böyükləri hamamda da pusur,
Körpələri pusur beşiyində.
Səs bir səsə bənzədimi,
söz bir sözə bənzədimi,
köhnədimi, təzədimi
fərqi yoxdu.
Cəfa basıb canına
çatdıracaq öz ünvanına.
Bəzən "sağ ol" alır,
bəzən söyülür, döyülür.
Olur ki, lap biri
qapı dalında ölür.
Nə olsun, sənətdir!
Hər sənətin

öz ölümü, itimi olur.
Hər sənətin ərköyünü,
adamlısı, yetimi olur.
Bu da "sənətdi"
Kişilər canına cəfa basır,
daşın da üroyinə qulaq asır.
Öz evində kişi olsa da adı
ya paçanın arasında,
ya da qoltuğundadı.
Xörəyinə qarışıb
boğazından ötür.
Tükə dönür
qulağının dibində bitir.
Axırı ki, mətləbinə yetir.
Əkir odavəti,
vurur aranı.
Həmişə kimisə axtarır
heç görmədim onu axtaranı.

DİKTOR

Diktordu səsi ilə,
yemləyir balasını,
Səsi ilə bəsləyir
səs puluna aldığı
Tüfəngi, tulasını.
Yazılanı oxuyur,
Gördüyünü şərh edir.
Bu kişinin dilində
yalan nədir, şər nədir.
İşi çox ağır işdi,
özü də azarkeşdi
Bizimkilər hər dəfə
futbolda uduzanda,
boksda döyüləndə,

güləşdə yıxılanda
yazığın babası yandı.
Bundan ağır dərd olar
rəqib qələbəsini
özün elan edəsən.
Özün də bir kişisən,
uşaqlara dədəsən –
evə necə gedəsən?
Heç vaxt heç kəs bilmir ki
biz uduzan günlərdə
nələr çəkirsə diktor
gecə səhərə kimi
diktora dərman,
diktora doktor...

LEYLİ MƏCNUN RASTLAŞDI

Mən Məcnunam, sən Leylisən,
Məndən bir az gileylisən,
Sən brilyant meyllisən,
Mən maaşla yaşayıram.

Danışıb vermirsən aman,
Söhbətimiz tutur yaman,
Sən "maşın al" deyən zaman
Mən başımı qaşıyıram.

Dilin açır səni hər an
Dayan gülüm, daha dayan!
Mən səni heç almamışdan
Tanımışam, boşayıram.

BAĞIŞLANMAZ

Qadına bağışlanmaz
vüqarsız olmaq,
arsız olmaq.
Onda oğul doğmasın barı,
neyləyir artırıb
dünyada yaltaqları.
Qadına yaraşmaz yalan,
çətin kişi olar
yalançı qadından olan.
Qadın günahı
ağır olur, ağır,
ondan qan iyi gəlir,
bəla yağır.
Qadına bağışlayırlar
iki günahı
bir çox qanmağı,
bir də ərinə inanmağı.

BİR ƏLİ VARDI

Ömrünü qolları üstə götürdü, apardı,
İşıqlı qara gözlərində
uzaq yolların həsrəti getdi.
Arıq əllərinin qırışlarında
oğullarının həsrəti getdi.
Bir Əli vardı
döndü oldu üç.
Paşa, Azər, Orxan.
İndi üç səmtə uç,
uç Əli.
(mənə fikir verməyin,
Özümə təsəlli verirəm,
təsəlli)

Bir Əli vardı...
Dolu çiyinlərində
ömrü yöndəmsiz yük idi,
fikri özündən ağır idi,
şairliyi özündən böyük idi.
İşlə evin arasında
keçirdi həyatı.
Xəyalında tez-tez
sahmana salardı kainatı.
Bircə dəfə büdrədi atı,
sındı qanadı.
Yıxıldı Göyçaya
üstündə qızılgüllər qanadı.
Bir Əli vardı...
Gözündə həmişə
dosta təsəlli vardı.
Dost əli sıxmağa
Möhkəm əli vardı.
O vaxt inanmadım ölümünə,
inanmıram yenə.
Ölüm oynatmasın atını,
çəkib doluyaram qoluma
torpağın üst qatını
üstü açıq qoyaram
o dünyanın həyatını.
Ürəyim elə yandı
bunu da əsəbiləşib dedim
eləyə bilmərəm,
yalandı.
Bir Əli vardı...
Onu ölüm əlimizdən
çox tez alıb.
Yaşadığım bu dünya
dostumun yazmadığı mövzulardı
Əlidən qalıb.

QOCA ƏRƏBİN ŞƏHƏR NAMAZINDA DUASI

Yarəb, düşmənimin
canını sağ elə,
onu xətadan-bəladan
uzaq elə.
Yarəb, düşmənimi alçaltma
alçaqdan düşmən olmaz adama.
Düşmənimi mən yıxınca, yıxma.
Mən qisasımı alınca
onu öldürmə.
Mənə aləmi güldürmə.
Öldürmə düşmənimi, yarəb!
Qisasım yerdə qalar,
yanıb tökülərəm,
çərrəyib ölərəm.

NAZİM HİKMƏTƏ

Vətənindən didərgin,
sarışın,
qaragün,
Mavigözlü bir div vardı.
Xəyalında bir ev vardı –
evdə Məhməd.
Mavi gözün bəbəyində
Məhməd adlı bir dərd vardı.
Ağlamağa qorxurdu ki,
Məhməd düşər bəbəyindən.
Onu qadın doğmamışdı –
– doğulmuşdu
Türkiyənin göbəyindən.

PAYIZ

Durna köçdü, lələk saldı,
Vida nəğməsini çaldı.
Yarpaqlar saraldı qaldı
Köçən nəğməli quşlardan.

Bağçalarda gül üşüyür,
Ağzımızda dil üşüyür,
Tənha qalıb göl üşüyür
Soyuq-soyuq yağışlardan.

Çöllər unudur gördüyün,
Yağış yuyur, qurudur gün.
Ağaclar yuyunur bu gün
Milyon-milyon baxışlardan.

Budaqlar baş əyib bara,
Nar içi sığmayıb nara,
Evə qayıdır mal-qara
Enişlərdən, yoxuşlardan.

Bir fəsilsən sən hər gündə,
Payız paltarı əynində,
Payız yoxsa ürəyində
Gözlərində yağış hardan.

BEZMƏ GƏL

Aralı gəzmə, gəzmə, gəl!
Özünü üzmə, üzmə, gəl!
Özün fikirləş bir görək
Səni kim sevər mənim tək.
Qədrini kim belə bilər.

Əlini üzmə, üzmə, gəl!
Gözlərindən qov bu kini,
Ömrümün imanı-dini!
Mənim tək sənin dərdini
Səninlə kim bölə bilər.

Sən məndən bezmə, bezmə, gəl!
Bu qaş-gözlə sən ki varsan.
Yüz bəh-bəh deyən taparsan,
Məni tapmaq deyil asan
Səninlə kim ölə bilər.

QAYITMAZ

Getdi haraylı günlərim,
Ulduzlu, aylı günlərim.
Dilimdə bir qızın adı,
Getdi o sevdanın odu
Bir də qayıtmaz, qayıtmaz.

Baharlı, yaylı günlərim
Qayıda geriyə dönə.
Cavanlıq düşdü könlümə,
Dəyməz bir ilim bir günə
Ürək yarıtmaz, yarıtmaz.

Başladı ayrı günlərim,
Yanı bu Fikrət odumu?!
Soyuq çəkərlər adımı,
Yığsan canımın odunu
Kirpik qurutmaz, qurutmaz.

ŞEYTAN BALASI

Amandı, Allah, amandı,
gözümdə bəbəyim yandı.
Sən bir qabda odsan, susan
dur get şeytan qurğususan,
var get, a şeytan balası.

Demir yazıqdı, insandı.
Dilin şəkər, dilin ağı,
Gözlərin mənə göz dağı,
adam yoldan çıxartmağı
tərgit, a şeytan balası.

Əylənirsən nə zamandı.
Sən yandırdın imanımı.
Ya üz tamam gümanımı,
ya da gəl al bu canımı
ərk et, a şeytan balası.

Hər vədənin ömrü - andı.
Hər an sən girdin bir dona,
Buz olursan yana-yana,
insan dözə bilməz buna
dərk et, a şeytan balası.

Köynəyin oddu, ya qandı
Sinənin iki mələri
dartınırlar üzü bəri,
qıracaqlar düymələri
bərkit, a şeytan balası.

VURULSUN

Gözlərində yüz cəhənnəm odu var,
Dodağında yüz cənnətin dadı var,
Qəmzəsində yüz cavan fəryadı var,
Bu bəlanı gətirən yol yorulsun!

Bu gözəli görməyən göz kor olar,
Kirpik çalar, qəlbində yüz qor olar,
Yaxın gəlsəm, qoynu mənə gor olar,
Ondan qaçsam ayaqlarım qırılsın.

Bu yoldan heç keçməyəydim keşkə mən,
Tale, necə oldu düşdüm püşkə mən.
Cavanlıqda dözməyirdim eşqə mən
Bu yaşında Fikrət necə vurulsun.

HEYFİNİ AL

Gərək subay vaxtı xəstələnəydim,
Biryolluq tapaydım həkimimi mən.
Ömrümün üstünə gül ələnəydi
Sənin nəfəsindən, sənin əlindən.

Gözüm səni gəzib güllər içində,
Heç ağla gələrmi, düşərmi yada.
Səni axtarmışam ellər içində,
Məni gözləmisən xəstəxanada.

Qəlbimdə göynəyir eşqinin yeri,
Mənə nə söyləsən halaldır, halal.
İlləri qaytara bilmərik geri,
Gəl sən iynəni vur, hayıfını al.

XOŞBƏXTLİK

Əziz ata, əziz ana,
Göndərməyin məni
Göylə yer qovuşana.
Xoşbəxtliyim ordadırsa
yazıq olmuşam, yazıq.
Bu taleyi alnıma kim yazıb? –
Elə yer yoxdur,
heç harda yerlə göy
qovuşmur.
Onların bir-biri üçün
gözü uçmur
Ordan baxanda bura,
burdan baxanda ora
göylə yer qovuşandı;
hamı oranı axtaran,
oranı soruşandı.
Çıxardın ayağımdan
dəmir çarığı,
Çiynimdən götürün heybəni
Xoşbəxtliyimdən
eləməyin məni.
Əziz ana, əziz ata,
Mənim səadətim
ayağımızın altda,
bu torpaqdadır.
Onu qazıb çıxartmağı bacaraq, –
vaxtıdır,
bahar gəlib,
gedək, əkək, biçək,
becərək...

GÜLƏR, QAN AĞLAR

Payız gələr, yarpaq düşər,
göylər qan ağlar, qan ağlar.
Günəş baxar gözüyaşlı
gülər, qan ağlar, qan ağlar.

Taleyin tarix yazanı
qələm çalar dərdim sanı,
ürəyimin ağrısını
bilər, qan ağlar, qan ağlar.

Hicranın bir nalə başlar. –
Qanad salar göydə quşlar.
Durar qara-qara daşlar
gələr, qan ağlar, qan ağlar.

Ürək, sağalarmı yaran,
səni yarın qoydu viran.
Könlüm ona xoş güzaran
Dilər, qan ağlar, qan ağlar.

Payız da gəldi-gedərdi,
il yaz əkdi, payız dərdi.
Ağaclar mənnən bu dərdi
Bölər, qan ağlar, qan ağlar.

İNSAN XASİYYƏTİ

Binalar
qaçıb yığılıb şəhərlərə,
bomboş qalıb
çöl, düz, dağ, dərə.
Binalar qısılıb bir-birinə
məhəllə-məhəllə,

tin-tin, küçə-küçə,
dilim-dilim, qıça-qıça.
Üst-üstə,
yan-yana
ağız-ağıza,
eyvan-eyvana...
Kəndlər koma-koma
yol qırağında tonqal qalayıb,
verib baş-başa evlər
Şəhərə gedən yollara
tamaşa eləyirlər.
İnsan, insan bolluğuna
can atır. –
Gündüz harda olsa dözər,
yatanda
insan qonşuluğunda yatır.
Evlərdə insan xasiyyəti var,
pəncərələr
oxşayır insan gözünə.
Qonşu pəncərə axtarır özünə,
qonşu işıq axtarır baxmağa,
Qonşu bina axtarır,
qoymasın bir-birini darıxmağa.
Pillələr əl-ələ verib
dairə vurur.
Eyvanlar dırmaşıb
bir-birinin çiynində durur,
dünyaya baxır.
Daşlar da bir-birindən
ayrı darıxır.
Daşlara hopmuş
insan xasiyyəti
üzə çıxır.

GİZLƏNPAÇ

Əsl oyundu,
mən yumdum,
sən gizlən.
Mən görməzliyə vururam
sən əzizlən.
Mən yumdum, –
sən oğurla,
mən görmürəm...
Sən keyfin istiyən
kimi böyü, bala
Mən yumdum,
sən işində ol.
Məni təftişində ol
Çal, oyna,
yan, qayna,
eşil, eşələn, ağna,
baxma bozuna, ağına.
Bərk ayaqda
mənə de ki,
sən yum!
Yaxşı, mən yumdum,
mən – sənin əlində mum!
Ey səmum!
Görək sən
nə edəcəksən.
Görək sən
hara gedəcəksən.
Yaxşı, mən yumdum,
Ətəyindən tutub
gedirəm hara çəksən.
Tutaq ki, mən
ərəbi ölmüş dəvəyəm,
sahibsiz evəm...
Apar məni
oğlum, balam, nəvəm.

QOCA AĞACLAR

Yazıq,
yazıq ağacların
qocasına.
İldırım axtarır yana,
külək axtarır sına.
Koğuşunda dovşan yatar,
ot bitər
belə həyat ölümdən betər.
Qabığı
saxlayır onu birtəhər.
Yazıq,
ağacların qocasına yazıq.
Ağac da tapmır
sığına yazıq.
Gözü görə-görə
yanına əkildi
cavan pöhrə –
yeri boş qalmasın deyə.
Məhkumdu ölməyə,
utanır yaşadığına.
Meşəbəyi də
qıymır ona.
İnsan deyil özünü
qayadan ata,
ağacdan asa.
Necə olsun
qurumasa,
yıxılmasa.
Yazıq ağacların qocasına.
İldırım vura yana,
Tufan qopa sına.
Təki ağaclar arasında
şam kimi əriməsin,
qurumasın,
yıxılmasın, çürüməsin.

TUT AĞACI

Ətəyini tut,
silkələyim tut ağacını,
tökülsün tut.
Tökülsün şirin xatirələr,
Tökülsün başımıza
ötən aylar, illər,
ağlar, gülər
uşaqlıq çağlarımız.
Meymun balaları kimi
gəzərdik budaqları biz.
Ağacda yeyərdik,
çayda çimərdik,
evdə süfrə başında
mürgüləyərdik.
Yuxuda da
xar tut yeyərdik doyunca.
qaçardıq,
ayağımızı yerə vurub,
uçardıq
çöllər boyunca
Silkələmə budaqları.
Orda uşaqlar var,
budaqdan yıxılar
balaca Fikrət, Vaqif, Səhət,
Qırılar söhbət.
Yaxşı bax,
tut dəyibsə
budaqlarda
uşaqlar olacaq.

NƏNƏM

Oğul, qız
pərvazlanıb uçdu,
şəhərə köçdü.
Quşlar qayıdır baharda;
doğulduğu yurda
insan qayıtmağı xoşlamır.
Əlacı olanda
heç nəyi qayıdıb
təzədən başlamır.
Nənəm kənddədi,
demirəm yaşıyır,
hələ nəfəsi var nənəmin.
Bir dəstə oğlu, qızı
düzün-düzün nəvəsi var nənəmin.
Məhləyə burulan
cığırı da qaçıb, yox olub.
Doqqazının basdırması
yorulub yıxılıb,
Doqqazında ot
dizə çıxıb.
Nənəmin təkliyi
yaprıxmış çəpərimizə çıxıb, -
ağı deyir.
Nənəmin təkliyi
damını ot basmış,
suvağı qopmuş
ev kimi inildəyir.
Nənəmin canına yatmır
şəhərdəki evlər,
şəhərdəki su,
balalarının şəhərdəki qayğısı.
Gələn kimi azarlayır,
kənd deyib zarıyır.
Kənddə də təklik

Tavandan hörümçək toru
kimi sallanır.
Təklikdən evin işığı
gecə-gündüz yanır.
Təklikdən evin
pilləkəni sınıb.
Bir dəstə oğul-qız anası nənəm
yaşayır kənddə
təkliyə sığınıb.
Səhər – tək,
axşam – tək;
bir gecə
təkliyin qolları üstə
can verəcək...

ÖMRÜN İLLƏRİ

Dünyada sevincdən bol
Olsa, gün işığı olardı.
Sevinc hər yerdə vardı.
Əlimə sapand keçməyi,
qarmağıma
balaca balıq düşməyi,
səhərin açılmağı,
gülün rəngi,
nənəmin kəməri,
babamın tüfəngi vardı;
Günəş, gül
şəlalə, duman, çən...
bir sözlə,
başıma sevinc yağırdı göydən.
İllər ötüşdü,
güzarım toylara düşdü.
Hər yaz,
hər payız toy.

Elədi bizim də
tayımız toy,
dəyişdik danışığı, yerişi.
Olduq toylarda
bəyin soldişi.
Uşaqlıq bizdən qaçdı,
şit zarafatlar yığışdı.
Sevgi məktubu idi
bütün məktublar,
kağızlar.
Dünyada yalnız toy vardı,
bir də toyu olası
oğlanlar, qızlar...
Keçdi illər...
Ömrümdə neçə dəfə
açıldı güllər,
soldu güllər,
başladı payızın soyuq hökmü.
Nazim demiş
"Başladı nəslimizin
yarpaq tökümü".
Hər adna
rəhmət oxuyuruq
neçə tanışa, dostun adına.
Get-gedə bəd xəbər
tez-tez çalır zəngimizi.
Öyrəşmişik,
adamın bərkiyir üzü.
Yas yeri nə qədər olarmış,
dünyada nə qədər ölən varmış...
Uşaqlıqda sevinc olan qədər!
Cavanlıqda toy olan qədər!
Qocalıqda ölən qədər...
Yaxşı ki, dünyada çox
doğulur körpələr.

YAŞA HƏYAT

Fırlanmasa
yer kürəsi,
onu toz basar.
Fırlanmasa,
ulduzların səsinə
necə qulaq asar?
Yer kürəsi
fırlanmasa
axmazdı sular.
Yer kürəsi
fırlanmasa,
dirilib, çiynimizdən
uçmazdı arzular.
Yer kürəsi
fırlanmasa
dənizlər – dalğasız,
insan – nəfəssiz,
külək – səssiz...
Yer kürəsi
fırlanmasa,
belə tez
yayılardımı söz?
Yayılardımı: Həvvanı sevir Adəm.
Doğulacaq
adam balası adam.
Məhəbbətin gücündən
Adəmin başına dolanıb
yer kürəsi.
Yer kürəsi fırlanmasa,
aləmə yayılardımı
bir dənə buğdanın səsi.
Təzə xəbər eşitmək üçün
dirilib cana gəlib həyat.
Indi dilə tutmayın ki,
qayıt, yat!

Xeyri yoxdu,
nə qədər ki,
yer fırlanır
dünənki günündən qaçır,
Günəş gözünü
yumur, açır,
Su axır,
külək uçur, –
həyat olacaq,
səsi də yayılacaq.

ADİ İNSAN

Bir içimlik su deyiləm, içiləm:
bir aşırım yol deyiləm,
birnəfəsə keçiləm.
Düzdü, adi insanam,
sənin boyda deyiləm ki, kiçiləm.
Adi insan olmaq özü
böyüklükdür, qardaşım.
Bu adı daşımaq özü
bir insan ömrü üçün
böyük yükdür, qardaşım.
Öz ailəm var,
öz uşağım,
öz çörəyim, həyatım.
Öz nəslim,
öz ocağım,
öz adım.
Yaxşı qonşum,
pis qonşum var.
Dostum var, düşmənim var!
(Siyasətə düz gəlsə də, gəlməsə də.)
Mənim var!
Mən ki adi bir insanam,
nə kiçiyəm, nə böyük.

Adi insan olmaq özü,
ağır yükdü, ağır yük.

Dosta açıq öz qapım var,
dosta açıq ürəyim.
Dostlar üçün süfrəmdədir
həmişə
duz-çörəyim.
Mən ölümlə
kişi kimi
görüşməyə hazıram.
Bacardıqca vuruşmağa,
güləşməyə hazıram.
Amma onu zərrə-zərrə,
gilə-gilə
qarşılaya bilmərəm.
Mən düşməni gülə-gülə
qarşılaya bilmərəm.
Mən diplomat deyiləm ki,
adi insanam, adi.
Böyük işdir mən qorusam
axıracan bu adı.

YAĞIŞ

Axşamdan bəri yağış yağır.
İslanıb sinəmdə ürəyim,
ürəyimdə sözlərim.
Yuyulub
kədərsiz, sevincsiz qalıb
gözlərim.
Pəncərəmizin şüşəsi kimi
açıq, soyuq,
"Yox"u yox, "hə"si yox.
Küçələr ölü balıq kimi
işıldayır.

Dünəndən mələkələr
Məscidlərin günbəzini yuyur.
Axşamdan yağış yağır,
islanıb nənəmin
sandığında gəlinlik paltarı.
Bu yağışda
yuyulub qurtarıb qarı.
Yağışdan gülüşlər
islanıb, soyuyub.
Yağış, dodaqlardan
sözləri yuyub.
Bir yandan da
qapılar taybatay.
Yağış az imiş,
bir yandan da dünəndən nənəm zarıyır,
bala vay, bala vay!

ÜRƏYİMİN HEYRƏTİ

Ürəyim
bomboş boşalıb
sinəmdən
asıla qalıb. –
Uşaqlar
atıb getmiş
yelləncəkdi elə bil.
Heç mənim də deyil,
arzuları
düşüb pərən-pərən,
nəğmələri
uçub diyar-diyar.
Saçlarımda
dən,
baxışımda
qar...
Nə dodağını dişləmir,

nə də qoparmır
haray.
Qapıları
taybatay,
içində yel vurur,
yelkənlər oynayır.
Nə çığırmır,
nə də yanından
qovmayır.
Qalıb bu dünyaya
baxa-baxa.
Ürəyim görmək istəmir daha.
görmək istəmir
nə yalanı,
nə də həqiqəti,
ürəyimin qurtarıb heyrəti...

QALİB

Sinəmdəki neçə dağım,
öz içimdə qaynamağım,
hərdən odla oynamağım
atəşpərəstlikdən qalıb.

Dodağında alov izi,
qara saçı, yanar üzü,
göz yanığı – qara gözü
atəşpərəstlikdən qalıb.

Ürəyimin darıxmağı,
gözümdə şimşək çaxmağı,
torpağımdan od çıxmağı
atəşpərəstlikdən qalıb.

"Eşq oduna yandım" – demək,
gözlərindən od ələmək,

alov rəngli gül iyləmək
atəşpərəstlikdən qalıb.

Hirsin suynan soyumağı,
od yurdunda suyun dağı,
sərhədimin su olmağı
atəşpərəstlikdən qalıb.

DOSTUM ABBASIN QƏBİR DAŞINA

Çox cavan oldum mən... torpaq yığını
Min-min görüləsi işlərim vardı.
Mənim həyatımın ağırlığını
dünyaya yükləsən, qozbel olardı.

Heç kəsin dərdinə gülməmişəm mən,
Mənə ağlamayın, nə də gülməyin.
Bura öz xoşumla gəlməmişəm mən,
əgər bacarsanız siz də gəlməyin.

GECƏLƏR MƏNİ...

Dünyanın ən ağır yolu gecədir,
dünyanın ən böyük sevinci səhər.
Mənim çətinliyim mən ölüncədir,
sonrası?.. Sonrası hər şey düzələr.

Ən yaşlı adam da gecə uşaqdır,
Tənhalar ölümlə vuruşur hər an.
Gecələr zülmətə qərq olacaqdır,
Tənhalar getsələr əgər dünyadan.

Tənhalar əvvəldən olub utancaq,
Mən də tənhalardan biriyəm, varam.

Siz məni gecədən qoruyun ancaq
sizi axşamacan mən qoruyaram.

Qoruyun deyəndə, mənə zəng edin,
söyün, hirsləndirin, yata bilməyim.
Yuxumu qaçırıb məni dəng edin, –
ölüm yuxusuna bata bilməyim.

ŞÜKÜRLÜYÜK

Torpaq milyon illər yaşayar, susar,
üstündə hər nə var qoynuna gedər.
Bir budaq üstündə yaşıl yarpaqlar
yaşayar payızdan bahara qədər.

Artıqdır bizim bu həyəcanımız,
yarpağa öz ömrü əzizdir, əziz.
Torpağa baxanda – heyif canımız,
yarpağa baxanda şükürlüyük biz.

GƏMİLƏR

Gəmilər həmişə sahilə gedər,
dözər yollarının çətinliyinə.
Sevinər sahilə çatana qədər,
görər ki, bu sahil o sahil deyil,
başqa bir sahilə üz tutar yenə.

Bilməzlər nə qədər yolu qalıbdır,
həyatları sudur, ölümləri su...
Sahildə gəmilər ölü balıqdı,
dənizin dibində gəmi ölüsü.

QOCALIQ

Qocalığın itir
dostları,
taqəti,
gəncliyi.
Nə işi-gücü olmur,
nə də olmur dincliyi.
Hara
nə atılsa
Gəlib qocanın xətrinə dəyəcək.
Dilinə nə gəldi deyəcək.
Bir gözün
həmişə üzündə
ola gərək.
Yüz nəvəsi,
nəticəsi olsa da,
qocalıq olur
kövrək, tək.
Dağa qalxa bilməz
dağ arzular.
Gecəli, gündüzlü
səfərdə olmaq
arzular.
Neyləsin adam qocalır,
qocalmır arzular.
Qocalıq –
dar qılıq;
yaxşı yaşamısansa,
nə olar,
qocalıq üz ağlığıdı.
Qocalıq adamın
ikinci uşaqlığıdı...

ÖKÜZLƏR

Ayaqlarım
bir cüt
yorğun öküzdü.
Qamçılayıram, –
yatmayın;
Nə də tələsməyin,
yolu qısaltmayın.
Çəkin mənim
qızıl öküzlərim.
Gileylənməyin,
təkcə siz yorulmamısınız,
yorulub gözlərim,
əllərim, ürəyim.
Yorulub,
əyilib kürəyim.
Çəkin ayaqlarım,
çəkin,
dözəm
gərək.
Yükümüz arzudu,
xatirədi – kövrəkdi.
Çəkin,
yükümüz
axırıncı dayanacağa kimi
gərəkdi.
Sızıldayıb,
gileylənirsiniz arada.
Sızıldayır kürəyim də,
qollarım da,
Sızıldayır
bu köhnə araba da.
Sızıldamaq asandı,
dözmək çətin.
Yaxşı ki, diliniz yoxdu,
çəkin öküzlərim,
çəkin.

MƏN ADƏMƏM

Mən Adəməm.
Məhəbbət acısı,
çörək dərdi,
ağlı-qaralı günlər olmasa,
adam doğulmasa, adam ölməsə,
darıxaram,
rahatlıqdan ölərəm,
İşsizlikdən çürüyüb tökülərəm.
Ütülü, kraxmallı mələkələrin
əsnəyə-əsnəyə oxuduğu nəğmələr,
bülbüllərin cənnətin şərəfinə
vurduğu zəngulələr, nalələr
meyvə bolluğundan dadsız olur.
İnsan ölümsüz olanda
həyatsız olur, adsız olur.
Mən Adəməm.
Nə Allaham,
nə də Allahın oyuncağı.
Mənə torpaq
sığınacağı lazımdı,
Prometey odu,
insan ocağı.
Mən əkməliyəm, –
boylu qadınlar kimi
zəmilər yırğalansın.
Əkdiklərim gül açsın,
sünbül açsın,
dil açsın.
mən Adəməm,
cənnət adlı konslagerindən
qov məni;
yoxsa özüm qaçaram.
Mən Adəməm,
özüm bütün kilidlərə açaram.
Şeytan məni aldatmayıb,

Mən şeytanı aldatmışam.
Elə iblislər yaratmışam, –
fitnə göyərdər daş içində,
dərya dibində.
Fitnələrin lap son dəbində.
Aləmi elə qarışdırar ki,
di gəl, yaxşıyla, pis şeyi tanı.
Öz fərsizliyindən utanıb
baş götürüb qaçar
Allahın şeytanı.
Mən Adəməm,
yarı sevincəm, yarı qəməm, –
bir üzdə iki göz kimi,
gecə kimi, gündüz kimi.

BALALARA

Oğlum, mən sənə aşiq olmaqla məşğulam
N.Hikmət

Balam,
uşağın insan olması
uzun işdi.
Bu vuruşdu, döyüşdü.
Lap od içində də
ata-bala fərqlidi;
Biri qurudu, biri höyüşdü,
biri o saat od alır,
biri qovrulur;
ütülür, qaralır.
Ata-ana
özlərinin də bir vaxt
uşaq olduqlarını unudublar
o illəri qoyub qaçıb,
yeyib, udublar.
İndi düşünməmiş
danışa bilmirlər,

Tez coşa bilmir,
daşa bilmirlər.
İndi özlərinə qala olub
öz başları.
Sevinci, kədəri
başlarından aşa bilmir.
Balam
böyük olmayıb heç vaxt.
Danışır talehi-baxt.
Dopdoludur,
ləpələnə-ləpələnə gəzir.
Gəzmir, qucaqdan-qucağa kimi üzür.
Sevinci fəvvarə kimi
qalxır çilənir evə,
kədəri çiskin kimi
ələnir evə.
Balam,
çox qəribə iş bölgümüz var bizim.
Sənin borcundur cığallıq eləyəsən,
mənim borcumdur dözüm.
Çörəyini qazanım gərək,
ayaqların altına
körpü kimi uzanım gərək.
Bəbəyimdədir yerin,
ürəyimin içindədir yerin;
nə qulunam sənin,
nə də əsirin.
Atam da mənim kimi
cani-dildən çalışmış...
Alqış!
Bizi bağlayan məhəbbətə
alqış!
Bu da mənə böyük hörmət imiş...
Sən varsan yer üzündə,
özümü öldürürəm sənin üçün,
heç nə gözləmirəm əvəzində...

Hamı insan balasıdı.
Hərə bir ananın, atanın
özünü övlad üçün oda-suya atanın
gözünün nurudur,
başının bəlasıdır...
Kainatda
balaca bir mənzildir
Yer kürəmiz.
Bilmirəm niyə, ey insanlar
ata-bala məhəbbətiylə
yaşaya bilmirik biz.

YUXUMDA BALIQ OLMUŞDUM

Yuxumda, pulları
işım-işım işıldayan,
gözü sudan doyan
balıq olmuşdum.
Zərif-zərif qanadlarım vardı,
üzürdüm
mavilikdə, sərinlikdə.
Qorxudan, qayğıdan
kənarda, dərinlikdə.
Yox idi
adamların "mənəm" deyəni,
adamların adamyeyəni,
heç nə hədələmirdi məni.
Yuxumda balıq olmuşdum,
qorxudan, qayğıdan yuyulmuşdum.
Sən demə,
balıqların da
özünü öyəni var,
Balıqların da balıq yeyəni var.
Balığın düşməni oxşadıb özünü
ağaca, daşa...

Bir də gördüm ağac da balıq yedi,
daş da balıq yedi.
Di gəl yaşa...
Bir yandan da
balıqçı torları...
Torlar gün işığı kimi
sərilib dənizə,
torlar su kimi,
dalğa kimi
sarılacaq bizə...
Sonra da sahil.
Di gəl, balıq olub
salamat qala bil.
Öyrəndim ki,
balıqlar
çox az-az özləri ölür. –
Tutulur,
cavanı cavan,
qocası qoca yeyilir.
Darıxdım...
çapalayıb balıq kimi
yorğan-döşəkdən çıxdım.
Gözümü açıb
işıqlı dünyaya baxdım.
Çox şükür ki,
balıq deyiləm.
Ürəklə durub
şəhərə getdim
Əşi, balıq deyiləm ki,
yeyiləm.
İnsanam, güclüyəm,
varlıyam.
İnsanam – vüqarlıyam.

DARIXMIŞDIM

Bu gün doğma yerlərdən keçdim,
qar əvəzinə
şoranı ağaran – aran.
Salam!
Salam yovşanım,
yulğunum,
şaxtikanım;
Mənim haysız-küysüz
şöhrətim, şanım.
Sizdən ötəri burnumun
ucu göynəyir,
bəhanə tapıb gəlirəm
Mən sizi görəndə
kövrəlirəm.
Mən də şaxtikanam,
gözəl çiçəyim,
acı tikanım var.
Şoranlı çöllərdə
mənim də şaxtikan adım-sanım var
Sizdən yoğrulub
sümüyümün iliyi.
Yurdumun
dağı var, dərəsi var.
Şəlalə hörükləri var,
dağkəli bərəsi var.
Çinarları var, –
buluddan şimşək tutar
budaqları.
Yamaclar var, –
bayatı deyir bulaqları.
Mən gözümü açıb
yulğun görmüşəm,
Yulğuna oxşayıram
boyda, dözümdə.
Bil ki,

səni də sevən var
bu yer üzündə.
Sən demə, bu gün üçün darıxmışam,
boynumu dalayan
bürkün üçün darıxmışam.
Şaxtikanım,
yulğunum,
şoranım, –
gözüm, canım darıxmışam.

MİNGƏÇEVİR ŞƏHƏRİNDƏ

Bir nəğməli quş olaydım,
kəkliklərə qoşulaydım...
Mingəçevir dağlarında
Bağ – meyvənin, çöl – çəmənin
Su – balığın, dağ – qarındı...

Boz dumanı yaylıq olar,
yayda bura yaylaq olar.
Adam dönüb balıq olar
səhər-səhər dan üzündə
Mingəçevir dənizində.

Dalğaları şirin sözlü,
küçələri gülər üzlü,
gecələri qara gözlü...
Ağ günüm – al səhəridi,
Mingəçevir şəhəridi.

Adam gətir bura qardaş –
gözləri buz, ürəyi daş...
Bir gözəlin baxışından
əriyəcək yavaş-yavaş,
vurular ilk səfərində
Mingəçevir şəhərində.

PAYIZ

Budaqdan yarpaqlar uçub gediblər,
birinin xətrinə dəyiblər, qalıb.
Günəş – gülöyşə nar gəzalı kimi,
içinin odunu yeyiblər, qalıb.
Yaman doluxsunub qara buludlar –
"Bir az da möhlət ver" – deyiblər, qalıb...

KƏNDİRBAZLAR

Yer üzündə böyük bazar,
bazarın da başı üstə
kəndir çəkir kəndirbazlar.
Kəndirbazlar öz ömrünə gülənlərdi.
Pul qazanıb girlənməyə gəlməyiblər,
bu dünyayla zarafata gələnlərdi.
Aşağıda – böyük bazar,
alma var ha,
vicdan var ha...
Armud var ha...
ümid var ha...
Hər kəs əlinə keçəni
çəkib tökür bu bazara.
Yuxarıda kəndirbazlar keçib gedir –
sağı ölüm, solu ölüm,
yolu kəndir.
Elə ki, biri sürüşdü –
sağa düşdü,
sola düşdü,
Elə ki biri sürüşdü, nə fərqi var.
Kəndir boğazına keçdi, nə fərqi var...
Aşağıda öz işində
olacaqdır yenə bazar.
Yenə, yenə yuxarıda
taleylə oynayacaq
yeni-yeni kəndirbazlar.

DƏLİ ÜRƏYİM

Dəli ürəyim,
qışqırsana bir gecə,
yatmadığımı hamı bilsin.
Elə qışqır
şəhərdə heykəllər dirilsin
Asfaltın altında
səksənsin qara torpaq.
Dəli ürəyim, bəri bax,
partlama, qışqır ancaq.
Sənin dəliliyindən
coşmuşam, çağlamışam,
Sənin ağrılarından,
uşaq kimi ağlamışam.
Mən səni daş hasarda
saxlamışam.
Ayağımın altı daş,
başımın üstü daş,
dörd yanım daş.
Sən ki daş deyilsən, qardaş!
Nə istəyirsən axı?
Yerin xamlığını əlindən aldıq,
göydən qovduq Allahı
Sən ətri qoxulanmamış
çiçək axtarırsan.
Dodaq dəyməmiş söz,
Xal düşməmiş ürək axtarırsan.
Sinəmdə od qalayırsan.
Sinəmdə dil qanmaz körpə kimi
çapalayırsan.
Maşınların arasından
salamat çıxmağa gümanım olmaz,
işıqlar gəlməsə köməyə.
İstəyini üzüm gəlmir deməyə.
Gərək cilov boşaltmayaq sözə.

Vallah, gülərlər bizə.
Dəli ürəyim, qışqırsana bir gecə,
yatmadığımı hamı bilsin.
Elə qışqır, heykəllər də dirilsin...

DEDİM

Dedim: ayaq saxla, dayan bir görək,
baxışın ruhumu aldı, apardı.
Dedi: lap dayandım, nəyimə gərək,
xəstəsən, iynəni vurdum, qurtardı.

Dedim: ürəyimdə bir sızıltı var,
dayan, gözlərinə qoy baxım bir az.
Kövrəyəm, baxaram, könlüm xoş olar,
sənin gözəlliyin qorxma, azalmaz.

Dedi: qızdırmada yanırsan sən ki,
siz allah, siz buna bir qulaq asın.
Dedim ki, xəstəyəm, ölməmişəm ki,
baxışım boynunu qucaqlamasın.

XƏSTƏXANADA

Hardan gəldi qulağıma
bu durna səsi.
Hələ ömrümün
payızına qalıb.
Bir-iki xəstə yarpaq,
yarpaq tökümü deyil.
Hələ əllərim
uzana qalıb.
Borclu-borclunun
sağlığını istəyər. –

Dünya, sənə vallah,
borcum var.
Körpəcə qızlarıma
hələ yaşamaq borcum var.
Hardan gəlir qulağıma
bu durna səsi.
Hələ ürək dolusu sevilməmişəm.
Nə də avara kimi söyülməmişəm.
Nə də Nəsimi tək soyulmamışam.
Bu ömürdüsə
hamı bəs,
döyülməyim,
söyülməyim,
sevilməyim.
Nə tez yadınıza düşdü ölməyim
Hardan gəldi qulağıma
bu durna səsi.
Hələ gözlərimdə
yaşıl-yaşıl arzular pöhrələyir.
Göz-göz açılır ürəyimdə
körpə-körpə yarpaqlar.
Saçlarım gözləyir ki,
əllər qonacaq ona –
saçlarımın qaranquşu.
Saçlarımın qaralmaq ümidi var.
Gözlərimin vurulmaq ümidi var.
Öz nəfəsimdən ağzım qarsalır.
Hələ qızınan vaxtım deyil
yarpaq sarısına,
qızıl sarısına
batan günəşin sarısına...
Hardan gəldi qulağıma
bu durna səsi.

DİPLOMAT ARVADI

Ağır işdi yola vermək
qəbulları, görüşləri, –
Qram-qram ölçülübdü
gəlişləri, gedişləri,
geyimləri, gülüşləri.
Hər ikisi bir işçidi
ər-arvaddı,
sevir-sevmir dəxli yoxdu.
Bir səngərdə
onlar iki döyüşçüdü
İkisinin çiynindədir
bir ölkənin ağır adı.
Naməlum bir qəhrəmandı
əsl diplomat arvadı.
Nə ərindən keçə bilir,
nə işindən bezə bilir,
nə də gözəl qadın kimi
deyib, gülüb gəzə bilir.
İstəyini, iştahını, tamahını
unudubdu.
Ürəyindən gələn sözü
min yol qaytarıb udubdu.
Ondadır ki, böyüklüyü
dözə bilir, dözə bilir,
özündən də güclü olub
dözməkdədir istedadı.
Naməlum bir qəhrəmandı
əsl diplomat arvadı.
Qərib eldə öz ərinə
arxa olur, kömək olur.
Yorğun vaxtı, gərgin vaxtı
dönüb zərif ipək olur.
Bəzən onun bircə sözü
ikinci bir ürək olur.

Bir doyumluq ağlamağa,
gülməyə də həsrət bacı.
Gözündə də görünməyir
bu yorğunluq, ağrı, acı.
Yerişini, duruşunu
özü baxıb, görüb seçər.
İçkini də qram-qram
əzbər bilər, əzbər içər.
Dodağında hiss olunar
sözün yükü, sözün dadı.
Naməlum bir qəhrəmandı
əsl diplomat arvadı.

ZƏNCİ QIZ

Batan günəşin
son şüaları kimi
ürəyimin əynindən
cırıb atmışam
məhəbbətini;
atmışam yer kürəsinin
o üzünə.
Sənsiz bu boş dünyanın
Məhəbbəti də qalsın özünə.
Bu axşam
ürəyim çılpaq qalacaq.
Ürəyimə gecə dolacaq.
Gecə dolacaq gözlərimə.
Gecə hopacaq sözlərimə.
Damarımda qan əvəzinə
gecə olacaq.
məhəbbətsiz qara,
qaraların ən qarasıdı.
Gecə özündən qaranı
görüb qorxacaq.

Dişlərimin üstünü örtərəm.
yumaram gözümü;
gecəyə qatıb,
yox elərəm özümü.
Gecə çəkiləndə
eben ağacından yonulmuş
qadın heykəli kimi
düşüb qalaram gecədən.
Ehey!
Məhəbbəti sönmüş,
daşdan soyuq,
qaradan qara!
Məni də məhəbbətsiz heykələ döndərdin
İndi apar sat
əcnəbi səyyahlara.

QOCA FİL

Heyvanxanada qoca fil var,
dərisi
susuz torpaq kimi
cadar-cadar.
Gözləri həmişə yumulu,
xəyalında Afrika meşəsi,
meşənin fil qəbiristanlığına
gedən yolu.
Gülünc olub çaqqala,
qaraqulağa;
tülkülər də qoyur onu lağa.
Ərinir milçəyini qovmağa,
başını bulamağa.
Başını bulamır ki,
dağıdar xatirələri, –
başı xatirələrlə dolu.
Xəyalında fil qəbiristanlığına
gedən meşə yolu.

Xəyalında gedir, gedir.
Ölümünü an-an sürüyür, ləngidir,
Tənhalığa çəkilmək üçün
fil kimi xəlvət ölmək üçün
xəyalında gedir, gedir,
Yenə gözünü açanda
görür ki: yenə heyvanxana...
Tamaşaçılar düzülüb
ətrafına,
Baxır tülkü, dovşan...
Gözünü yumur,
pərişan, pərişan,
Birtəhər ayaq üstə dayanır, donur –
yıxılmasın deyə...
Utanır bunların yanında
yıxılıb ölməyə.

ODLA SU ARASINDA

Saçları ağ ipəkdi,
gözləri mavi dalğa,
yerişi elə bil ki,
xoş ətirli küləkdi
Görüb mat qalmışam mən, –
insandı, ya mələkdi.
İstədim yaxınlaşım,
yadıma düşdü yaşım.
İstədim dönüb gedim,
nalə qopardı ürək.
Sancılıb yol yanında
axşama kimi qaldım
bir işıq dirəyitək.
Qız baxdı, güldü, getdi
naz-qəmzəsi üstümə
odtək töküldü getdi.
Yerə dikdim gözümü

danladım öz-özümü:
"Baxmağa utanırsan,
baxmayırsan, yanırsan,
Durma yol ayrıcında
Ya buza dön, ya da yan,
Ya qoca ol, ya cavan".

BU QIZDA SÖZ VAR

Gördüyünə sataşır,
qaynayır aşır-daşır,
ayaqları rəqs edir.
Dodağı nəğmə qoşur,
vallah, bu qızda söz var.

Dörd başlıdı hər sözü,
yandırır gülər sözü
gözündə cin çırağı.
Dodağı şeytan gözü,
vallah, bu qızda söz var.

Ana çaşıb qalıbdı,
bacı xəbər alıbdı.
Bir saatın içində
min bir hava çalıbdı,
vallah, bu qızda söz var.

Burnunda gül qoxusu,
çəkilibdi yuxusu.
Ürəyi içinə sığmır,
açılıbdı yaxası,
Vallah, bu qızda söz var.

İŞDƏN QAYIDIRAM

Yaman yuxusu gəlir
ayaqlarımın,
əllərimin.
Ayaqlarım yeridiyi yerdə
mürgü döyür.
Əllərim cibimdə mürgüləyir.
Onları işlədib
bərk yormuşam.
İşin kürəyini
yerə vurmuşam.
Amma özümdə də
qalmayıb
bir hal.
Qələbə halaldır, halal.
Amma hələ nə sağ ol de!
nə də bir söz
xəbər al!
Hələ yorğunam,
evə gəlirəm,
arvad hey...
yerimi sal.
Yatım dincəlim,
özümə gəlim.
Bu gün
tərpətməyin məni,
sabah bayram edərik qələbəni.
Ayaqlarım durduğu
yerdə rəqs eləyər,
dodaqlarım nəğmə deyər.
Dünənki günü salar yada,
əllərim ağac budaqları kimi
Fərəhlə yellənər havada.

PƏLƏNG ARZUSU

Təlimçi
pələngi eylədi
oyuncaq.
İşarə eləsən
uzanacaq,
atılacaq,
dal ayaqları üstə qalxıb
oynayacaq.
Pələng oldu oyuncaq. –
Qaytarıb atdı cəngəlliyə,
yaşa deyə.
Gövdədə pələnglərdən
yekə,
səsdə pələnglərdən heybətli,
dişləri iti,
pəncəsi nəhəng
pələng
Meşənin şahı oldu.
Pələnglərin
pənahı oldu.
Nərəsindən titrədi
göy, yer
heyvanlar nədi,
yüzillik ağaclar titrədi
tir-tir.
Amma ürəyini
güvə kimi yedi bir qəm:
nə ola
təlimçini bir də görəm,
işarə eləyə
atılam,
uzanam,
dal ayaqlarım üstə
qalxıb rəqs eləyəm.

SU DA SÖNDÜRMƏDİ HEYRƏTİ

Uşağa yalan deyib
yekə bir kişi,
üzü-üzünə,
gözü-gözünə.
Uşaq iki gündü çaşıb,
uşaq gəlmir özünə.
Qalıb baxa-baxa...
"Ulduza bax ha,
Aya bax ha...
Dünyaya bax ha...".
Yuxusunda da
yekə kişi vardı,
yekə bığı vardı.
Ağzında da
Ay boyda yalan
yanırdı.
Uşaq qışqırıb
yuxudan oyanırdı.
Mat qalmışdı uşaq,
bığa bax,
yalana bax.
Papağa bax,
saqqalı ağ
ağsaqqalda
ağ yalana bax!
Qorxmuşdu Xədicə xala:
– Qurban olum, bala,
su iç, su,
suynan sönür od,
suynan soyuyur hirs.
Suynan yuyulur
adamın qorxusu.
Su iç, su!
Quduran itin,

qəzəbin, kinin
qızmış dəlinin
üstünə su çiləmişəm.
Süst eləmişəm.
Su iç bala, su,
yuyulsun gözlərinin
heyrəti, qorxusu,
dili qurusun
gopçu Məhəmmədin.
Adam tapdı yalan danışmağa,
su da təsir eləmir uşağa...

KÜÇÜK

Çöldə bir küçük var totuq, balaca,
bayırda soyuqdu, bayırda qardı.
Qış baxmır çılpağa, qış baxmır aca,
qışın qərarı da soyuq qərardı.

Nə qədər qorxu var qara gözlərdə,
qapıya sığınıb yazıq, qorunur.
Yalın ayağından qalan izlər də
qar üstə elə bil üşüyür, donur.

Qapı dabanında, küncdə büzüşür,
gözü yaşla dolur, küçük ağlayır.
Bəzən də üstünə lopa qar düşür,
qışqırıb qapını o, cırmaqlayır.

Evə girsin deyə qapını açdım,
çəkilib qar üstdə kənarda durdu.
Gəldim ona sarı, ona yanaşdım,
baxıb yazıq-yazıq boynunu burdu.

Deyirlər, murdarsan, elə olsa da,
körpə taleyinlə əzizsən, küçük!

Elə murdarlar var qoca dünyada,
onlardan min dəfə təmizsən, küçük!

Ay küçük mən səndən pis gün görmüşəm
Sən öz it gününə çox pis gün demə
Elə adamlara çörək vermişəm
Yeyib çörəyimi hürüb üstümə.

İstəsən şeir də oxuyum sənə,
nə olar, ay yazıq, adın küçükdür.
Elə adamlara şeir demişəm
Onlar qanacaqda səndən kiçikdir.

Zarafat həddini bəlkə aşıram,
xilqətin dözümlü, igid küçüyü
Elə sən susursan, mən danışıram,
Tutur söhbətimiz, ay it küçüyü!

GƏL BÖLÜŞƏK

Şerilərimin tərsi mənim,
düzü sənin.
Balalarımın səsi mənim,
özü sənin.
Ürəyimin içi mənim,
üzü sənin.
Apar qaval çəkdir, –
yaxşı qaval olar;
Fikir vermə,
çalanda ağlayır-ağlasın,
gülür-gülsün!
Həmişə içindən döyülüb,
bir az da üstündən döyülsün.
Ömrümün xoş günləri sizin,
dərdləri mənim...

Dillərin balları sizin,
ödləri mənim.
Dostlarımın yaxşıları sizin,
bədləri mənim.
O dostları da
mən qazanmışam...
Qazandıqlarımın
yaxşısını da,
pisini də
əzizlədim. –
Yaxşıları sizin,
pisləri özümlə aparım...
Torpağın altında gizlədim.

GİLEYLƏNMƏYİR

Taleyə uzanır narazı əllər
Dinən: "mənim payım az oldu" – deyir
Yəqin bircə ağlı düz bölübdülər,
Heç kəs öz ağlından gileylənməyir.

QARSİA LORKANIN SON ANLARI

(Qarsianın səhər alaqaranlıqda, yağışlı havada güllələməyə aparırlar)

Zabit dedi:
– Çıx, şair! –
Vaxt çatdı, zindandan çıx.
– məni azad edirsiz?
– O dünyada üzünə
Bütün qapılar açıq.
Güllələnmə vaxtındı...
Qarsia deyindi ki:
– Hava yağış, yer palçıq,
Elə bil qəhət olub

Bu günlər, aylar, illər;
Heç belə havada da
Adam güllələyərlər?..
Zabit dedi:
– Xoşbəxtsən.
Sən deyinə bilirsən,
Biz qanunun lalıyıq.
Sənə nə var, biz hələ
Geri qayıtmalıyıq.

QAÇQIN GƏLİNƏ

Yayda yaylağa gedərlər,
Səni sürdülər arana
Yayın cırcırama çağı
Mən də duz basdım yarana.
Xəyalın dağlar qoynunda,
Yarpızlı dovğa bulayır.
Dağda sənsiz qalan yurdun
Axşam qurd olub ulayır
Evi viran qalan bacım,
Gözü-könlü talan bacım.
Ala gözə bulud qonur,
Göz yaşın qəlbinə axır.
Sinəni yandırır, yaxır,
Yuxarıdan Tanrı baxır,
"Yaxan düymələ, düymələ".

* * *

Yollar uzun, dağlar uzaq,
Bu dərd varaqlara sığmaz,
Bu dərdi yollara yazaq.
Eyvanda qalan kitabı
İndi külək varaqlayır.
Siz dərəyə qaçan yerdə,

Hələ də bulaq ağlayır.
Məhlədə qalan yüyrüyü
Hansı xəyal yırğalayır?
Ağzı açıq qalan evlər
Axşam qurd olub ulayır.
Xəyal zəncir qırar qaçar,
O səsdən ürək çapalar,
Ürəyin sinəndən uçar,
"Yaxan düymələ, düymələ".

* * *

Bir gün köçün dönər geri,
Gözündə ümid işığı,
Ürəyində yanıq yeri...
Yurd üçün susuz dodağın,
"Oxqay" – deyib öpər yeri.
Darvazasız məhlələrin,
Divarı, daşı kövrələr.
Ürəyimdə daşa dönmüş,
Gözümün yaşı kövrələr,
Susub qəlbimdə inlərəm:
"Bəndləri uçuq ellərim,
Yaxası açıq evlərim,
Yaxan düymələ, düymələ".

TƏNHALIQ

Adam bolluğunda elə boğuluram hərdən,
Qaçmaq istəyirəm
evdən, şəhərdən
Qohumdan, dostdan, tanışdan.
Özümün özümlə o qədər
söhbətim var,
Əgər vaxt tapıb danışsam.

17.11.1999

TƏNHA AĞAC

Yol yanında tənha ağac
Yorğun yolçular üstündə
Allahın yaşıl əlisən
Düzəndə tənha qaralan,
Qarşılayan, yola salan,
Yüz illər bir yerdə qalan,
Səbir, təmkin heykəlisən.
Nə çoxdu ağac meşədə,
Hər ağacın öz adı var,
Bu çılpaq, sonsuz guşədə,
Bir yaşıllıq fəryadı var –
– Adı da tənha ağacdır.
Niyə *meşələrdən* qaçdı?
Niyə düzdə, səhralarda
Yaşıl fəvvarə tək daşdır.
Yol yanında tənha ağac,
Təklik Allaha yaraşır.
Barı bir yol qəlbini aç!
Danış, hönkür, hıçqır, bağır.
Qoy görsünlər göz yaşların,
yaşıl yarpaq olub yağır.
Yol yanında tənha ağac
Yaradan da *təkdi*, haqdı.
Bəli, elə əsl səfər
Özünə sadiq olmaqdı,
Bir kökdə də dayanmaqdı.
Qaçan hara qaçır axı,
Taledən qaçmaq olmayar!
Uçan hara uçacaqdı
Taledən uçmaq olmayır.
Doğulduğun əzəl gündən
Özünə doğrudur səfər.
Zaman boyu fasiləsiz
Qaçır gecə, qovur səhər.
Yarandığı əzəl gündən

Yer dolanır, göy dolanır
Öz oxundan çıxan çıxır,
Uçan uçur, yanan yanır.
Bu kainat yaranandan
Təklər dilində danışır.
Yol yanında tənha ağac
Təklik Allaha yaraşır.

BİR YANDAN DA BELƏ...

Dayanıb gözləyir,
Hər çiynində bir mələk.
Başının üstündə
Ulu Tanrının damı.
Barmağı tətikdə,
Göz nişangahda,
Gözləyir öldürüləsi adamı.

Öldürüləsi adam gəlir.
Arxasında ömür yolu,
İrəlidə arzuları, yolu.
Heç nədən xəbərsiz
Zümzümə eləyir adam oğlu.
Çiyinlərində
Xeyri, şəri yazan mələklər,
Başının üstündə
Ulu Tanrının damı.
Bilmirəm yağışdı.
Yoxsa taleyin göz yaşlarıdı
damır...
Biz doğulan gündən
Ölümə məhkumuq
Ulu Tanrının hökmü ilə,
Bir yandan da belə...

GÖZ YAŞI DEYİL

Yox, bala, bu göz yaşı deyil,
Şəhərimizin damından damır.
Yəqin göyə nəsə olub,
Allah bizim günümüzə ağlamır.

MƏCBUR OLMAYAQ

Mərhəmət eyləmək, şirin söz demək.
Odu qorumaqdı kül arasında.
Tanrıya əyilmək, haqqa baş əymək.
Ucalıq sayılır el arasında.

Barı haqq olmaqdan bezməsin haqq da,
Ayaqlar altında yorulmasın yol.
Bu ağır zamanda, bu bərk ayaqda,
Ya rəbb, xalqımıza özün kömək ol!

Beşikdi, məzardı anamız bu yer,
Şərəfli övladdı bizim barımız.
Düşmənə insaf ver, bizə səbir ver,
Qəddar böyüməsin balalarımız.

Ya rəbb, məhəbbətsiz gültək solmasın,
Mələklər mələyi, insan uşağı.
Bizim qəlbimizdən əskik olmasın,
Məhəbbət, mərhəmət, həyat işığı.

İmkan ver, olmayaq yamana-yaman,
İnsanlıq gözlədik, insan itirdik.
Hər yandan əlimiz üzülən zaman,
Sənin dərgahına pənah gətirdik.

Dumana dirənir ömrün yolları,
Sil bu dumanları ağıldan, gözdən.
Bizə bir yol göstər, ey ulu Tanrı.
Sonra utanmayaq tariximizdən.

SEVGİ GÖZƏL BƏLADI

Sevgi gözəl bəladı,
Bəlası mənə gəlsin.
Onsuz həyat zülmət idi,
Zülmətli günə gəlsin.
Yazığı gəlsin mənə,
Dolansın, yenə gəlsin.
Ən qədim dindi sevgi,
Bu dünya dinə gəlsin.
İnsandan bu dərd qalır,
Ömür gəldi-gedərdi...
Ya rəbb, heç vaxt nadana
Qıyma bu gözəl dərdi.

Ulu vətən sevgisi
Sevgilərin tacıdı.
Şirinlərdən şirindi,
Acılardan acıdı.
Onun zülmünü çəkmək
Ruhun ehtiyacıdı.
Bu sevginin töhfəsi
Zindan, həsrət, ölümdü.
Ölümə hazır olmaq
Özü dərin elmdi,
Bunu sevənlər bilir.

Azadlığın sevgisi
Varlığın sevgisi
Bu azadlıq deyilən
Gözəllər gözəlidi.
Azadlıq ulu Tanrı,
Tanrı bəşərin yarı...

Vətənimin bayrağı
Xalqımın başı üstə
Ulu Tanrı əlidi.
Məcnunam desəm azdı,

Könül bu məhəbbətdən
Divanədi-dəlidi.
Xoşbəxtlikdən uludu.
Mənim bu əziz dərdim.
Heyif bircə canım var
Bu sevginin yolunda
Yüz min dəfə ölərdim.

QOCALIRAM

Oyuna gendən baxıram,
Axara düşüb axıram,
Təklənirəm, darıxıram,
Elə-belə qocalıram.

Daha üzüm o yanadı,
İşim hamısı miyanadı,
Hər an bir addım yanadı,
Gilə-gilə qocalıram.

Öz qarnını güdə-güdə,
"Kişi" oldu gədə-güdə,
Onlardan gen gedə-gedə,
Gələ-gələ qocalıram.

Yamanca tərsdi qocalıq,
Yolumu kəsdi qocalıq,
Bilirəm pisdi qocalıq,
Bilə-bilə qocalıram.

Arvad-uşaq, bacı-qardaş,
Yola salın yavaş-yavaş.
Saçımda qar, kirpikdə yaş,
Gülə-gülə qocalıram.

Gedən cana nə gələcək
Fikrət Qoca gözünü çək,
Görən deyir düzələcək!
İldən-ilə qocalıram.

YAŞAYIR

Doğan günəş, yağan qar
Bu ilk bahar, son bahar,
Acı-şirin ağrılar,
Ömürdü keçər gedər,
Bu dünyada hər nə var,
Ömürdən keçər gedər.

Yolun əyrisi, düzü,
Dostun, düşmənin sözü,
Günün gecə-gündüzü,
Ömürdü, keçər gedər.
Yolların dağı-düzü
Ömürdən keçər gedər.

Zəhmətdən, qorxudan tər...
Nə əkmisən onu dər.
Qorxaq oğul, igid ər,
Zamanla ötər gedər.
Xatirəsi yaşayar,
Torpaq ömrü üyüdər,
Ömürdən keçər gedər.

YAŞAMIŞAM

Ürəyimin hökmü ilə
Dolanmışam, yaşamışam.
Sellər kimi bulanmışam,
Durulmuşam, yaşamışam.
İllərimdə bahar olub,
Qış olubdu, olan şeydi.
Yollarımda eniş olub,
Yoxuş olub, olan şeydi.
Ölüm-ölüm arasında
Bir körpü tək uzanmışam.
Baba, ata itirmişəm,

Övlad, nəvə qazanmışam.
Olan olub, keçən keçib,
Dünya yalan deyil daha!!!
Bir də bunlar mənim üçün
Təkrar olan deyil daha...
Nə qədər dost itirmişəm,
Nə qədər düşmənim gedib.
Burda mənim kölgəm qalıb,
Onlar ilə canım gedib.
Bundan belə yolum yoxuş,
Yüküm yüngül, mənzil yaxın.
Ömür bir göz qırpımıdır,
Gəldim, gördüm, gedim, baxım.

TƏSƏLLİ

İki sözü var dünyanın,
Biri doğru, biri yalan.
İki gözü var dünyanın
Biri gecə, biri gündüz.
İki yolu var dünyanın
Biri əyri, biri də düz.
Dünyayla bir yaranıbdı,
Bu çəkilər, bu bölgülər.
İki günü var dünyanın,
Biri ağlar, biri gülər.
Bir təsəlli var dünyada,
Biri gedər, biri gələr...

İNSAN NƏĞMƏSİ

Hələ söz yox ikən nəğmə var idi,
Sonra sözə döndü insanın səsi.
Elə əvvəlkitək səslənir indi,
Küləyin, yarpağın, suyun nəğməsi.
Solo oxuyurdu böyük bir xorda,
Bütün canlılarla verib əl-ələ.

Səsin gözəlini itirib insan.
Sözün yaxşısını tapmayıb hələ.
İnsan nəğməsiylə oyatdıq vaxtı,
İnsan nəğməsiylə əridi buzlar,
Sellərə çevrildi, düzlərə axdı,
O nəğmə hələ də çöllərdə sızlar.
Sızlar yamacların minbir gülündə...
Sızlar bulaqların şirin dilində.
İnsan nəğməsindən düşüb qalandı
Dünya dediyimiz bu insan bağı.
Sərçənin qəhumunu bülbül eyləyib,
İnsan nəğməsini yamsılamağı.
Əl-ayaq dəyməmiş, yerdə, diyarda,
Özünü axtarır insanlar indi.
Hələ söz yox ikən, nəğmə var idi...

BULUDLAR GETDİ

Buludlar getdi dənizə,
Dəniz çiməcək bu gecə.
Dənizə düşən damcını
Balıq əməcək bu gecə.

Ürək dolub bulud kimi,
Bu bir köhnə bayatıdır.
Ağlamağa ən xəlvət yer,
Leysan yağışın altıdır.

Balıq deyiləm mən susam,
Dəniz içində susuzam.
Ömrüm dönüb yuxu ola,
Mən onu tərsinə yozam.

Buludlar gedir dənizə,
Hər damlası bir sözüdür.
Buludların ağlamağa,
Xəlvət yeri dənizidir.

Poemalar

İNSAN SƏVİYYƏSİ

(poema-düşüncələr)

Salam, Kainat!
Salam, ey böyük həyat!
ey sükutla dolu
səyyarələr akvariumu.
Pıçıltımı eşidib
Məndən soruşma ki,
"haqq varmı?"
Məni görə bilmirsən deyə
Boylanma öz dibindən dərinə,
göyündən yuxarı göyə.
Mən o qədər kiçiyəm
zərrələr arasından gözlərin məni
tapıb yığa bilmir,
O biri o qədər böyükdü
kainatın da göyünə
sığa bilmir.
Görə bilməyəndən sonra
sənə nə fərqi var
kiçikdi, ya böyükdü.
İkisi də götürə bilmədiyin yükdü.
Qaranlığın sükutundan üzən
yaşıl bir adadı səyyarəm.
Kainatın böyüklüyünə qərq olan
bir səsdi, sədadı səyyarəm.
Milyon, milyon günəşlər yanır
Ətrafında səyyarələr
qızınır, üzür, dolanır.
Günəşləri kimdi alışdıran?
Kainat ulduzlar burulğanıdı,
Bu qazanı kimdi qarışdıran?
Mən yer kürəsində
zərrədən kiçiyəm.
Məndən də kiçikləri var qat-qat.
Bu gecə yarı
məni dəli saymasın deyə yanımda arvad,